RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 114 (8707) CÜMƏ, 4 iyun 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Bakı sürət yarışına hazırdır

### Paytaxtda idman həyəcanı başlayır

Bakı ilk dəfə deyil ki, "Formula-1" yarışına evsahibliyi edir. Şəhər indiyədək dörd dəfə - 2016-2019-cu illərdə bolid pilotları arasında sürət mübarizəsinin şahidi olmuşdur. Birisi gün "Formula-1" üzrə 72-ci dünya çempionatının 6-cı mərhələsi - Azərbaycan Qran-prisi motoidman fanatlarının diqqətini özünə cəlb edəcək. Beləcə Odlar yurdu beynəlxalq idman ictimaiyyətinin ən çox maraqlandığı məkan olacaq.

Ölkəmiz milli müstəqilliyin bərpasından bəri evsahibi kimi mötəbər beynəlxalq idman tədbirlərinin təşkilində yetərli təcrübə toplamışdır. Beynəlxalq turnirlərə hazırlıq işləri aparılarkən səlahiyyətli orqanlar vahid komanda kimi çıxış edir, idmançıların və azarkeşlərin rahatlığını təmin etmək üçün bütün lazımi tədbirləri görür. Təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilir. Ölkədən ayrılan qonaqlar vətənlərinə xoş xatirələr, zəngin təəssürat aparırlar. Ona görə də Avropa və Beynəlxalq Olimpiya komitələrinin, beynəlxalq federasiyaların rəhbərləri Azərbaycanın təşkilatçılıq səviyyəsini həmişə yüksək qiymətləndirir.

Bütün bunlar "Formula-1" yarışlarının təşkilinə də aiddir. "Bakı Şəhər Halqası" əməliyyat şirkəti həmişə əlaqədar dövlət orqanları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərmiş, Azərbaycan qran-prilərinin lazımi səviyyədə təşkilinə nail olmuşdur. Əməliyyat şirkəti bu dəfə də əvvəlki səviyyəni nümayiş etdirir.

Məlum olduğu kimi, mötəbər beynəlxalq turnirlər təkcə idman tədbirləri kimi özünü göstərmir. Yarışlar həm də təşkilatçı ölkələrin beynəlxalq aləmdə tanıdılmasında, yeni reklam edilməsində, eləcə də xarici turistlərin cəlb olunması yolu ilə yerli iqtisadiyyata dividend gətirilməsində əhəmiyyətli rol oynayır. Adətən hər hansı idman tədbiri təşkil edilərkən onun xərci-borcu, iqtisadi faydası əvvəlcədən hesablanır. Yoxsa böyük tamaşaçı auditoriyası toplayan Yay Olimpiya Oyunları, Avropa və dünya futbol çempionatları kimi idman tədbirlərinin təşkil edilməsi uğrunda ölkələr arasında az qala ölüm-dirim mübarizəsinin şahidi olmarıq.

Yarım milyardlıq tamaşaçı auditoriyasına malik olan "Formula-1" üzrə dünya çempionatı da bu qəbildən olan idman tədbirlərindəndir. Bu turniri təşkil edən başqa ölkələr kimi, Azərbaycan da pilotlar arasında sürət yarışından qazanır. İndiyədək Bakıda keçirilmiş dörd Qran-prinin ölkəyə verdiyi faydaya nəzər salmaq kifayətdir. 2016-cı ildən bəri paytaxtımızda təşkil olunmuş "Formula-1" Qran-priləri ölkəmizin tarixi yerlərinin, istirahət-kurort imkanlarının, füsunkar təbiətinin, habelə milli mədəniyyətin və yerli mətbəxin təbliğinə, xidmət sektorunun inkişafına müsbət təsir göstərmişdir.

Ardı 5-ci səh.

## Dayanıqlı elektrik enerjisi təchizatının təmin olunmasına mühüm töhfə




### Prezident İlham Əliyev 110/35/6 kilovoltluq "Binəqədi" yarımstansiyasının açılışını edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 110/35/6 kilovoltluq "Binəqədi" yarımstansiyasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlət başçısına yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 1952-ci ildə inşa edilən "Binəqədi" yarımstansiyası istismar müddətini iki dəfə keçmişdi. Bu isə texnoloji itkilərin çoxalmasına, müxtəlif qəza hallarının, qısaqapanmaların baş verməsinə, istehlakçıların enerji təchizatında fasilələrin yaranmasına səbəb olurdu.

Ardı 2-ci səh.

## Azərbaycanın Cənubi Qafqazdakı liderliyinə verilən qiymətin təzahürü

Həyata keçirdiyi məqsədyönlü siyasət, dünyada aktual problemlərin həllinə verdiyi töhfələr, regionda həyata keçirdiyi layihələr Azərbaycanı Cənubi Qafqazın lider dövlətinə, beynəlxalq miqyasda isə söz sahibinə çevirib.

Dünyanın böyük siyasi və iqtisadi dairələri Azərbaycanın regiondakı liderliyini və qlobal siyasətdə rolunu daim yüksək qiymətləndirmişlər. İyun ayının 2-də Azərbaycan Prezidenti İlham Əliyevlə Çin Xalq Respublikasının Sədri Si Cinpin və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında telefon söhbətləri zamanı səslənən fikirlər bir daha bunları təsdiqləyir.

### Si Cinpin: "Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz"

Azərbaycanla Çin Xalq Respublikası arasında əlaqələr dostluğa, qarşılıqlı etimada və çoxşaxəli tərəfdaşlığa əsaslanmaqla yüksək inkişaf dinamikası ilə seçilir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ilin mart ayında ÇXR-ə rəsmi səfəri ilə əsası qoyulmuş yüksəksəviyyəli siyasi dialoqun Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi nəticəsində sonrakı dövrdə ikitərəfli əlaqələr keyfiyyətcə yeni mərhələyə yüksəlib. Azərbaycan və Çin bir-birinin milli maraqlarına daim qarşılıqlı dəstək nümayiş etdiriblər.

Ardı 6-cı səh.

## Emmanuel MAKRON: "Arzu edirəm ki, birlikdə, xüsusən iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində böyük inkişaf potensialından istifadə edə bilək"

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Azərbaycanın milli bayramı münasibətilə Sizə və eləcə də bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi, sülh, firavanlıq və tərəqqi arzularımı ünvanlayıram.

Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının otuzuncu ildönümü yaxınlaşdıqca möhkəm və uzun müddət davam edən ikitərəfli münasibətlərimiz xeyli gücləndi. Cari il yanvarın 14-də son telefon danışığımız zamanı ikitərəfli münasibətlərimizə yeni bir nəfəs vermək istədik. Məhz eyni açıqlıq və səmimi ruhda cari il yanvarın 25-də Bakıya səfər etmiş Dövlət katibi Jan-Batist Lömuanı qəbul etdiniz.

Dağlıq Qarabağda ölümcül döyüşlərə son qoyan 2020-ci il 9 noyabr tarixli üçtərəfli Bəyanatdan altı ay sonra yerlərdə davamlı sülhə şərait yaratmaq üçün dərin işləri davam etdirmək lazımdır. Bu, xüsusilə Ermənistan və Azərbaycan arasındakı sərhədin sülh yolu ilə delimitasiyasını və hərbi əsirlərin öz yaxınlarına qovuşa bilmələrini nəzərdə tutur. Bölgənin bütün irsinin müxtəlifliyi ilə qorunması da vacibdir. Bu baxımdan, UNESCO-nun təklif etdiyi missiyanın təşkilini asanlaşdırmağınızı tövsiyə edirəm.

İkitərəfli münasibətlərimizin keyfiyyətinə şəxsi bağlılığınızı bilirəm. Sizinlə bunu bölüşür və arzu edirəm ki, birlikdə, xüsusən iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində böyük inkişaf potensialından istifadə edə bilək. Azərbaycan-Fransız Universitetinin timsalında və ya son dövrlərdə müsbət inkişaf əldə edən Fransa İnkişaf Agentliyi ilə ikitərəfli layihələrimiz dostluğumuzu gündəlik möhkəmləndirməyə və gələcəyə inamla baxmağa imkan verən nailiyyətlərdir. Biz bu ambisiyanı davam etdirməliyik.

Sonda Sizi əmin edirəm ki, Fransa himayəsi altında yüksəksəviyyəli bir dialoq qurmaq üçün Minsk qrupunun həmsədri kimi bütün öhdəliklərini davam etdirəcək və ölkənizlə Ermənistan arasında ədalətli, davamlı sülh və ortaq rifah mənbəyi əldə edilə bilər.

Cənab Prezident, Sizə olan yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Emmanuel MAKRON,***
***Fransa Respublikasının Prezidenti***

*Paris, 2 iyun 2021-ci il*

## İsrail Dövlətinin yeni seçilmiş Prezidenti zati-aliləri cənab İsxak Hersoqa

Hörmətli cənab Hersoq!

İsrail Dövlətinin 11-ci Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Xalqlarımız arasındakı dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan Azərbaycan-İsrail münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ikitərəfli əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizə ən xoş arzularımı yetirir, dost İsrail xalqının rifahı naminə qarşıdakı ali fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2021-ci il*

## İlham Əliyev Ağdamı inkişaf və quruculuğun yeni rəmzinə çevirir

### Müzəffər Ali Baş Komandanın xilaskarlıq missiyası ağdamlılarda əbədi ehtiram və sədaqəti daha da gücləndirib

Qarabağda böyük tikinti bumu yaşanır. Müasir avtomobil yolları, dəmir yolu xətləri çəkilir, hava limanları tikilir və müxtəlif sosial-iqtisadi obyektlərin, Zəngilanda "ağıllı kənd" layihəsinin icrası davam etdirilir.

Mayın 28-də Prezident İlham Əliyevin Baş Planını təsdiqlədiyi Ağdam şəhərində isə misli görünməyən geniş quruculuq işlərinə başlanılıb. Prezidentin məhz ilk olaraq "Qarabağın giriş qapısı" sayılan Ağdam şəhərinin təməl daşını qoyması rayon ictimaiyyəti tərəfindən sonsuz sevinc və şövqlə qarşılanıb.



Bu günlərdə biz də yolumuzu Ağdamdan saldıq. Səfər zamanı şahidlik etdiyimiz mənzərə həqiqətən bizdə də xoş ovqat yaratdı. Demək olar ki, böyükdən kiçiyə hər kəsin simasında sevinc və qürur hissi yaşanır.

Həmsöhbət olduğumuz rayon sakinləri, ziyalılar birmənalı şəkildə qeyd edirlər ki, Ali Baş Komandan İlham Əliyev hər kəsin uzun illərdir həsrətlə gözlədiyi günü, xəyalları, arzuları gerçəkliyə çevirib və buna görə də Prezidentə ömür boyu minnətdardırlar.

### Prezidentin verdiyi bütün tapşırıqlar uğurla həyata keçiriləcək

Düşmən tapdağından azad edilən Ağdamın artıq intibah dövrü başlayıb. İlham Əliyev erməni vandallarının yerlə yeksan etdikləri şəhəri dünyaya tamamilə yeni tipli yaşayış məntəqəsi kimi təqdim etmək üçün Baş Plan hazırladıb və artıq müxtəlif layihələrin icrasına start verilib. Tezliklə ən müasir şəhərsalma prinsiplərinə uyğun olaraq yeni Ağdam şəhəri qurulacaq.

Ardı 7-ci səh.

## Böyük liderlik missiyası: Heydər Əliyevdən İlham Əliyevə

Siyasi nəzəriyyələrdə müxtəlif meyarlara görə liderlərin tipologiyasını aparırlar. Bu, liderliyə hansı aspektdən və hansı sosial-siyasi kontekstdə yanaşmadan asılı olur.

Məsələn, liderliyin "Böyük insan", "bayraqdar lider" (M.C.Hermann), "Ənənəvi lider", "Rasional lider", "Xarizmatik lider" (Maks Veber), "Əsl qəhrəman lider" (F.Nitsşe) və s. kimi xarakteristikaları mövcuddur. Hegel ideal lideri öz missiyasını dərk edən tarixi şəxsiyyət kimi təqdim edirdi. XIX əsr ingilis alimi Tomas Karleyl yazırdı ki, "dünya tarixi böyük insanların tarixidir" və "qəhrəmanlar mahiyyətə vara bilirlər".

Bunlardan başqa, liderləri təsir miqyaslarına görə də təsnifatlandıran nəzəriyyəçilər vardır. Məsələn, "Qrup lideri", "Siyasi lider", "Ümummilli lider" və s. Lider haqqında müasir nəzəri təlimlərdə ümummilli liderlər bütövlükdə xalq və dövlət miqyasında, həm də ölkə masştabından kənarda da real liderlik edə bilən şəxsiyyətlər kimi səciyyələndirilir. Onlar mövcud sosial-siyasi, iqtisadi və geosiyasi vəziyyəti ciddi surətdə dəyişmək qüdrətinə malik olurlar. Ümummilli liderlər ölkənin sosial-siyasi strukturunu yenidən təşkil edə bilirlər. Nümunə olaraq Mustafa Kamal Atatürkü, Ruzvelti göstərmək olar.

Ardı 6-cı səh.

# Dayanıqlı elektrik enerjisi təchizatının təmin olunmasına mühüm töhfə







*Əvvəli 1-ci səh.*

İndi bu yarımstansiya müasir avtomatika sistemləri ilə təchiz edilərək tam yenidən qurulub. Burada görülən işlər çərçivəsində yeni avadanlıqla komplektləşdirilmiş, müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri ilə təchiz olunmuş yeni İdarəetmə Mərkəzi tikilib və yerli mikro-SCADA sistemi qurularaq yarımstansiyanın idarə olunması tam rəqəmsallaşdırılıb.



Qeyd edək ki, "Binəqədi" yarımstansiyasının yenidən qurulması həm də ona görə əhəmiyyətlidir ki, o, paytaxtın Binəqədi, Nərimanov, Nəsimi rayonlarının dayanıqlı elektrik enerjisi təchizatının təmin olunmasında mühüm rol oynayır.

Diqqətə çatdırıldı ki, Abşeron Regional Elektrik Şəbəkəsinin bu ərazidə yerləşən inzibati binası da yenidən qurulub. Şəbəkənin köhnə inzibati binası genişləndirilərək əsaslı təmir olunub, heyətin fasiləsiz iş rejimində çalışması üçün zəruri şərait yaradılıb. Bununla yanaşı, "Azərenerji" ASC-nin xüsusi təyinatlı maşın-mexanizmləri üçün nəqliyyat sahəsi və onlara təmir xidməti göstərəcək sahələr yaradılıb. Müxtəlif relyeflərdə, ağır şəraitdə işləyə biləcək xüsusi təyinatlı maşınlar alınıb. Ərazidə transformatorların təmir sahəsi qurulub, xüsusi layihə əsasında abadlıq işləri görülüb, geniş yaşıllıq sahələri salınıb.

Prezident İlham Əliyev "Binəqədi" yarımstansiyasını işə saldı.

Dövlət başçısına işğaldan azad edilən Suqovuşan qəsəbəsində yenidən qurulması tam başa çatan, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarında görülən işlər barədə də məlumat verildi.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Xalq Cümhuriyyətinin qurulmasının 103-cü ildönümü münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edirəm. Sizə cansağlığı və uğurlar, xalqınıza davamlı həmrəylik arzu edirəm.

Bu il Litva-Azərbaycan ikitərəfli münasibətləri üçün xüsusi ildir. Bu il dövlətlərimizin müstəqilliyinin bərpasının 30-cu ildönümünü qeyd edəcəyik. Azərbaycanla Avropa İttifaqı arasındakı sıx dialoq Litva-Azərbaycan ikitərəfli münasibətlərinin uğurlu inkişafı üçün xüsusilə vacibdir. İslahatlar yolunda qətiyyət və Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq sazişi üzrə danışıqların yekunlaşdırılmasını arzulayıram. Ümid edirəm ki, bu il Avropa İttifaqının Şərq Tərəfdaşlığı siyasətinin prioritetlərini və istiqamətlərini müzakirə etmək üçün Şərq Tərəfdaşlığı Sammitində görüşmək imkanımız olacaq.

Zati-aliləri, bir daha Sizi milli bayramınız - Respublika Günü münasibətilə təbrik edirəm.

Xahiş edirəm, Sizə olan ən dərin hörmətimi qəbul edəsiniz.

***Gitanas NAUSEDA,***
***Litva Respublikasının Prezidenti***

Zati-aliləri!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Malta Respublikasının xalqı adından və şəxsən öz adımdan Zati-alinizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Əminəm ki, yeni əməkdaşlıq sahələrini araşdırmaqla bizim münasibətlər xalqlarımızın qarşılıqlı maraqları naminə növbəti illərdə də inkişaf edəcəkdir. Malta Respublikası həmçinin Avropa İttifaqı və Azərbaycan Respublikası arasındakı münasibətlərin, xüsusilə də Şərq Tərəfdaşlığı dialoqu çərçivəsində dərinləşməsini dəstəkləməkdə davam edəcəkdir.

COVID-19 pandemiyasının yayılması hər birimizə təsir edən təhdidlər yaratmaqda davam edir. Beynəlxalq ictimaiyyətin üzvləri kimi, bəşəriyyət əleyhinə olan bu müstəsna təhdidə qarşı həmrəylik göstərməyimizi və birgə mübarizəmizi davam etdirməyimiz əhəmiyyətli məsələ olaraq qalmaqdadır.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, ölkənizə əmin-amanlıq, davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Corc VELLA,***
***Malta Respublikasının Prezidenti***

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram. Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasına və xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***Maha VACİRALONQKORN,***
***Tailandın Kralı***

Cənab Prezident!

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Kot-d'İvuar hökuməti, xalqı adından və şəxsən öz adımdan Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə sülh, həmrəylik və rifah arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək xalqlarımızın firavanlığı naminə iki ölkənin uğurla davam etdirdiyi dostluğun və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində Sizinlə birgə işləmək niyyətində olduğumu bir daha məmnunluqla qeyd edirəm.

*Dərin ehtiramla,*

***Alassane UATTARA,***
***Kot-d'İvuar Respublikasının Prezidenti***

Cənab Prezident!

Panama Respublikasının xalqı və hökuməti adından, şəxsən öz adımdan əlamətdar tarix olan 28 May - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək Azərbaycan xalqının firavanlığı və tərəqqisi üçün ən səmimi arzularımı, habelə hökumətimin ölkələrimiz arasında mövcud olan dostluq əlaqələrini davam etdirmək niyyətini çatdırmaq istərdim.

Bir daha Zati-alinizə ən yüksək hörmət və ehtiramımı ifadə edirəm.

***Laurentino Kortizo KOHEN,***
***Panama Respublikasının Prezidenti***

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Myanma İttifaqı Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizə və Zati-alinizin simasında Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırır, ölkənizə davamlı tərəqqi və rifah diləyirəm.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***General Min Aung HLAİNG,***
***Myanma İttifaqı Respublikasının***
***Dövlət İdarə Şurasının sədri***

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Koreya Xalq Demokratik Respublikasının hökuməti və xalqı adından Sizə, ölkənizin hökumətinə və xalqına səmimi təbriklərimi çatdırıram.

Koreya və Azərbaycan xalqları müstəqillik, dostluq və qoşulmama ideallarını rəhbər tutaraq birlik və həmrəylik tellərini möhkəmləndiriblər.

Bu xoş fürsətdən istifadə edərək əmin olduğumu bildirirəm ki, Koreya ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq münasibətləri daha da genişlənəcək və inkişaf edəcəkdir. Ölkənizin xalqına səmimi-qəlbdən əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Kim Çen IN,***
***Koreya Xalq Demokratik Respublikası***
***Dövlət Şurasının sədri***

Hörmətli Prezident, Zati-aliləri!

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-cü ildönümü- Respublika Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir və Sizə Prezidentlik fəaliyyətinizdə bir daha uğurlar və firavanlıq arzulayıram.

Xorvatiya ilə Azərbaycan arasında xalqlarımızın ümumi dəyərlərinə əsaslanan, ölkələrimizin rəhbərlərinin siyasi səyləri nəticəsində daha da möhkəmlənən və genişlənən mehriban dostluq əlaqələri var.

Zati-alinizə ən səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı və xoşbəxtlik arzulayır, Azərbaycan xalqına isə rifah diləyirəm.

Cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Stepan MESİÇ,***
***Xorvatiya Respublikasının sabiq Prezidenti***

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan təbrik edirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirəm.

Fürsətdən istifadə edərək Sizə ölkələrimizin xüsusi xidmət orqanlarının kəşfiyyat xətti üzrə qarşılıqlı fəaliyyətinə göstərdiyiniz diqqət və dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu qarşılıqlı fəaliyyət bundan sonra da Rusiya və Azərbaycanın qardaş xalqlarının təhlükəsizliyinin təminatına və milli maraqlarının qorunmasına etibarlı zəmanət olacaq.

*Hörmətlə,*

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyasının Xarici Kəşfiyyat***
***Xidmətinin direktoru***

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Yeni Azərbaycan Partiyasının nümayəndə heyətini qəbul edib



Türkiyə Prezidenti, hakim Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan Ankarada səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətini partiyasının mərkəzi qərargahında qəbul edib.



AZƏRTAC-ın məlumatına görə, Ədalət və İnkişaf Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əlaqələrin inkişafının vacibliyini vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan əminliklə bildirib ki, əməkdaşlığın genişləndirilməsi tərəflər üçün olduqca faydalıdır.

Xatırladaq ki, Yeni Azərbaycan Partiyası sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Milli Məclisin deputatı Ramil Həsən və YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov daxildir.

# Ankarada TBMM-in vitse-spikeri ilə görüş



Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi YAP nümayəndə heyəti iyunun 3-də Ankarada Türkiyə Böyük Millət Məclisinin (TBMM) vitse-spikeri Süreyya Sadi Bilgiç ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasındakı əlaqələrin inkişaf dinamikası yüksək qiymətləndirilib, iyunun 2-də bu iki partiya arasında imzalanan əməkdaşlığa dair niyyət protokolundan irəli gələn vəzifələr ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Diqqətə çatdırılıb ki, Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əlaqələr və qarşılıqlı faydalı əməkdaşlıq parlamentlər səviyyəsində, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində uğurla davam etdirilir.

Xatırladaq ki, Yeni Azərbaycan Partiyası (YAP) sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinə YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, Milli Məclisin deputatı Ramil Həsən və YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov daxildir.

# Milli Məclisin sədri Pakistan Milli Assambleyasının sədri ilə görüşüb





İyunun 3-də Milli Məclisin sədri Sahibə Qafarova Pakistana rəsmi səfəri çərçivəsində bu ölkənin Milli Assambleyasının sədri Əsəd Qeysər ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis sədrinin rəhbərliyi ilə Azərbaycan parlament nümayəndə heyətini Pakistanda görməkdən məmnun olduğunu deyən Milli Assambleyanın sədri bu səfərin iki ölkə arasında parlamentlərarası münasibətlərin inkişafına yeni töhfələr verəcəyinə əminliyini ifadə edib. İki ölkənin qanunverici orqanlarının İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyası çərçivəsində əməkdaşlığını yüksək qiymətləndirən Əsəd Qeysər qurumun İkinci Ümumi Konfransında müzakirə olunan məsələlərin əhəmiyyətindən danışıb.




Əsəd Qeysər diqqətə çatdırıb ki, Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı Milli Assambleya da qardaş ölkəyə dəstəyini ifadə edərək plenar iclasında Ermənistanın Azərbaycan Respublikasının ərazisinə təcavüzünü pisləyən qətnamə qəbul edib. Bu qətnamə Pakistanın qətiyyətli mövqeyinin ifadəsidir.

Milli Assambleyanın sədri hər iki ölkənin parlamentində fəaliyyət göstərən dostluq qruplarının işgüzar əlaqələrindən, mütəmadi keçirilən videogörüşlərdən və parlament diplomatiyası çərçivəsində əməkdaşlıqdan məmnunluğunu ifadə edib.

Səmimi görüşə görə təşəkkürünü bildirən Sahibə Qafarova Azərbaycan Milli Məclisinin sədri kimi Pakistan İslam Respublikasına ilk rəsmi səfərindən məmnunluğunu bildirib. Qeyd edib ki, təməlində ortaq dini-mədəni dəyərlər, möhkəm dostluq və qardaşlıq telləri dayanan Azərbaycan-Pakistan münasibətləri bu gün həm də strateji önəm daşıyır. Ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsinə dövlətlərimizin başçıları xüsusi diqqət göstərirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Arif Alvinin qarşılıqlı səfərləri iki ölkə arasındakı münasibətlərin inkişafında müstəsna əhəmiyyətə malikdir.

İki ölkə arasında mədəni-humanitar münasibətlərə də toxunan Milli Məclisin sədri bu sahədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi vurğulayıb. O xatırladıb ki, həyata keçirdiyi xeyirxah əməlləri sayəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva 2015-ci ildə Pakistanın ali mükafatı olan "Hilal-e Pakistan" ordeni ilə təltif olunub.

Sahibə Qafarova 2020-ci ildə Azərbaycanın 44 gün davam edən Vətən müharibəsi nəticəsində Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarını Ermənistanın işğalından azad etdiyini diqqətə çatdıraraq ölkəmizin beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyinə Pakistan hökuməti və parlamenti tərəfindən verilən qətiyyətli dəstəyə görə minnətdarlığını bildirib. Qeyd edib ki, Xocalı faciəsi ilə əlaqədar Pakistan parlamenti və müxtəlif qurumları tərəfindən qəbul olunmuş sənədlər məhz bu qəbildəndir. Pakistan İslam Respublikası Milli Assambleyasının plenar iclasında Azərbaycan Respublikasının ərazisinə erməni təcavüzünü pisləyən qətnamənin qəbul edilməsi bu dəstəyin bariz nümunəsidir.

Milli Məclisin sədri deyib ki, artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub. İndi Azərbaycanın Ermənistanın işğalından azad edilmiş ərazilərində genişmiqyaslı yenidənqurma və bərpa dövrü başlayıb. Belə ki, Ermənistan işğal etdiyi ərazilərimizdəki məscidlərimizi, mədəniyyət abidələrimizi və bütün digər tikililəri dağıtmış, infrastrukturu tamamilə məhv edib. Düşmən hətta müqəddəs ziyarətgahlarımızı və məscidlərimizi də təhqir edib. Bu gün isə münaqişə başa çatsa da, bir sıra problemlər hələ də qalmaqdadır. Belə ki, Ermənistan 30 il ərzində işğal altında saxladığı və Vətən müharibəsində azad etdiyimiz torpaqlarımızda minalanmış ərazilərin xəritələrini verməkdən imtina edir, bununla da hərbi cinayət törətməkdə davam edir. Beləliklə, onlar məcburi köçkünlərimizin öz doğma yurd-yuvalarına qayıtmasına mane olmaq istəyir, sərhədlərin delimitasiyası məsələsində təxribatlara əl atırlar. Spiker həmçinin qeyd edib ki, Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın müddəalarını kobud şəkildə pozaraq azad olunmuş ərazilərimizə terrorçu qruplar göndərməkdə davam edir və bu bəyanatın imzalanmasından sonra Azərbaycan ərazilərində həbs olunmuş təxribatçıları "hərbi əsirlər" kimi qələmə verməyə çalışır.

Milli Məclisin sədri diqqətə çatdırıb ki, ölkələrimizin ali qanunverici orqanlarında formalaşdırılan dostluq qrupları parlamentlərimizin ən geniştərkibli qruplarından hesab edilir. Dostluq qrupları işgüzar əməkdaşlıq əlaqələri saxlayır, videogörüşlər keçirir, müxtəlif məsələlərdə bir-birinə dəstək ifadə edirlər. Ölkələrimiz arasında münasibətlərin inkişafı naminə parlament diplomatiyasının bütün formatlarından tam şəkildə istifadə etmək üçün geniş imkanlar mövcuddur.

Görüşün sonunda Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, Pakistan İslam Respublikası Milli Assambleyasının sədri Əsəd Qeysər iki ölkə arasında parlamentlərarası münasibətlərin inkişafına və dövlətlərarası əlaqələrin genişləndirilməsi işinə verdiyi töhfələrə görə Milli Məclisin Fəxri Medalı ilə təltif edilib. Azərbaycan Parlamentinin spikeri medalı Əsəd Qeysərə təqdim edib.

Görüşdən sonra Azərbaycan parlament nümayəndə heyəti Pakistan Milli Assambleyasının inzibati binasında və iclas zalında deputatlar üçün yaradılmış şəraitlə tanış olublar. Burada Milli Məclisin sədrinə Pakistan Parlamentinin fəaliyyəti barədə ətraflı məlumat verilib.

Parlament nümayəndə heyətimiz Pakistan Parlamentində olan zaman Milli Məclisin sədri Sahibə Qafarova Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərlə birlikdə iki ölkə arasında dostluğun və qardaşlığın nümunəsi olaraq Milli Assambleyanın bağında ağac əkiblər.

# Pakistan Senatında və Milli Assambleyasında fəaliyyət göstərən Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüş olub





İyunun 3-də Milli Məclisin sədri Sahibə Qafarova Pakistan İslam Respublikasının Senatında və Milli Assambleyasında fəaliyyət göstərən Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Sahibə Qafarova görüşü açaraq Azərbaycan parlament nümayəndə heyətinin Pakistana səfərini, İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının İkinci Ümumi Konfransında iştirakını, orada müzakirə olunan məsələləri yüksək dəyərləndirib, rəsmi səfər çərçivəsində keçirilən görüşlərdən məmnunluğunu ifadə edib. Bildirilib ki, ilk dəfədir Azərbaycan və Pakistan parlamentlərinin dostluq qrupları belə bir formatda görüşürlər. Bu görüş tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından çox əhəmiyyətlidir.

Spiker bildirib ki, bu gün dinamik inkişaf edən Azərbaycan-Pakistan münasibətləri strateji xarakter daşıyır. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyi bizim əməkdaşlığımızın qardaşlıq xüsusiyyətinin bariz təcəssümüdür. Münasibətlərimizin hüquqi bazasını təşkil edən imzalanmış sənədlər sırasında Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni xüsusi vurğulamaq olar.

Milli Məclisin sədri qeyd edib ki, yüksəksəviyyəli siyasi dialoq iqtisadi müstəvidə də özünü göstərir.

Sahibə Qafarova deyib ki, mədəni və humanitar sahələrdə yüksələn xətlə inkişaf edən münasibətlərimiz xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət edir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə bu sahədə mühüm əhəmiyyətli sosial-humanitar layihələr həyata keçirilib. Məhz bu xeyirxah əməllərinə görə Mehriban xanım Əliyeva Pakistanın Ali Ordeni - "Hilal-e Pakistan" ilə təltif olunub.

Sədr qeyd edib ki, 2020-ci il Azərbaycan-Pakistan qardaşlığının tarixində yeni parlaq səhifə açıb. Belə ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi ilə Dağlıq Qarabağ münaqişəsi birdəfəlik tarixə qovuşub. Beləliklə, Azərbaycan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini özü reallaşdırıb. Məhz bu dönəmdə Pakistan Azərbaycanın apardığı Vətən müharibəsinin ilk günlərindən qətiyyətli mövqe sərgiləyərək Azərbaycanın haqlı mövqeyini müdafiə edib, ölkəmizə siyasi və mənəvi dəstək göstərib. Təqdirəlayiqdir ki, Pakistan bugünədək Ermənistanın Azərbaycana qarşı yeritdiyi təcavüzkar siyasətə görə bu ölkəni dövlət kimi tanımayıb. Sahibə Qafarova Xocalı soyqırımını pisləyən sənədlərin qəbuluna görə Pakistan parlamentinin hər iki palatasına - Milli Assambleyaya, Senata və dostluq qrupuna, həmçinin Pakistan hökumətinə, o cümlədən Pakistan xalqına minnətdarlığını bildirərək deyib: "Vətən müharibəsi dönəmində Pakistan Senatı və Milli Assambleyası tərəfindən qəbul edilmiş qətnamələr, mübaliğəsiz demək olar ki, bizim üçün əsl mənəvi dəstək olub. Pakistan Senatında ötən ilin oktyabrında Kabinet Katibliyi üzrə Daimi Komitəsi tərəfindən Ermənistanın ölkəmizə qarşı təcavüzünü pisləyən və Azərbaycana dəstək ifadə edən qətnamənin yekdilliklə qəbul edilməsi və həmin ilin oktyabrında Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində Ermənistanın təcavüzünü pisləyən qətnamənin Milli Assambleyanın plenar iclasında qəbulunu çox yüksək qiymətləndiririk və Pakistan parlamentindəki dostlarımızın bu səylərini alqışlayırıq".

Milli Məclisin sədri bildirib ki, artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub. İndi isə Azərbaycanın Ermənistanın işğalından azad edilmiş ərazilərində genişmiqyaslı yenidənqurma və qayıdış dövrü başlayıb. Belə ki, düşmən işğal etdikləri ərazilərimizdəki məscidlərimizi, mədəniyyət abidələrimizi və bütün tikililəri dağıdıb, infrastrukturu tamamilə məhv edib. Onlar hətta müqəddəs ziyarətgahlarımızı, məscidlərimizi də təhqir ediblər.

Spiker bildirib ki, münaqişə başa çatsa da, bəzi problemlər hələ də qalmaqdadır. Ermənistan işğaldan azad olunan torpaqlarımızda minalanmış ərazilərin xəritəsini verməkdən imtina edir, bununla da hərbi cinayət törətməkdə davam edir. Həmçinin Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın müddəalarını kobud şəkildə pozaraq azad olunmuş ərazilərimizə terrorist qruplar göndərməkdə davam edir və bu bəyanatın imzalanmasından sonra Azərbaycan ərazilərində həbs olunmuş təxribatçıları "hərbi əsirlər" kimi qələmə verməyə çalışır.

Təqdirəlayiq haldır ki, hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən dostluq qrupları ən geniştərkibli qruplardan hesab edilir. Pakistanın Azərbaycanla parlamentlərarası dostluq qrupunda həm Milli Assambleyanın, həm də Senatın üzvləri təmsil olunurlar.

Görüşdə çıxış edən Pakistan Senatının üzvü, Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Məhəmməd Talha Mahmud Azərbaycan nümayəndə heyətini Pakistan parlamentində görməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, Pakistan Azərbaycanı özünə dost və qardaş ölkə hesab edir və bu ölkə ilə əlaqələrin inkişafında maraqlıdır. Bu baxımdan parlamentlər səviyyəsində münasibətlərimizin daha da inkişaf etməsi həyatın digər sahələrində də əlaqələrimizin dərinləşməsinə töhfə verər.

Pakistanlı senator Vətən müharibəsində ölkəmizin əldə etdiyi zəfər münasibətilə Azərbaycan tərəfini təbrik edərək Pakistan parlamentinin bu məsələdə dəstəyini bir daha ifadə edib. Bildirilib ki, Azərbaycanın uğurları Pakistan xalqını da sevindirir.

Senator hər iki ölkənin parlamentlərində fəaliyyət göstərən dostluq qruplarında təmsil olunmuş deputatların qarşılıqlı səfərlərinin, nümayəndə heyətlərimizin beynəlxalq platformalarda sıx-sıx görüşlərinin önəmindən danışıb. Qeyd edib ki, bu cür tədbirlər tərəfləri düşündürən məsələlərin müzakirəsi və ortaq mövqe nümayiş etdirilməsi baxımından çox vacibdir.

Milli Assambleyada Azərbaycanla dostluq qrupunun əlaqələndiricisi Mürtəza Cavid Abbasi, Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Qənirə Paşayeva çıxışlarında dostluq qruplarının bu formatda görüşlər keçirməsinin əhəmiyyətini vurğulayıb, iki ölkənin parlament üzvlərinin gələcəkdə də görüşlər keçirməsinin vacibliyindən danışıblar. Deputatlar çıxışlarında parlamentlərarası əlaqələrin gələcək inkişaf istiqamətləri barədə fikirlərini bölüşüblər.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

Tədbirin sonunda Milli Məclisin sədri Sahibə Qafarova çıxış edərək azərbaycanlı və pakistanlı deputatlar arasında ilk dəfə bu formatda keçirilən görüşə yekun vurub.

# Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf perspektivləri müzakirə olunub













İyunun 3-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan-Türkiyə 13-cü yüksəksəviyyəli hərbi dialoq iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Türkiyə Baş Qərargahının ikinci rəisi korpus generalı Selçuk Bayraktaroğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Türkiyə nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək üzərinə gül dəstələri düzüb. Qonaqlar həmçinin Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarlarını və Türk şəhidliyini ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Ölkələrimiz arasında münasibətlərin dostluq və qardaşlıq üzərində qurulduğunu xatırladan müdafiə naziri bildirib ki, Azərbaycan müdafiə qüdrətinin artırılması məqsədilə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində Türkiyə ilə əməkdaşlığı genişləndirir və bu bölgədəki sabitliyi təmin edən əsas amillərdəndir.

General-polkovnik Zakir Həsənov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə əks-həmlə əməliyyatı ilə başlayan Vətən müharibəsi Azərbaycan Ordusunun şanlı Qələbəsi ilə başa çatdı və torpaqlarımız işğaldan azad edildi. Azərbaycan Ordusu tərəfindən keçirilmiş uğurlu hərbi əməliyyatlar haqqında qonaqlara məlumat verən nazir 44 gün davam edən müharibə dövründə Türkiyənin göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Bakıda Azərbaycan-Türkiyə 13-cü yüksəksəviyyəli hərbi dialoq iclasının fəaliyyətə başlaması münasibətilə iştirakçıları təbrik edən müdafiə naziri onlara işlərində uğurlar arzulayıb.

Korpus generalı S.Bayraktaroğlu Vətən müharibəsində əldə olunan Qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib, şəhidlərin yaxınlarına başsağlığı verib və yaralılara şəfa diləyib.

S.Bayraktaroğlu ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrindən, o cümlədən səmərəli əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə edib. Qonaq Azərbaycan və Türkiyə hərbi nümayəndə heyətlərinin Bakıda növbəti görüşünün təşkilinə görə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf perspektivləri və əsas istiqamətləri müzakirə edilib, iki ölkə ordularının müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə birgə hərbi təlimlərin keçirilməsi, həmçinin maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

İyunun 3-də Bakıda Azərbaycan-Türkiyə 13-cü yüksəksəviyyəli hərbi dialoq iclası işə başlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, hərbi sənaye və digər sahələrdə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti müzakirə edilir, hərbi və müdafiə sahəsində inkişaf perspektivləri və əsas fəaliyyət istiqamətləri nəzərdən keçirilir.

Qeyd edək ki, iclasın Azərbaycan tərəfdən həmsədri müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, Türkiyə tərəfdən isə Baş Qərargahın ikinci rəisi korgeneral Selçuk Bayraktaroğludur.

* * *

Bakıda Azərbaycan-Türkiyə 13-cü yüksəksəviyyəli hərbi dialoq iclası işini davam etdirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə qonaqlar Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Heydər Əliyev lektoriyasında təşkil edilən "Azərbaycan yalnız deyil!" adlı fotosərgi ilə tanış olub. Sərgidə Azərbaycan və Türkiyə xalqlarının tarixi qardaşlığını, iki dövlət, bir millətin ordularının əməkdaşlığını əks etdirən fotolar və "Qarabağın səsi" videoçarxı tədbir iştirakçılarında böyük maraq oyadıb. Qonaqlara Müdafiə Nazirliyinin nəşri olan "Azərbaycan-Türkiyə qardaşlığının təntənəsi" və "Vətən müharibəsi şəhidləri" adlı kitabların nüsxələri hədiyyə edilib.

Nümayəndə heyətlərinin geniş tərkibdə iştirakı ilə keçirilən iclasda həmsədrlərin açılış nitqləri səsləndirilib və regional təhlükəsizlik mühitinin vəziyyətinə dair brifinqlər təqdim olunub. Sonra iclas yardımçı işçi qruplarda davam edib.

İyunun 4-dək keçiriləcək iclasda Azərbaycan ilə Türkiyə arasında təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil, müdafiə sənayesi və digər sahələrdə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti müzakirə ediləcək, hərbi və müdafiə sahəsində inkişaf perspektivləri və əsas fəaliyyət istiqamətləri nəzərdən keçiriləcək.

## Azərbaycanla ÜST arasında potensial əməkdaşlıq sahələri üzrə fikir mübadiləsi aparılıb



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov iyunun 3-də Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkəmizdəki nümayəndəliyinin rəhbəri Hande Harmancı ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər ÜST və Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri, eləcə də hazırda davam edən COVID-19 pandemiyasına qarşı mübarizədə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Nazir Ceyhun Bayramov ölkəmizin ÜST ilə əməkdaşlığa böyük önəm verdiyini qeyd edib və ötən ilin əməkdaşlığımız üçün ciddi çağırış ili olduğunu bildirib. COVID-19-la mübarizədə Azərbaycan tərəfindən ölkə daxilində görülmüş işlər, habelə beynəlxalq müstəvidə ölkəmizin göstərdiyi yardım və irəli sürdüyü təşəbbüslər qeyd olunub. Azərbaycan Prezidentinin təşəbbüsü ilə beynəlxalq təşkilatlar, o cümlədən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Qoşulmama Hərəkatının pandemiya ilə mübarizəyə həsr olunan yüksəksəviyyəli görüşlərinin keçirildiyi, BMT Baş Assambleyasının Xüsusi Sessiyasının çağırıldığı diqqətə çatdırılıb. Ölkəmizin, həmçinin dünyada peyvəndlərin bərabər və ədalətli bölgüsünü dəstəklədiyi və bu xüsusda səsimizin beynəlxalq müstəvidə ucaldıldığı vurğulanıb.

Hande Harmancı ÜST-ün Azərbaycanda həyata keçirdiyi layihələr, o cümlədən ölkəmizin 12 rayonunda regional təlim mərkəzlərinin fəaliyyət göstərməsi, BMT-nin Vahid Təcili Yardım Fondunun dəstəyi ilə Azərbaycanın münaqişədən zərər çəkmiş 5 rayonunda həyata keçirilən mobil təlim xidmətləri, köməkçi texnologiyalara ehtiyacı olan insanlarla iş, təcili yardım sistemlərinin gücləndirilməsi və digər istiqamətlərdə görülən işlər barədə məlumat verib. O, ÜST-ün regional direktorunun yaxın zamanlarda bölgəyə səfərinin nəzərdə tutulduğunu bildirib.

Ceyhun Bayramov səfərlərin əməkdaşlığın genişləndirilməsi baxımından vacibliyini qeyd edib, regional direktorun bölgəmizə səfərinə önəm verildiyini bildirib. Nazir həmçinin ölkəmizin işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və quruculuq fəaliyyəti, gələcək planlarla bağlı həmsöhbətinə məlumat verib, bərpa layihələrində ÜST və BMT-nin digər qurumlarının iştirakının mümkünlüyünü qeyd edib.

Görüşdə tərəflər, habelə Azərbaycanla ÜST arasında potensial əməkdaşlıq sahələri üzrə ümumi fikir mübadiləsi aparıblar.

## Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti BMT Baş Assambleyasının korrupsiyaya qarşı mübarizəyə dair xüsusi sessiyasında iştirak edib

Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərində Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Korrupsiyanın qarşısının alınması, onunla mübarizə və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş xüsusi sessiyası (BMT BA-nın xüsusi sessiyası) işə başlayıb.

AZƏRTAC xəbər verir ki, sessiyada ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti, o cümlədən Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev təmsil edir.



BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkırın açılış nitqi ilə başlamış tədbirdə korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə sahəsində qarşıya çıxa biləcək çətinliklərin həlli yolları, BMT-nin Korrupsiya əleyhinə Konvensiyasının müddəalarının daha effektiv tətbiq edilməsi üçün mövcud olan nəzarət mexanizmləri, eləcə də bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi kimi mövzular ətrafında geniş müzakirələr aparılıb. Daha sonra BMT Baş Assambleyasının 2018-ci il 17 dekabr tarixli 73/191 nömrəli qətnaməsi əsasında yaradılmış və korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə sahəsində qarşıya çıxa biləcək çətinliklərin həlli yollarına, həmin Konvensiyasının müddəalarının tətbiq edilməsi üçün mövcud olan nəzarət mexanizmlərinin və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xidmət edəcək, Tərəf Dövlətlərinin birgə səyləri ilə hazırlanıb və korrupsiyaya qarşı mübarizədə kollektiv tədbirlərə yönəlmiş Siyasi Bəyannamə qəbul edilib.

Həmçinin BMT-nin nümayəndələrinin, Türkiyə, Rusiya, ABŞ, Böyük Britaniya, Avropa İttifaqı, Avstraliya, Norveç Krallığı, Meksika Birləşmiş Ştatları, Braziliya, Çin və Korrupsiya əleyhinə Konvensiyaya tərəf olan digər ölkələrin dövlət və hökumət başçıları, o cümlədən digər yüksəkvəzifəli şəxslər ilə yanaşı, videoformatda çıxış edən Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər barəsində geniş məlumat verib. İştirakçılara bu sahədə effektiv mübarizə siyasətinin tərkib hissəsi kimi həyata keçirilmiş islahatlardan, ölkədə korrupsiyaya qarşı mübarizədə əhəmiyyətli rol oynayan "ASAN xidmət" mərkəzlərinin və eləcə də hüquq mühafizə orqanlarının səmərəli fəaliyyətindən bəhs olunub, o cümlədən qəbul olunmuş Siyasi Bəyannamənin növbəti bir universal sənəd kimi tərəf dövlətlərin səylərinin daha da möhkəmləndirilməsinə böyük töhfə verəcəyinə inam ifadə olunub.

Habelə çıxışında ölkə təcrübəsində şəffaflıq və keyfiyyətlilik meyarlarının rəhbər tutulduğu kompleks tədbirlərə dair nümunələrə toxunan Baş prokuror son illər milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin, azad rəqabət mühiti və insan kapitalının inkişafının təmin edilməsinin ölkəmizin dünya miqyasında mövqeyini daha da gücləndirməsi, həmçinin Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış nüfuzlu beynəlxalq təşkilatlar olan Avropa Şurasının Korrupsiyaya Qarşı Dövlətlər Qrupunun, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Antikorrupsiya Şəbəkəsi ilə qarşılıqlı əməkdaşlığından danışıb.

Xüsusi sessiyaya əlavə olaraq, Azərbaycan tərəfinin təşəbbüsü ilə dünyada qeyri-kommersiya təşkilatlarında baş verən korrupsiya hüquqpozmaları ilə bağlı məsələlərin müzakirəsi üzrə müvafiq görüş keçiriləcək.

BMT BA-nın xüsusi sessiyası işini iyunun 4-dək davam etdirəcək.

## "Ali təhsil haqqında" qanun layihəsi üzərində iş davam edir





İyunun 3-də Milli Məclisin Elm və təhsil komitəsinin onlayn formatda iclası keçirilib.

Komitənin sədri Bəxtiyar Əliyev əvvəlcə "Milli Məclisin 2021-ci ilin yaz sessiyası dövründə Elm və təhsil komitəsində görülən işlərin hesabatı"nı təqdim edib. Bildirib ki, yaz sessiyasında komitənin 8 iclası keçirilib, 15 məsələyə baxılıb, iş planında nəzərdə tutulan məsələlər həllini tapıb. Yalnız "Ali təhsil haqqında" qanun layihəsi üzərində iş davam edir və bu sənəd yaxın vaxtlarda yeni redaktədə komitənin müzakirəsinə çıxarılacaq.

Deputatlara məlumat verilib ki, hesabat dövründə keçirilən iclaslarda vətəndaşların konstitusion hüquqlarının qorunması, sosial vəziyyətinin yaxşılaşdırılması, təhsil imkanlarının genişləndirilməsi, həssas qruplara dövlət qayğısının gücləndirilməsi kimi məsələlər diqqət mərkəzində olub. Komitə üzvləri qanunvericilik fəaliyyəti ilə yanaşı, seçicilərlə görüşlərdə qaldırılan problemlərin həllinə də xüsusi önəm veriblər. Yaz sessiyası ərzində komitəyə daxil olan 93 müraciətə baxılıb və müvafiq tədbirlər görülüb. Pandemiya şəraitinə baxmayaraq, komitə üzvləri beynəlxalq parlament təşkilatları çərçivəsində, həmçinin parlamentlərarası əlaqələr üzrə işçi qrupları səviyyəsində keçirilən tədbirlərdə də fəal iştirak ediblər.

Onlayn iclasda aparılan fikir mübadiləsində Elm və təhsil komitəsinin sədr müavini Musa Qasımlı, deputatlar Anar İsgəndərov, Aqiyə Naxçıvanlı, Ceyhun Məmmədov, Etibar Əliyev, İsa Həbibbəyli hesabatı məqbul sayıblar.

Sonra iclasda "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Onkoloji yardım haqqında", "Sosial xidmət haqqında", "Mədəniyyət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Məktəbəqədər təhsil haqqında", "Məşğulluq haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edilib.

Komitə sədri bildirib ki, qanun layihəsi bütövlükdə vətəndaşların daha keyfiyyətli xidmətlərlə təmin olunmasına, dövlətin əlillərə qayğısının daha da gücləndirilməsinə yönəlib.

İclasda qanun layihəsini təqdim edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev bildirib ki, nəzərdə tutulan dəyişikliklər əsasən əlilliyin təyinində faiz indikatorunun tətbiqini, bu sahəyə dair qabaqcıl beynəlxalq təcrübənin və standartların milli qanunvericilikdə təsbit olunmasını ehtiva edir.

Müzakirə zamanı deputatlar Kamilə Əliyeva, Pərvin Kərimzadə, Etibar Əliyev, Ceyhun Məmmədov, Müşfiq Məmmədli, Şahin Seyidzadə rəy və təkliflərini bildiriblər. Yekunda sözügedən qanun layihəsi birinci oxunuşda müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Azərbaycan və Rusiyanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib

İyunun 3-də Bakıda Azərbaycan Respublikası və Rusiya Federasiyası Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov və Rusiya Federasiyasının xarici işlər nazirinin müavini Andrey Rudenkonun rəhbərlik etdiyi nümayəndə heyətləri arasında keçirilən siyasi məsləhətləşmələrdə ikitərəfli strateji tərəfdaşlıq gündəliyindəki məsələlər əsas müzakirə mövzusu olub.

Tərəflər həmçinin bölgədəki cari vəziyyət və baş verən son proseslərlə bağlı fikir mübadiləsi aparıblar.

Siyasi məsləhətləşmələr zamanı qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

## Türkiyə Ali Məhkəməsi Baş prokurorunun ölkəmizə səfəri başa çatıb



Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahinin və rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə rəsmi səfəri iyunun 3-də başa çatıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyəti Baş prokuror Kamran Əliyevin iştirakı ilə Heydər Əliyev Beynəlxalq Aeroportundan yola salınıb.






# Bakı sürət yarışına hazırdır

## Paytaxtda idman həyəcanı başlayır

## "Haas"ın pilotu Bakı trekini səbirsizliklə gözləyir



"Bakı treki özünəməxsusluğu ilə seçilir və sürəti o qədər də böyük olmayan şəhər traslarından fərqlənir. Monakoda keçirilmiş Qran-pridə iştirakımdan məmnunam və növbəti mərhələni səbirsizliklə gözləyirəm. Bakı Şəhər Halqasında yüksək sürəti hiss etmək çox maraqlı olacaq".

Bu fikir "Haas" komandasının rusiyalı pilotu Nikita Mazepinə məxsusdur. 22 yaşlı pilot 2019-cu ildə Bakıda "Formula-2" yarışında mübarizə apardığını və sürücülərin yüksək sürət yığmasına imkan verən trası yaxşı xatırladığını bildirib. O vurğulayıb ki, trasın İçərişəhərdən keçən hissəsində bəzi sahələr Monako trekinə bənzəsə də, Bakı trası tamamilə fərqlidir.

## "Aston Martin" Monakodakı uğuru davam etdirmək istəyir



"Formula-1" çempionatında iştirak edən "Aston Martin" komandasının iki pilotunun payına ümumilikdə Bakıda üç podium düşüb. Komanda bu mərhələyə nikbinliklə yola düşür, lakin bu dəfə podiuma çıxmaq çətin ki, mümkün olsun.

Komandanın pilotu Lens Stroll deyib ki, onun nəzərində Bakı trasının xüsusi yeri var: "Burada mən ilk dəfə "Formula-1"in podiumuna qalxmışam. Konfiqurasiya mürəkkəbdir, uzun məsafəli düz yol dolanbac orta sektorla birləşir ki, burada da səhvlər çox baha başa gələ bilər. Biz AMR21-dən daim daha çox faydalanmaq və Monakodan sonra uğuru inkişaf etdirmək istəyirik".

Komandanın digər pilotu Sebastyan Fettel də fikrini bölüşüb: "Monakodan sonra biz daha bir şəhər halqasında - Bakıda yürüş keçirəcəyik. Lakin bizi orada başqa çağırış gözləyir. Orada ötmə əməliyyatı yerinə yetirmək mümkündür, şinlərin yırtılması isə əsas amildir. Şənbə günü yaxşı nəticələr əvvəlki kimi mühümdür. Lakin dolanbac hissə ilə sürətli sahələr arasında köklənmədə optimal balans və yaxşı strategiya uğurlu yürüşün təminatı olacaq. Bakıya Monakodakı uğurlu uik-enddən sonra gedirik və bu tempi qoruyub saxlamaq istəyirik".

*Əvvəli 1-ci səh.*

PwC beynəlxalq audit şirkətinin hesablamalarına görə, dörd Azərbaycan Qran-prisi ərəfəsində təbliğat kampaniyası çərçivəsində press-relizlər, müsahibələr, fotoşəkil, video və xüsusi tədbirlər zamanı hazırlanmış xəbərlərin bütünlüklə oxunma və baxılma sayı 296,3 milyon dollarlıq media dəyəri yaratmışdır. Turistlərin xərcləri, bilet satışı gəlirləri, "Formula-1"də çalışan işçilərdən əldə edilən ümumi fayda, telekanallar vasitəsilə canlı baxışdan əldə olunan dəyər və digər birbaşa, yaxud dolayı gəlirlər əsasında iqtisadi fayda 500,8 milyon dollara çatmışdır. 2016-2019-cu illərdə "Formula-1" Azərbaycan Qran-prilərinin ölkəyə ümumi təsiri 797 milyon dollar olmuşdur.

"Formula-1" yarışları indiyədək ölkəmizə 506,3 milyon dollardan çox gəlir gətirmişdir. Bu rəqəmə iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən peşəkar xidmətlər, kənd təsərrüfatı, poçt və telekommunikasiya, topdan ticarət, elektrik, qaz, su və digər sektorlarda qeydə alınmış gəlirlər daxildir. Birbaşa gəlirlərdə əsas yeri turizm, mehmanxana və nəqliyyat sektorları tutur ki, Bakıda keçirilmiş dörd Qran-prinin nəticəsi olaraq qeydə alınmış birbaşa gəlirlərin 73,8 milyon dolları məhz həmin sektorların payına düşür. Xatırlatmaq yerinə düşər ki, ölkəmizə gələn turistlərin sayı məhz 2016-cı ildə keçirilmiş birinci Qran-pridən sonra artmağa başlamışdır. Əcnəbi turistlərin sayında ilk yarışdan sonra 24 faiz, ikincisindən sonra isə 26 faiz artım qeydə alınmışdır. Azərbaycan Qran-prilərinin təşkili nəticəsində əldə olunmuş dolayı gəlirlər isə 205,7 milyon dollar olmuşdur.

Hesablamalara görə, 2019-cu ildə ölkəmizə gəlmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 3,2 milyon nəfərə çatmışdır. Onların təkcə bank kartları vasitəsilə apardıqları əməliyyatların ümumi dəyəri 745,7 milyon dollar təşkil etmişdir.










"Formula-1" həm də bir sıra sahələrdə yeni iş yerlərinin açılmasına imkan verərək illik və ya mövsümi məşğulluğun səviyyəsini artırır, yarışların təşkilinə minlərlə könüllü cəlb edərək gənclərin təcrübə toplamasına şərait yaradır. Hesablamalara görə, 2016-2017-ci illərdə 5-10 min qısamüddətli və ortamüddətli yeni iş yeri açılmışdır. 2018- 2019-cu illərdə həmin göstərici 7,5 min idi.

Doğrudur, bu il yeni tip koronavirus pandemiyası davam etdiyindən ölkəmizə əcnəbi turist axını müşahidə olunmur. Motoidman azarkeşləri beşinci Azərbaycan Qran-prisini yerindəcə izləyə bilməyəcəklər. Başqa sözlə, turnirdən əvvəlki iqtisadi faydanı gözləmək yersizdir. Bununla belə, "Formula-1" Azərbaycanı dünyada tanıtmaqdan qalmır. Fanatların gözləri üç gün ərzində yenə də Bakıya dikiləcək, yüz milyonlarla tamaşaçı televiziya vasitəsilə paytaxtımızda cərəyan edən hadisələri izləyəcək. Dünyanın 200-dən çox yaşayış məntəqəsində canlı yayımlanacaq "Formula-1" Azərbycan Qran-prisi azarkeşlərə 635 saatdan çox yayım görüntüləri təmin edəcək.

Məlum olduğu kimi, keçən il pandemiya üzündən Azərbaycan Qran-prini qəbul edə bilməmişdir. Beləliklə, ikiillik fasilədən sonra azarkeşlər televiziya vasitəsilə olsa da, yenidən Bakını görmək imkanı əldə edirlər. Telegörüntülər də çoxsaylı tamaşaçı kütləsində paytaxtımız haqqında müsbət rəy formalaşdırmağa qadirdir.

Beləliklə, Bakı dünyanın ən böyük idman tədbirlərindən birini qəbul etməyə hazırdır. Pilotlar bu gün və sabah sərbəst yürüşlər və sıralama turları keçirəcək, bazar günü isə trasa çıxıb məharətlərini nümayiş etdirəcəklər. Yarış iştirakçılarına uğurlar olsun!

**_Allahverdi MEHDİYEV,_**
**_"Azərbaycan"_**

## Toto Volf Azərbaycan Qran-prisində uğurlu nəticəyə ümid edir



"Monakoda uğursuz uik-enddən sonra komanda daha qətiyyətlə mübarizə aparmaq və qalibiyyəti geri qaytarmaq əzmindədir". Bu bəyanatla "Mercedes AMG F1 Team" komandasının rəhbəri Toto Volf çıxış etmişdir.

Volf qeyd etmişdir ki, Monakodakı uik-endə bənzər uik-endlər daha çox çalışmağa vadar edir: "Avtomobil yürüşündə heç nə asan başa gəlmir. Məhz buna görə bu idman növünü sevirik. Əgər siz bütün imkanlarınızı ortaya qoymasanız, o halda sizi məğlubiyyət gözləyir. Monakodan sonra komandada gördüyüm əhvali-ruhiyyə məni sevindirdi. Biz baş vermiş hadisələri təhlil etdik, mühüm nəticələr çıxardıq. Təəssüf ki, həmin uik-endin əvvəlinə qayıtmaq mümkün deyil".

Komandanın rəhbəri Bakıda keçiriləcək növbəti yürüşə toxunarkən bildirmişdir ki, Azərbaycan paytaxtındakı tras xarakterinə görə Monakodan çox fərqlənir: "Bakıda mübarizə bizim üçün yenə də asan olmayacaq, çünki tras bolidimizə o qədər də uyğun deyil. "Red Bull" komandası əminliklə çıxış etməlidir. Bununla belə, "Ferrari" və "McLaren" komandaları da son vaxtlar nəzərəçarpan irəliləyişə nail olub. İndi ən başlıcası W12-yə uyğun olmayan belə qeyri-adi traslarda hansı imkanlarımızın olacağını araşdırmaq və bu imkanlardan istifadə etməkdir. Qarşıda bizi Bakı küçələrində növbəti mürəkkəb məsələlərin həlli gözləyir. Lakin bundan əvvəlki yürüşdən sonra daha əzmliyik və cavab zərbəsi endirmək niyyətindəyik".

## "Alfa Romeo" uğurlu uik-endə inanır



İki həftə bundan əvvəl Monakoda Antonio Covinatsinin 10-cu yer tutması sayəsində "Alfa Romeo" komandası bu mövsümdə ilk xalını qazanmışdır.

Komanda Bakıda növbəti addımı atmağa ümid edir. "Alfa Romeo"nun rəhbəri Frederik Vasser bu barədə mülahizələrini bölüşmüşdür: "Biz növbəti uik-endi komandaya inanmaqla başlayırıq. Monakoda uğursuzluq zolağını qırmağa və xal qazanmağa nail olduq. Ümidvarıq ki, Bakıda yenidən təsnifatın ikinci hissəsinə keçməyə, yürüşdə yaxşı iştirak etməyə və yenidən layiqli nəticə əldə etməyə nail olacağıq".

Komandanın pilotu Kimi Raykkonen qeyd etmişdir ki, "Alfa Romeo" hər yürüşdə sürəti artırır: "Bu irəliləyişi görmək xoşdur. Ümid edirəm ki, bu uik-end də uğurlu olacaq. Bakıda yürüşlər bəzən olduqca xaotik alınır. Əgər işin öhdəsindən gəlsək, şansımız olacaq".

Pilot Antonio Covinatsi də fikrini bölüşərək demişdir: "Bakı trası mənim üçün ən sevimli traslardan biridir. Burada GP2-də yürüşləri və 2019-cu ildə "Formula-1" çempionatında ilk uik-endimi böyük məmnuniyyətlə xatırlayıram. O vaxt mən şənbə gününü çox məhsuldar keçirmişdim. Həmin gün ilk dəfə təsnifat finalına çıxdım və bunu yaxın uik-enddə təkrarlamaq istərdim. Monako mərhələsində xal qazandım və bu, yaxşı nəticə idi. Ümidvaram ki, biz Bakıda da eyni dərəcədə rəqabətədavamlı olacaq və əldə etdiyimiz irəliləyişi finişdə xala çevirəcəyik".

# Böyük liderlik missiyası: Heydər Əliyevdən İlham Əliyevə

*Əvvəli 1-ci səh.*



Azərbaycan xalqının Ulu Öndəri, görkəmli dövlət xadimi Heydər Əliyev liderlikdən Ümummilli Liderliyə qədər inkişaf edən və həm ölkəsində, həm də dünyada əsl lider olaraq qəbul edilən fərqli şəxsiyyətdir. Liderlik haqqında dünya təlimindəki əksər keyfiyyətlər Heydər Əliyevin simasında ümumiləşir.

Heydər Əliyev postsovet məkanında yeganə ölkə rəhbəri və Prezident idi ki, görkəmli dövlət başçısı funksiyasını Ümummilli Liderliklə üzvi surətdə birləşdirə bilmişdi. Müasir siyasi-hüquqi təlimlərin görkəmli yaradıcılarının qənaətinə görə, hər bir rəhbər millətə real lider ola bilmir və əksinə, heç də hər liderin ölkəyə səmərəli rəhbərlik etməyi bacarmadığı halları olur. Bununla bağlı tarixdə və günümüzdə kifayət qədər misallar var. Bu səbəbdəndir ki, Heydər Əliyevin Ümummilli Lider kimi yüksək dövlətçilik-idarəçilik qabiliyyəti və bacarığı ilə dövlətə yüksək səviyyəli rəhbərliyi bir-birini üzvi surətdə tamamlayır. Məsələnin bu cəhətdən təhlili digər vacib məqamlarla yanaşı, Heydər Əliyevin Azərbaycanda müasir liderlik ənənəsinin banisi və həm də dünya miqyaslı lider olmasının əsas parametrlərini dərk etməyə şans yaradır. Heydər Əliyev liderliyi qüdrətli Ümummilli Lider səviyyəsinə qaldırmış nadir dövlət xadimlərindən biridir. Bu qeyri-adi liderlik istedadına malik olan dövlət xadiminin keçirdiyi çətin, məsuliyyətli və şərəfli yolun təcrübəsi əsasında Ulu Öndərin liderlik istedadının başlıca təşkiledici prinsiplərini müəyyənləşdirmək mümkündür.

Vurğulanan məqamların işığında Heydər Əliyevin liderlik istedadının müxtəlif kontekstlərdə təzahürlərinə diqqətlə nəzər yetirmək lazımdır. Hər şeydən əvvəl qeyd edək ki, Heydər Əliyev lider və dövlət başçısı kimi unikal, təkrarolunmaz və XX əsrdə kimsənin yaşamadığı ibrətamiz həyat və mübarizə yolu keçmişdir. Heydər Əliyev yeganə siyasi xadimdir ki, iki böyük tarixi-siyasi epoxada və keçid dövründə Ümummilli Lider statusuna yüksələ bilmişdir. Keçmiş sovet hakimiyyət mərhələsində də, müstəqillik dövründə də Heydər Əliyev təkrarsız liderlik istedadına malik görkəmli dövlət xadimi olduğunu isbat etmişdir. Bu dahi şəxsiyyətin çətin və mürəkkəb tarixi şəraitdə Naxçıvan Muxtar Respublikasını işğaldan xilasetməsi, yaşatması və inkişaf etdirməsi, bu həssas regionda Azərbaycanın ərazi bütövlüyünü qoruyub möhkəmləndirməsi də əsl liderlərə xas olan böyük xilaskarlıq missiyasının yüksək səviyyədə həyata keçirilməsinin nümunəsidir.

Bəli, Heydər Əliyev hələ sovet dövründə elan olunmamış Ümummilli Lider kimi fəaliyyət göstərə bilmişdir. Və bu reallıq o dərəcədə məsuliyyətli idi ki, qısqanc SSRİ rəhbərləri içərisində həmin miqyasa çatmaq və onu qoruyub saxlamaq ayrıca qabiliyyət, xüsusi liderlik tələb edirdi. Heydər Əliyev Sovet İttifaqı dövründə SSRİ-yə daxil olan müttəfiq respublikalardan birinin liderliyindən Siyasi Büronun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini səviyyəsinə yüksəlmək qədər böyük missiyanı gerçəkləşdirmiş və özünün böyük liderlik istedadı ilə həm də qoruyub saxlamağı və yaşatmağı da uğurla həyata keçirmişdir.

Bu mənada Heydər Əliyevin SSRİ dövründəki özünəməxsus Ümummilli Liderlik fəaliyyətinin əsas məqamlarının nəzəri-hüquqi baxımdan geniş tədqiq edilməsi ölkə və dünya üçün də əhəmiyyətlidir. Çünki ikinci elə bir nümunə yoxdur ki, ərazicə kiçik respublikada bütün fəaliyyət sahələri mərkəzdən idarə edilidyi şəraitdə ölkə rəhbəri SSRİ rəhbərliyinin razılığı olmadan real surətdə xalqa liderlik edə bilsin, onun təhlükəsizliyini, mövcudluğunu və inkişafını bacarmaq vəzifəsini qətiyyətlə həyata keçirsin.

Məhz buna görədir ki, Azərbaycan xalqı müstəqillik dövründə səsləndirilən "xalq-Heydər, Heydər-xalq" şüarını bütün qəlbi ilə dərhal qəbul etdi. Sovet dövründə Heydər Əliyevin xalqla bir olması təcrübəsi insanlarda bu qüdrətli Liderə böyük inam, yüksək ehtiram və etibarlılıq hissi yaratmışdı. Bu, nəinki Azərbaycanın və türk dünyasının siyasi ənənəsində, hətta dünya miqyasında tarixi hadisə idi.

Görkəmli dövlət xadimi Heydər Əliyevlə bağlı aparılan tədqiqatlarda vurğulanır ki, keçən əsrin 30-cu illərində Azərbaycan SSR-də təhlükəsizlik orqanlarında rəhbər vəzifədə olanların əksəriyyəti qeyri-azərbaycanlılardan ibarət idi. Heydər Əliyev özü də dəfələrlə ifadə edib ki, bu fakt respublikada narahatlıq yaradırdı. Həm də ona görə ki, həmin dövrdə Rusiyaya və başqa İttifaq respublikalarına xüsusi ixtisaslar üzrə təhsil almağa göndərilənlərin sayı çox az olduğu üçün və təhlükəsizlik xidməti üzrə respublikadan mərkəzə təhsil almaq məqsədilə göndərilənlərin içərisində azərbaycanlılar azlıq təşkil etdiyinə görə seçim və dəyişiklik etmək çətinliklər törədirdi. Həmin o proses belə davam etsəydi, gələcək illərdə Azərbaycan SSR-in rəhbərliyinə yad millətlərin nümayəndələri gələ bilərdi. Onda isə istər-istəməz bütövlükdə xalqın, ölkənin siyasi taleyi risk altına düşərdi. Vəziyyəti daha da ağırlaşdıran məqam kimi Ulu Öndər mərkəzin Azərbaycana qarşı digər müttəfiq respublikalarla müqayisədə ikili mövqe tutmasını görür və bütün bunlara qarşı mübarizə aparmaq üçün son dərəcə ağıllı, məsuliyyətli və mövcud ideologiyaya uyğun incə siyasət aparırdı. Heydər Əliyevin müdrik və uzaqgörən lider kimi böyük istedadı bu məsul vəzifənin öhdəsindən təhlükəsiz olaraq yüksək səviyyədə gəlməyə imkan yaratmışdır.

Heydər Əliyev xalqımızın xilası naminə səlahiyyət əldə etmək üçün əvvəlcə respublikada yüksək vəzifəyə təyinat aldı, birinci şəxs olaraq ölkəni idarə etməyə başladı. Sonrakı mərhələdə isə Sovet İttifaqının rəhbəri Leonid Brejnevi inandıraraq onun Azərbaycan SSR-ə fərqli münasibət bəsləməsini təmin edə bildi. Nəticədə Heydər Əliyev Azərbaycan SSR-ə ittifaq miqyası üçün ayrılan təhsil üzrə kvotanı 500 nəfərə qədər çoxaltmağa nail oldu və təhsil almağa gedənlərin say tərkibində doxsan faizdən çox azərbaycanlı təmsil edildi. Bu, Ulu Öndərin respublika rəhbəri olmaqla yanaşı, xalqın lideri olmasının mühüm əlamətlərindən biri idi. Çünki başqa respublikalara təhsil almağa göndərilənlər bu müddətdə Azərbaycan rəhbərliyinin həyata keçirdiyi siyasət sayəsində respublikaya vətənpərvər və yüksəkixtisaslı kadrlar kimi qayıdırdılar. Kadrların azərbaycanlılaşdırılması Heydər Əliyev üçün onların öz ölkəsini, mənsub olduqları xalqı, onun tarixini bilmək və mədəniyyətini sevmək məramına vicdanla xidmət etmək mənasını daşıyırdı. Bu məqam Heydər Əliyevin sovet dövründə, mərkəzin nəzarətinin güclü olduğu, siyasi fəaliyyət alətlərinin kənardan təşkil edildiyi şəraitdə siyasi lider kimi əslində Ümummilli Lider səviyyəsinə yüksəlməsinin təsdiqi idi. Məhz bu addımlardan sonra Ulu Öndər yüksək dövlət idarəçiliyində azərbaycanlılaşdırma siyasətini yüksək səviyyədə həyata keçirməyi bacarmışdır.

Digər bir məqam Azərbaycan mədəniyyətinin təbliği və inkişafı ilə bağlıdır. Heydər Əliyev mərkəzdən bir sıra dairələrin yalnız Azərbaycanın ərazisinə və sərvətlərinə deyil, həm də milli kimliyinə, ədəbiyyatına və mədəniyyətinə, xüsusilə ana dilimizə qəsd etmək istədiyini dərindən bilirdi. Ona görə də müdrik və uzaqgörən dövlət xadimi bu hallara qarşı heyrətedici səviyyədə müasir, sivil, mədəni mübarizə üsulunu seçmişdi. Bu məsələdə Ulu Öndərin liderlik istedadı xüsusi məna kəsb edir. Heydər Əliyev keçmiş ittifaq səviyyəsində bir-birinin ardınca Azərbaycanın böyük ədəbiyyat və incəsənət xadimlərinin yubileylərini təntənəli surətdə təşkil etmiş, onların xidmətlərini geniş miqyasda ictimailəşdirmişdi. Heydər Əliyev bu yolla Azərbaycan yazıçı və şairlərini fəal şəkildə müxtəlif təzyiqlərdən qorumuş, nəinki onların həyatını xilas etmiş, gələcək fəaliyyətlərinə də yol açmağı bacarmışdı.

Azərbaycanın XX əsrdəki görkəmli siyasətçilərinə, xüsusən Nəriman Nərimanova qarşı mərkəzdə olan mənfi əhval-ruhiyyəni Heydər Əliyev dəyişdirmişdi. Uzaqgörən müdrik rəhbər bununla kifayətlənməmiş, Azərbaycan dilini dövlət dili kimi hüquqi müstəvidə mərkəzə qəbul etdirmişdi. Konkret olaraq Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasına ana dilinin dövlət kimi daxil edilməsi nadir siyasi-tarixi hadisə idi. Onu deyək ki, həmin dövrdə başqa respublikalar üçün, məsələn, Ermənistan və Gürcüstan üçün adi sayılan, aksiom kimi qəbul edilən bu dəyərləri Azərbaycan üçün yalnız ciddi və ağıllı mübarizə ilə qəbul elətdirmək mümkün olurdu. Görkəmli dövlət xadimi Heydər Əliyev belə məsul vəzifələri siyasi müstəvidə əsl lider olaraq həyata keçirməyin öhdəsindən layiqincə gəlirdi.

Heydər Əliyevin dövlət rəhbərliyi ilə liderliyi yüksək səviyyədə sintez etdiyi başqa bir sahə asayişin qorunması, nizam-intizamın təmin edilməsi və respublikanın daxili sabitliyə qovuşdurulması ilə bağlıdır. Bu məqam həm də ona görə ciddi əhəmiyyət kəsb edir ki, asayişin təmini, ciddi intizam, möhkəm sabitlik tarixən dövlətçilik ənənəsinin mühüm sütunlarından biri olub. Heydər Əliyev bütün bunları sovet rejimi kimi yad bir siyasi mühitdə yüksək istedadla təmin etmişdi. Bunun üçün hüquq mühafizə orqanları və ideologiya sistemi üçün milli kadrlar hazırlayıb yetişdirmiş və onların məqsədyönlü şəkildə yerləşdirilməsini, səmərəli fəaliyyətini formalaşdırmışdı.

Təcrübə göstərir ki, bu addımı ilə Heydər Əliyev faktiki olaraq sonrakı müstəqillik mərhələsində asayiş və sabitliyin təmin edilməsi üçün real baza hazırlayıb. Bununla hətta sovet dövründə belə Azərbaycan dövlətçilik ənənəsinin vacib prinsiplərindən birini yaşatmış və möhkəmləndirmişdi. Həqiqətən bu, heyrətedici liderlik istedadıdır! Bu addımlar Lider kimi taktiki və strateji məqamları konkret zaman-məkan çərçivəsində ümummili maraqlara xidmət etməyə yönləndirən və bütün nəzarət sistemini "yarıb keçən" əsl siyasi liderlik xəttidir. Çünki siyasi sabitlik olmadan, anarxiya şəraitində böyük inkişafa nail olmaq qeyri-mümkündür.

Nəhayət, sovet dövründə Heydər Əliyevin Ümummilli Liderliyini təsdiq edən faktor iqtisadi sferada aparılan işlər oldu. Heydər Əliyev Azərbaycanın sosial, mədəni və iqtisadi cəhətdən lazımi səviyyədə inkişaf edə bilməyəcəyi fikrini mərkəzə sırımağa çalışanların qarşısını həm də ölkədə güclü iqtisadiyyat yaratmaqla kəsmişdi. Respublikaya rəhbərlik etdiyi müddətdə Azərbaycan 12 dəfə Keçici Bayraq almış, çoxlu sayda zavod və fabrikin inşasına nail olmuşdur. Respublikada hərtərəfli inkişaf etmiş sosial-istisadi infrastruktur yaranmışdı.

Bununla görkəmli dövlət xadimi Heydər Əliyev həm SSRİ-nin mərkəzi hökumətinə, həm Azərbaycanın düşmənlərinə, həm də bütün dünyaya sübut etdi ki, Azərbaycan SSR respublika kimi var olmağa və inkişaf etməyə qadirdir! Bu, Heydər Əliyevin siyasi lider və dahi rəhbər kimi tarixdə ən böyük qələbələrindən biri idi. Bu mənada Heydər Əliyevin Azərbaycanı ilk xilas etməsi sovet dövründə oldu. Yəni artıq XX əsrin 80-ci illərinə Heydər Əliyev artıq SSRİ-nin rəhbərlərindən biri olmaqla yanaşı, həm də Azərbaycanın Xilaskar Ümummili Lideri kimi qədəm qoymuşdu.

Müasir siyasi nəzəriyyəçilər yazırlar ki, Ümummilli Liderləri böhran yetişdirir. Onlar xalq, millət və bütövlükdə cəmiyyətin böyük və kəskin dönüş zamanlarında, miqyaslı dəyişiklik ərəfəsində, mövcud siyasi rejimin laxlaması və xaosun üstünlük təşkil etməyə başlaması şəraitində meydana çıxırlar. Daha doğrusu, əgər xalq və cəmiyyət buna qadirdirsə, onda öz içərisindən belə bir Lideri ortaya çıxara bilir. Heydər Əliyev nümunəsində XX əsrdə xalqın və ölkənin ən çətin dövründə dövlət başçısı ikinci dəfə özünün liderlik istedadını isbat etmişdir.

Məlumdur ki, XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan bir əsrdə ikinci dəfə məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Həmin dövrdə ölkəyə səriştəsiz adamların rəhbərlik etməsi və düşmənin respublikamızın ərazi bütövlüyünə davamlı təcavüzü bütövlükdə xalqımızı "ölüm-qalım" faktı qarşısında qoymuşdu. Məhz belə çətin məqamda tale ikinci dəfə Heydər Əliyevə lider-xilaskar rolunu həyata keçirmək üçün imkan yaratmışdır. Xalqın tələbi və dəstəyi ilə 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş Heydər Əliyev faktiki olaraq Xilaskar lider missiyasını həyata keçirmişdir.

Heydər Əliyev qısa müddətdə bu çətin tarixi mərhələdə də siyasi liderliklə Ümummili Liderliyin və dövlət rəhbərliyi ilə ümummilli maraqların sintezini yarada bilən şəxsiyyət olduğunu sübut etmişdir. O, əvvəlcə Ermənistanın işğalçılıq siyasətini atəşkəs diplomatiyası ilə dayandırmışdır. Sonra daxili sabitlik təmin edilmişdir. Paralel olaraq Heydər Əliyev elə bir geosiyasi gediş etmişdir ki, ən böyük rəqiblər belə çaşbaş qalmışdır. Heydər Əliyev mürəkkəb şəraitdə "Əsrin müqaviləsi"ni nəinki imzalamış, hətta qonşu Gürcüstanı geosiyasi baxımdan güzəştli addımlarla himayə etmişdir. Nəticədə tarixi Bakı-Tbilisi-Ceyhan layihəsi reallaşmış, Gürcüstan bu tarixi dəyişdirən prosesdə tamhüquqlu ölkə kimi iştirak etmək imkanı qazanmışdır. Beləliklə, həm də Ermənistanın regionda təklənməsi siyasəti həyata keçirilmişdir. Azərbaycan isə daha geniş miqyasda qələbə əldə etmişdi. Heydər Əliyev düşünülmüş seçimi ilə sübut etmişdi ki, Azərbaycan Respublikası müstəqil dövlət kimi nəinki mövcud olmaq və hətta inkişaf etmək potensialına malikdir. Bu mesajı Kremldə ilk dəyərləndirənlərdən biri Rusiya Federasiyasının lideri Vladimir Putin oldu. Rusiyanın Prezidenti hakimiyyətə gələn kimi Azərbaycanı müstəqil dövlət olaraq tərəfdaş ölkə kimi qəbul etdi və əməkdaşlığa yaşıl işıq yandırdı. Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəllə etibarlı münasibətləri və qarşılıqlı əlaqələri də müstəqillik dövrünün çətinliklərinin aradan qaldırılmasında mühüm rol oynamışdır. Ümumiyyətlə, Heydər Əliyevin dünya miqyaslı lider kimi beynəlxalq aləmdə böyük nüfuza malik olması Azərbaycanı müstəqillik illərinin başlanğıcındakı böyük bəlalardan xilas etmiş, ölkənin yeni inkişafına mühüm stimul vermişdir. Nəticədə Azərbaycan müstəqil dövlət kimi XX əsrin 90-cı illərinin ikinci yarısına artıq özünü təsdiq etmiş ölkə kimi qədəm qoymuşdur. Bu, Heydər Əliyevin Ümummilli Lider olmasını təcəssüm etdirən konkret faktdır. Bundan sonra dünyanın böyük siyasi liderləri Heydər Əliyevə Azərbaycanın Ümummilli Lideri kimi xüsusi ehtiramla yanaşdılar.

Bu prosesə Ulu Öndərin beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də etdiyi tarixi çıxışlar da sürətli təkan verdi. Heydər Əliyev XX əsr Azərbaycan dövlətçiliyi tarixində ilk dövlət başçısı və siyasi lideri idi ki, beynəlxalq miqyaslı yüksək tribunadan dövlətin daxili və xarici siyasətinin prioritetlərini açıq surətdə təqdim edirdi. Bu baxımdan Heydər Əiyevin BMT-nin 49-cu sessiyasında (1994-cü il) və bu təşkilatın 50 illiyinə həsr edilmiş xüsusi toplantısında (1995-ci il) Azərbaycan dövlətçiliyi ilə əlaqədar, daxili və xarici siyasəti ilə bağlı irəli sürdüyü siyasi tezislərlə yanaşı, dünya siyasəti haqqında da çox dəyərli və strateji xarakterli fikirlər ifadə etməsi, fövqəlgücləri bəşəriyyətin təhlükəsizliyi və inkişafı üçün məsuliyyət daşımağa dəvət etməsi böyük uzaqgörənlik və cəsarət tələb edirdi.

Bunlarla yanaşı, Heydər Əliyevin liderlik istedadı müstəqillik mərhələsində onun cəmiyyəti birləşdirə bilən ideoloji sistem hazırlayıb həyata keçirməsi ilə əlaqəlidir. Bu uzaqgörən sistem azərbaycançılıq təlimi idi. Heydər Əliyev yeganə siyasətçidir ki, azərbaycançılığı romantik-bədii ideyalar sferasında da ciddi siyasi-ideoloji sistemə çevirə bilmiş, ona konkret məzmun vermişdir. Ulu Öndər Heydər Əliyev azərbaycançılığı ölkənin parçalanmasının qarşısının alınmasına, dövlətçiliyin müasir tələblərə uyğun inkişaf etdirilməsinə, cəmiyyətdə möhkəm və etibarlı birliyin yaranmasına, fərqli mədəniyyətlərlə ünsiyyətin gücləndirilməsinə və müstəqil dövlət quruculuğunun davamlı olaraq aparılmasına xidmət edən konsepsiya kimi meydana qoymuş və dönmədən həyata keçirmişdir.

Bununla Heydər Əliyev müstəqillik mərhələsində Ümummilli Liderliyin xilasedici, nizamlayıcı və qurucu aspektlərinin vəhdətinə nail olmuşdur. Dahi rəhbər bu yolla Azərbaycanda müasir mərhələdə yeni liderlik ənənəsinin əsasını qoymuşdur. Görkəmli dövlət xadiminin siyasi mühitdə tətbiq etdiyi Azərbaycan dili, Azərbaycan xalqı, Dünya Azərbaycanlıları və Azərbaycançılıq ideologiyası geniş mənada dövlət siyasəti kimi müəyyən edilmiş Azərbaycançılıq təliminin Heydər Əliyev modelinin dayaqlarıdır.

Bütün bunların fonunda Heydər Əliyevin lider və dövlət başçısı kimi böyük xidmətləri sırasında siyasi varisliyi yüksək səviyyədə təmin etməsinə ayrıca toxunmaq lazımdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi dünya və ölkə miqyaslı siyasi lider kimi yetişdirməklə Heydər Əliyev Azərbaycan xalqı və müstəqil dövlətimiz qarşısında misilsiz tarixi xidmət göstərmişdir.

Bir sıra tanınmış siyasi nəzəriyyəçilər belə hesab edirlər ki, ümummili liderlər ancaq fəaliyyətləri müddətində deyil, həm də özündən sonrakı dövr üçün liderlik məktəbini yarada bilən şəxsiyyətlərdir. Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi müddətdə sübut etdi ki, o, Heydər Əliyev məktəbini yüksək səviyyədə mənimsəmiş və yeni tarixi epoxanın irəli sürdüyü çağırışları qabaqlamış, mühüm strateji zəkaya və praktiki səmərəli fəaliyyət metodlarına malik olan dünya miqyasında yeni tipli liderdir.

İlham Əliyev XXI əsrdə Azərbaycanı yüksək inkişaf etmiş müstəqil dövlətlər sırasına çıxarmağa tam qadir olan əsl liderdir. Bununla da Ulu Öndərin sovet dövründə Azərbaycanı ölkə kimi, XX əsrin 90-cı illərində isə respublikamızı müstəqil dövlət kimi xilas etməsi prosesi Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla və qətiyyətlə həyata keçirilmişdir. Bu tarixi mərhələdə İlham Əliyev işğalçı Ermənistan üzərində savaşı qazanaraq sübut etdi ki, Azərbaycan nəinki müstəqil dövlət kimi inkişaf etməyə qadirdir, o həm də regionun aparıcı dövləti və qalib lideri olmaq qüdrətindədir.

Bu gün Prezident İlham Əliyevin sayəsində Azərbaycan Respublikası regionun lideri kimi dünya səviyyəsində aktiv fəaliyyət göstərmək imkanına sahib olan qalib dövlətdir. Bu çoxcəhətli fəaliyyət böyük iqtisadi inkişafı, milli mədəniyyəti, multikulturalizmi, enerji layihələrini, sivilizasiyalar, mədəniyyətlər və dinlərarası münasibətlərin təşkilini, regionda balansı saxlaya biləcək hərbi qüdrəti təmin etmək məsələlərini əhatə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın çoxəsrlik tarixi salnaməsinə Zəfər günü həqiqətlərini yazmaqla bərabər, həm də ölkəmizi bütün sahələr üzrə irəli aparmağı bacaran, beynəlxalq aləmdə böyük nüfuza malik qüdrətli lider kimi qəbul olunur. Möhtərəm Prezidentin qətiyyətlə həyata keçirməyə başladığı Böyük Qayıdış proqramı həm Qarabağın, həm də geniş mənada Azərbaycanın yeni sabahlarını aydın surətdə təsəvvür etməyə imkan verir. Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün dünyanın söz sahibi olan əsl liderlərindən biri kimi qəbul edilir.

Göründüyü kimi, müstəqil Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin mükəmməl dövlətçilik təcrübəsi və qətiyyəti sayəsində özünün əsas siyasi-ideoloji və iqtisadi dayaqlarını qurub möhkəmləndirmişdir. Prezident İlham Əliyevin liderliyi ölkəmizi müasir dövrün yeni tarixi inkişaf mərhələsinə çatdırmışdır. Bu gün Prezident İlham Əliyevin simasında müstəqil Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, Qoşulmama Hərəkatında, Türk Dövlətləri Əməkdaşlıq Şurasında, Ümumdünya Səhiyyə Təşkilatında, digər mötəbər beynəlxalq qurumlarda tutduğu mövqe, qazandığı böyük nüfuz yalnız super dövlətlərlə müqayisə oluna bilər.

*Bütün bunlar göstərir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müasir dünyanın güclü dövlət liderlərindən biridir. Azərbaycan Respublikası Prezident İlham Əliyevin liderliyi ilə böyük sabahlara doğru inamla addımlamaqda davam edir.*

**Seymur TALIBOV,**
***Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent***

# Azərbaycanın Cənubi Qafqazdakı liderliyinə verilən qiymətin təzahürü

*Əvvəli 1-ci səh.*

Belə ki, Azərbaycan Çinin "Vahid Çin" siyasətini, Çin isə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını daim dəstəkləyib. Bu ölkə Dağlıq Qarabağ münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq həllinə tərəfdar idi.

İki ölkənin bir-birinə göstərdiyi yüksək dəstək dünyanın əsas iqtisadi mərkəzlərindən olan Çinin hər zaman Azərbaycana qarşı isti münasibətləri ilə müşahidə olunur. 2019-cu ildə Prezident İlham Əliyevin Çinə səfəri zamanı Si Cinpin demişdi: "Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz, Çin-Azərbaycan münasibətlərinin və bütün sahələrdə əməkdaşlığın inkişafı üçün şəxsən daim səy göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və Sizinlə sıx əlaqə saxlamağa, ikitərəfli münasibətləri birlikdə sağlam məcrada inkişaf etdirməyə hazıram". Bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin şəxsiyyətinə, qlobal siyasətdə yerinə və roluna verilən önəmli qiymətin təzahürü idi.

Qeyd edək ki, Çin tərəfindən irəli sürülmüş "Bir kəmər bir yol" təşəbbüsü ikitərəfli münasibətlərin genişləndirilməsinə və dərinləşməsinə yeni imkanlar yaradıb və Azərbaycan bu məsələdə Çinin əsas tərəfdaşlarından biridir.

## Çinlə əlaqələr bundan sonra da sürətlə inkişaf edəcək

İki ölkə rəhbərinin iyunun 2-də apardıqları telefon söhbəti bir daha Azərbaycan və Çin arasında olan həqiqi dostluğun, fəal siyasi dialoqun təsdiqi oldu. Məlumdur ki, pandemiya ilə mübarizə zamanı Çin dünyada vaksin çatışmazlığı şəraitində Azərbaycanla əlaqələrə sadiq olaraq ölkəmizə vaksin idxal etdi, çinli mütəxəssislər ölkəmizə gəldilər. Söhbət zamanı dövlət rəhbərləri COVID-19 pandemiyası dövründə Azərbaycan və Çinin həqiqi dostluq nümayiş etdirərək, çətinliklərin öhdəsindən gəldiklərini və bir-birini dəstəklədiklərini məmnunluqla qeyd ediblər. Prezident İlham Əliyev COVID-19 pandemiyası ilə mübarizədə dəstəyə görə ÇXR Sədrinə təşəkkürünü bildirib. Qeyd olunub ki, Azərbaycan və Çin siyasi, iqtisadi və nəqliyyat-logistika sahələrində uğurla əməkdaşlıq edirlər. Dövlətimizin başçısı Azərbaycanın Çinlə əlaqələri daha da möhkəmləndirməyə hazır olduğunu qeyd edib və Çin şirkətlərinin Azərbaycanda fəaliyyətinin daha da genişləndirilməsini alqışlayıb.

ÇXR sədri Si Cinpinin münasibətlərin yeni tarixi mərhələnin astanasında olduğu, hər iki ölkənin ənənəvi dostluğu inkişaf etdirməsi, əməkdaşlığı dərinləşdirməsi və qarşılıqlı dəstəyi artırması, habelə Azərbaycanın "Bir kəmər bir yol" təşəbbüsünün reallaşdırılması istiqamətində vacib tərəfdaş olduğu və Çinin Azərbaycan xalqının seçdiyi inkişaf yolunu dəstəklədiyi barədə fikirləri Azərbaycanın regionda və dünyada çəkisi, nüfuzu və önəminə verilən qiymətdir. Si Cinpinin Çin şirkətlərinin Azərbaycana investisiya qoyuluşunu daha da təşviq etməyə, infrastruktur layihələri çərçivəsində əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını bildirməsi güclü iqtisadi inkişafa, əlverişli investisiya mühitinə malik olan Azərbaycana marağın ifadəsidir.

Azərbaycan "Bir kəmər bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olaraq, reallaşdırdığı irimiqyaslı nəqliyyat-infrastruktur layihələri ilə bu təşəbbüsün həyata keçirilməsinə öz əhəmiyyətli töhfəsini verib. Hazırda isə yeni yaradılacaq Zəngəzur dəhlizi ilə Azərbaycan Çindən Qərbə və əksinə yükdaşımalar üçün qısa və əlverişli alternativ marşrut təqdim edir ki, bu da Çin daxil olmaqla marşrut boyu ölkələrin maraqlarına xidmət edir.

Görünən odur ki, Azərbaycanla Çin arasında əlaqələr bundan sonra da sürətlə inkişaf edəcək. Dövlət rəhbərlərinin telefon söhbət əsnasında da iki ölkənin hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin inkişafını təşviq etmək üçün birgə səylər göstərməyə hazır olduğu qeyd edilib.

## Avropa İttifaqı Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verir

Qlobal güc mərkəzlərindən biri olan Avropa İttifaqı da Azərbaycanın ən vacib tərəfdaşlarından biridir. Təsadüfi deyil ki, Aİ-yə üzv dövlətlərin üçdəbir hissəsi ilə Azərbaycan arasında strateji tərəfdaşlıq adlanan sənədlər və bəyannamələr imzalanıb. Respublikamızın ticarət dövriyyəsinin yarısından çoxu Aİ-nin payına düşür. Aİ hər zaman Azərbaycanın enerji layihələrinə böyük dəstək verib və bu sahədə fəal və səmərəli əməkdaşlıq mövcuddur.

Bir məsələni də qeyd edək ki, Aİ artıq həllini tapmış Dağlıq Qarabağ məsələsində balanslı siyasət həyata keçirib. Bu təşkilat 44 günlük müharibə dövründə də eyni mövqe tutdu. Aİ üzvlərindən yalnız Fransa ermənipərəst mövqe nümayiş etdirdi. Əlbəttə, bunun Azərbaycan üçün əhəmiyyəti yoxdur. Çünki Fransanın nə deməyindən asılı olmayaraq Azərbaycan öz milli marağını təmin etdi və 44 günlük müharibənin qalibidir.

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Prezident İlham Əliyevə Ermənistanın baş naziri N.Paşinyanın Brüsselə səfəri zamanı zəng etməsi də bu təşkilatın balanslı mövqeyinin göstəricisidir.

Telefon söhbəti zamanı Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Hər iki tərəf bu əməkdaşlığa böyük əhəmiyyət verdiklərini açıqladılar. Enerji təhlükəsizliyi sahəsində əməkdaşlıq, "Cənub qaz dəhlizi" layihəsinin başa çatması məmnuniyyətlə qeyd edildi.

Aİ Şurasının prezidenti Şarl Mişelin bu təşkilatın Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası və demarkasiyası prosesinin, iki ölkə arasında etimad quruculuğu tədbirlərinin başlanmasına dəstək verməyə hazır olduğunu bildirməsi də pozitiv məqamlardan biridir. Deməli, Aİ Azərbaycanın regionda yaratdığı yeni reallıqları görür, qəbul edir və bu prosesə töhfə vermək niyyətində olduğunu gizlətmir.

Bütövlükdə, Azərbaycan Prezidenti İlham Əliyevin həm Çin dövlət başçısı, həm Aİ Şurasının prezidenti ilə telefon söhbəti Azərbaycana olan yüksək beynəlxalq etimadın növbəti təsdiqi idi. Bütün bunlar bir daha göstərdi ki, dünyanın güc mərkəzləri İlham Əliyevin beynəlxalq əməkdaşlığa töhfələrini, təşəbbüslərini və liderliyini yüksək qiymətləndirirlər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***





# İlham Əliyev Ağdamı inkişaf və quruculuğun yeni rəmzinə çevirir

## Müzəffər Ali Baş Komandanın xilaskarlıq missiyası ağdamlılarda əbədi ehtiram və sədaqəti daha da gücləndirib

*Əvvəli 1-ci səh.*



İlk həmsöhbət olduğumuz Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov dedi ki, mayın 28-də dövlət başçısının iştirakı ilə keçirilən təməlqoyma mərasimi tarixi hadisə olmaqla yanaşı, bir çox insanın həyatına silinməz və unudulmaz xoş xatirə kimi yazıldı: "Bu gün həyatımızın ən maraqlı, ən mənalı günlərini yaşamaqdayıq. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin yüksək təşkilatçılıq, liderlik qabiliyyəti, xalqın mütəşəkkilliyi və insanların dövlət başçısına olan inamı, sevgisi nəticəsində 30 illik həsrətimizə son qoyuldu. Müzəffər sərkərdəmiz və onun qüdrətli ordusu düşmən tapdağında olan torpaqlarımızı azad edərək Azərbaycan xalqının arzusunu, xəyalını gerçəkləşdirdi. Azad edilən ərazilərimizin durumu isə erməni vandalizminin əyani təzahürüdür. Əksər şəhər və kəndlərdə heç bir tikili yoxdur. Ağdam şəhəri isə yerlə-yeksan edilib, daşı daş üstə qalmayıb. Bu, ilk növbədə ermənilərin özlərinə olmayan inamın göstəricisidir. Onlar dəqiq bilirdilər ki, özgə torpağında yaşaya bilməyəcəklər, Azərbaycan gec-tez özünə məxsus bütün əraziləri geri qaytaracaq. Ona görə də misli görünməmiş vəhşiliyə əl atıblar. Ancaq o torpaqları 44 günə geri qaytaran qalib sərkərdə bu gün vandallara gözdağı verərək Qarabağı yenidən cənnət məkana çevirir. Bizlər də o proseslərin şahidi, iştirakçısı və icraçısıyıq. Bu işdə Prezidentin verdiyi tapşırıqları, göstərişləri elə icra etməliyik ki, bütün proseslər vaxtında və uğurla reallığa çevrilsin".

Ağdamın rəhbəri kimi üzərinə tarixi məsuliyyət düşdüyünü deyən Vaqif Həsənov əmindir ki, dövlət başçısının verdiyi bütün tapşırıqlar uğurla həyata keçiriləcək və Ağdam dünya miqyasında analoqu olmayan şəhər kimi qurulacaq. 100 min əhalisi olan bu şəhərin bütün infrastrukturu dünya standartlarına cavab verəcək. Mənfur düşmən isə tezliklə özü ilə Azərbaycan xalqının fərqini görəcək. Mühüm strateji əhəmiyyətə malik olan şəhərin bərpası ilə ağdamlıların öz torpaqlarında əbədi və təhlükəsiz yaşam hüququ olacaq, iqtisadi cəhətdən inkişaf edəcək şəhərdə insanlar şad və xürrəm yaşayacaqlar: "Hər insana doğulub boya-başa çatdığı şəhər və rayonda rəhbər kimi çalışmaq nəsib olmur. Bu gün həyatımın ən xoş və ən məsuliyyətli günlərini yaşayıram. Çünki cənab Prezidentin Ağdam şəhərinin yenidən qurulması ilə bağlı hazırlatdığı Baş Planın icrası, yeni layhələrin gerçəkləşməsi prosesi ilə üzərimizə böyük məsuliyyət düşür. Ağdamın rəhbəri kimi bütün proseslərin ən yüksək səviyyədə reallaşması üçün çalışacam və inanıram ki, üzərimə düşən vəzifənin icrasını uğurla yerinə yetirəcəm".







Vaqif Həsənov deyir ki, bu gün Prezident İlham Əliyev işğaldan azad edilən bütün şəhər, rayon və kəndlərimizin yenidən qurulmasına xüsusi diqqət yetirir. Mütəmadi olaraq rayonlara səfər edib görülən işlərlə tanış olur, tapşırıqlarını verir. Ağdam rayonu işğaldan əvvəl də dövlət başçısının daim diqqətində olub. Dəfələrlə Ağdama səfər edən Prezident məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində böyük işlər görüb. Dövlət başçısının göstəriş və tapşırıqlarına, fərman və sərəncamlarına uyğun olaraq Ağdamın işğalda olmayan ərazilərində 18 yeni tipli qəsəbə, İdman Olimpiya Kompleksi, Muğam Mərkəzi, xəstəxanalar, fabrik və müəssisələr tikilib: "Həm Ulu Öndər Heydər Əliyev, həm də cənab Prezident İlham Əliyev hər zaman Ağdama xüsusi qayğı göstəriblər. Yəni dövlət başçısının Qarabağın əhalisinə göstərdiyi diqqət və qayğı tək bugünkü günlə məhdudlaşmır. Təkcə Ağdamın əhalisi respublikanın 62 rayonuna səpələnmişdi. Onların sosial-iqtisadi durumu, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində dövlət böyük layihələr həyata keçirib. Bir sözlə, cənab Prezidentin bu sahədə gördüyü işlər ölçüyəgəlməz dərəcədədir. Bunu da Qarabağ əhalisi, xüsusən də ağdamlılar yüksək qiymətləndirir. Rayon əhalisinin sevincinin həddi-hüdudu yoxdur".

Vaqif Həsənovun sözlərinə görə, 2-3 il müddətndə yeni, müasir Ağdam şəhəri qurulub doğma sakinlərinə təhvil veriləcək. Bu şəhərdə insanın ən yüksək səviyyədə yaşaması üçün hər bir infrastruktur mövcud olacaq. 200 hektara yaxın olan Ağdam Sənaye Parkının təməlinin qoyulması əlverişli strateji-coğrafi mövqeyə malik olan rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsinə geniş imkanlar yaradacaq.

Nəhayət, belə bir müasir şəhərin tezliklə inşa edilməsi həm erməni faşizminin, həm də onu müdafiə edənlərin siyasi və mənəvi cəhətdən növbəti məğlubiyyəti olacaq.

### "Keçmişimi yenidən özümə qaytaran, xoş gələcəyimizi quran Prezidentimə nə qədər minnətdarlıq etsəm, azdır"

Mayın 28-də İlham Əliyev həmçinin Ağdam şəhərində rəmzi məna daşıyan sosial obyektlərin də təməlini qoydu. Onlardan biri də 140 illik tarixə malik Ağdam şəhər 1 saylı orta məktəb idi. Bu tarixi hadisə Ağdamın müasir və intellektual gələcəyinin carçısı oldu. 1973-cü ildə həmin məktəbin məzunu olmuş Tünzalə Vəliməmmədovanın da sevincinin həddi-hüdudu yoxdur. Hazırda rayonun 2 saylı məktəbinin direktoru olan Tünzalə müəllimə deyir ki, Prezident İlham Əliyevin yeni qurduğu Ağdamda müasirliklə tarixiliyin vəhdəti öz əksini tapacaq: "İndi müasir Azərbaycanın qüdrətli sərkərdəsi İlham Əliyev yeni Ağdam qurur, özü də əvvəlkindən daha möhtəşəm, daha əzəmətli. İlk Baş Planın Ağdamla bağlı olması da dövlət başçısının ağdamlılara olan münasibətinin göstəricisidir. Biz hər zaman Prezidentimizlə qürur duymuşuq və onun siyasətinin təbliğatçısı olmuşuq. Bu gün cənab İlham Əliyevə edə biləcəyimiz minnətdarlığın dərəcəsi, həddi-hüdudu yoxdur.

Məktəbimizin təməlinin qoyulması zamanı gözlərim yaşardı, bir anlıq keçmiş dövrə qayıtdım, gözümün önündən xoş xatirələrim keçdi. Mənim keçmişimi, xoş gələcəyimi yenidən özümə qaytaran Ali Baş Komandanıma nə qədər minnətdarlıq etsəm, azdır. Şuşa fatehimin, tarix yazanımın, Ali Baş Komandanımın adı Qarabağın xilaskarı kimi qızıl hərflərlə yazıldı".

T.Vəliməmmədova deyir ki, Prezidentin 1 saylı məktəbin təməlini qoyması ilə müəllimlərin üzərinə böyük məsuliyyət düşdü. Eyni zamanda Ağdamda Qarabağ Universitetinin yaradılması ziyalılara böyük hörmət əlamətidir. İndi ziyalılarımız, həmin məktəblərdə və digər təhsil ocaqlarında dərs deyəcək müəllimlər gələcək nəsillərimizin savadlı, yüksək intellektual səviyyədə yetişməsi üçün əllərindən gələni əsirgəməyəcək.

### Ağdam hər zaman Prezidentin xüsusi diqqət mərkəzində olub

"May ayının 28-də Prezident İlham Əliyev Ağdamda müasir Azərbaycan bölgəsinin təməlini qoydu və inanırıq ki, tezliklə dünya Qarabağın möcüzəsinə şahidlik edəcək və ermənilərin necə vandal millət olduqları hər kəsə bəlli olacaq".

Bu fikri isə Ağdam şəhər Dövlət İqtisadi Kollecinin rəhbəri Natiq Cavadov söylədi. Onun sözlərinə görə, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər zaman Ağdama böyük diqqət və qayğı göstəriblər. Dəfələrlə Ağdam səfərlərində dövlət başçısı yeni-yeni müəssisələrin, ictimai-iaşə obyektlərinin açılışlarını edib, xeyir-duasını verib. Vətən müharibəsindən sonra ikinci dəfə Prezidentin Ağdama səfər etməsi və ilk Baş Planı təsdiqləməsi dövlət başçısının rayona və ağdamlılara münasibətinin real təcəssümüdür: "Böyük Zəfərdən sonra fəaliyyətimizin ikinci cəbhəsi açılıb. İşğaldan azad olunmuş ərazilərimizin bərpası prosesinə start verilib. Prezident İlham Əliyevin Böyük Qayıdış planına uyğun olaraq yeni-yeni infrastrukturlar qurulur, əhalinin tez bir zamanda öz doğma yurdlarında yaşamaları üçün şərait yaradılır. "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyası əsasında qurulan yeni kənd və şəhərlər müasir dünya standartları səviyyəsində olacaq.

Fəxr edirik ki, Prezidentimizin yeni qurduğu Ağdam ölkəmizin ən böyük şəhərlərindən birinə çevriləcək. Bu, bizim üçün qürur və fəxrdir. Həm 1 saylı məktəbin təməlinin qoyulması, həm də Ağdamda Qarabağ Universitetinin yaradılması dövlət başçısının təhsilə nə qədər böyük əhəmiyyət verdiyinin göstəricisidir. Onu da deyim ki, Prezident hər zaman Ağdama xüsusi diqqət göstərib. Bizlər də bütün dövrlərdə ölkə rəhbərinin siyasətinin bir nömrəli dəstəkçisi olmuşuq və bundan sonra da bu yolda yorulmadan çalışacağıq".

### "İlham Əliyevə ömür boyu alqış etməliyik"

70 yaşlı Ağdam sakini Rafiq Əliyev də çox sevinclidir. Ağsaqqal deyir ki, bəziləri Qarabağın nə zamansa azadlığına inanmadığı halda o, hər zaman Prezident İlham Əliyevə inanıb, güvənib və yaşı ötsə də, hər il zəfər gününü səbirsizliklə gözləyib. İndi fəxrlə, böyük sevinclə bu qələbədən ürəkdolusu danışır: "Hamı eyni fikri səsləndirir, hamı deyir ki, bu, böyük qələbədi, zəfərdi. Əlbəttə, bu, belədir. Amma bunu da diqqətdən kənarda qoymamalıyıq ki, İlham Əliyev necə bir tarixi qələbə qazanıb. Bu qələbədən ötrü İlham Əliyev illərlə siyasət aparıb, güc və ətrafına dost toplayıb. Zəfər elə-belə qazanılmayıb. Bu qələbə ilə İlham Əliyev həm də dünyaya sübut etdi ki, Azərbaycan dövlətinin sözü və gücü keçərlidir".

Rafiq Əliyevin sözlərinə görə, zaman dəyişəndə onunla ayaqlaşmaq zərurətə çevrilir. İndi zaman dəyişib və bu gün söz Azərbaycandadır. Azərbaycanın qüdrətli lideri sözünü deyir və öz xoşməramlı missiyasını davam etdirir: "Mayın 28-də İlham Əliyev Ağdama gələndə Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi "İmarət" kompleksində oldu. Göstəriş və tapşırıqlarını verdi. Bu da ermənilərə və dünyaya mesaj idi. Ali Baş Komandan bununla dedi ki, öz doğma yurduna qayıdan azərbaycanlılar Qarabağda yenidən hakimiyyətlərini bərpa edəcəklər. Bu bizim üçün böyük qürurdur. Qarabağı bizə qaytaran İlham Əliyevə eşq olsun! Bu xalq İlham Əliyevə ömür boyu minnətdar olmalı və alqış etməlidir".

Ağdamda söhbətləşdiyimiz hər kəs eyni fikirdə idi, ziyalısı da, sadə vətəndaşı da hesab edir ki, 44 günə Qarabağı azad edən İlham Əliyev tez bir zamanda bu torpaqlara yeni həyat verəcək, illərdir yurdundan didərgin düşən insanlar doğma el-obasına qayıdıb yenidən xoşbəxt günlərini yaşayacaqlar. Qarabağ yenidən Azərbaycanın dilbər güşəsinə çevriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ağdamın ağ günləri başlayır

## Hüseyn QARAŞOV: "Prezident İlham Əliyev "ruhlar şəhəri"ni möcüzələr diyarı edəcək"

"Sonuncu dəfə Ağdam şəhərini 1993-ü il iyunun 17-də görmüşdüm. Düz 28 il sonra ən böyük arzum, xəyalım gerçəkləşdi. Yenidən Ağdam şəhərinə ayaq basdım. Gördüyüm mənzərə dəhşətli idi. Yerlə-yeksan edilmiş, darmadağın olunmuş yurd yeri...

*Amma işğaldan azad olunandan sonra Ağdama ikinci dəfə səfər edən Prezident İlham Əliyevin təsdiqlədiyi Baş Planla tanış olanda fəxarət hissi yaşadım və əmin oldum ki, hər bir vədinə sadiq olan liderimiz doğma Ağdamı yenidən Qarabağın ən dilbər güşəsinə çevirəcək, əvvəlki şöhrətini özünə qaytaracaq".*



### "Çox qürurverici tarixi hadisəyə şahidlik etdim"

Ötən həftə Ağdam şəhərində gerçəkləşən tarixi hadisəyə şahidlik edənlərdən biri də Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, professor Hüseyn Qaraşovdur. İşğaldan azad olunandan sonra Ağdama ilk səfərinin və məhz belə bir tarixi hadisəyə şahidlik etməsinin təəssüratlarını bizimlə bölüşən Hüseyn Qaraşov ötən 28 il ərzində belə sevinc hissi yaşamadığını deyir. Onun sözlərinə görə, qalib sərkərdə kimi Ağdama növbəti səfərini edən Prezident İlham Əliyev Ağdamın Baş Planını rayonun ziyalıları və ictimaiyyət nümayəndələri yanında təsdiq edərək bir daha dünyaya nümayiş etdirdi ki, qüdrətli Azərbaycan dövləti düşmənin daşı daş üstündə qoymadığı şəhər və rayonları, qəsəbə və kəndləri tezliklə ən müasir standartlara uyğun yenidən quracaq:

"Çox qürurverici tarixi hadisəyə şahidlik etdim. Hər il bayramlarda niyyət edirdik ki, gələn bayramı Qarabağ torpağında qeyd edək. Artıq arzularımız, niyyətlərimiz gerçəkləşib və bu xoşbəxtliyi bizə qətiyyətli, mətin sərkərdəmiz, uzaqgörən Prezident İlham Əliyev yaşadır. Qarabağı 44 günə "Dəmir yumruq" əməliyyatı ilə düşmən tapdağından azad edən Ali Baş Komandan indi dəmir iradə ilə o torpaqlara yeni həyat verir, doğma el-obamızı cənnətə çevirir. Hər zaman dövlət başçısının siyasətinin dəstəkçisi olan ölkə ziyalıları, ağsaqqallar birmənalı şəkildə Prezidentə təşəkkür edir və xeyir-dualarını verirlər".

Hüseyn Qaraşov deyir ki, Respublika Günündə Ağdam ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə şəhərin Baş Planının təqdim edilməsi sözün əsl mənasında Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanmasının göstəricisidir. Professorun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərdə təsdiqlənən ilk Baş Planın uğurlu icrası Ağdamı dünyanın ən yaşıl və ən modern şəhərlərindən birinə çevirəcək. Reallaşacaq layihələrə gəlincə isə professor vurğuladı ki, Baş Planda nəzərdə tutulan bütün infrastrukturun yaradılmasından sonra Ağdam respublikada ərazisinə görə üçüncü böyük şəhər olacaq: "Prezident Ağdam ziyalıları qarşısında səmimi çıxış etdi. Bir daha bəlli oldu ki, bütün işlər öncədən Ağdam ictimaiyyətinin nümayəndələri ilə məsləhətləşdirilib və təsdiqlənmiş qaydada aparılır. Bu da dövlət başçısının sistemli, məqsədyönlü işinin və xalqının rəyinə hörmətinin əlamətidir. Baş Plan ilə tanışlıq göstərdi ki, şəhər tamamilə yenidən qurulacaq. Prezident də bildirdi ki, hazırlanan plan şəhərsalma prinsiplərinin müasir konsepsiyasıdır. Bu konsepsiya əsasında Ağdam yenidən qurulduqdan sonra dünya üçün nümunə olacaq. Plana əsasən Ağdam şəhərinin ərazisi iki dəfə böyüdüləcək, şəhərdə tramvay xətti çəkiləcək, bağlar, parklar salınacaq, təhsil müəssisələri, mədəniyyət ocaqları, muzeylər tikiləcək, sənaye parkı açılacaq. Bir sözlə, qısa müddətdə yeni, müasir Ağdam qurulacaq. Prezidentin söylədiyi kimi, elə bir Ağdam qurulacaq ki, bütün dünya üçün örnək olacaq. Beləliklə, Ağdamın ağ günləri başlayır. Prezident İlham Əliyev "ruhlar şəhəri"ni möcüzələr diyarına çevirir".

### Qalalar bərpa ediləcək, simvollar qorunacaq, Ağdam düşmənə gözdağı olacaq

H.Qaraşovun fikrincə, səfər zamanı yaşanan reallıqların, təməli qoyulan obyektlərin əksəriyyətinin ayrı-ayrılıqda rəmzi mənası var. Ağdam şəhərinin yenidən qurulmasına 140 illik tarixə malik 1 saylı məktəbdən başlanması gələcək nəsillərə ismarıc idi: "Prezident bununla göstərdi ki, qurub yaratdığı yeni Azərbaycanın, Qarabağın gələcəyini savadlı gənc nəslin etibarlı əllərinə təslim edirik. Bu məktəbdə gələcəyin mütəfəkkirləri, ziyalıları təhsil alacaq və Ağdamın yeni tarixini yazacaqlar".

Ağdamda Şahbulaq qalası da yenidən qurulacaq. XVIII əsrə aid bu qala Qarabağ ərazisindəki ən məşhur abidələrdən biridir. Ağdam şəhərinin 10 kilometrliyində, Şahbulaq kəndi yaxınlığında yerləşən qala 1751-1752-ci illərdə Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən inşa edilib.

Hüseyn Qaraşov deyir ki, qalanın yenidən qurulmasının rəmzi mənası var. Ağdam düşmənə yenə də gözdağı olacaqdır. Ağdamın ağ daşlarından istifadə etməklə beşmərtəbəli Ağ evin təməlinin qoyulması isə rayonun simvolu olacaq. Cənab Prezident Ağdamın köhnə simvollarının qorunması şərti ilə yeni müasir şəhər yaradır. Professorun sözlərinə görə, müharibədən çıxmış bir dövlətin qlobal pandemiya ilə mübarizə şəraitində, dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Ağdamda və işğaldan azad olunan digər ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarını reallaşdırması, şəhərlərin bərpasına start verilməsi ölkənin gücünü nümayiş etdirir.

Hüseyn Qaraşov deyir ki, bu tarixi mərasimdə iştirak edənlər bir daha dövlət başçısının torpağa, xalqa nə qədər bağlı olduğuna şahidlik etdilər. Prezidentin qətiyyətli çıxışı, düşmənə və onun havadarlarına ünvanladığı mesajlar isə hər kəsi fərəhləndirir: "Prezidentimizlə hər zaman qürur duymuşuq və bu gün fəxarətlə deyirik: nə yaxşı ki, İlham Əliyev kimi güclü, qətiyyətli liderimiz var. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən cənab İlham Əliyev 2003-cü ildən bugünədək dövlət başçısı kimi xalqının qarşısında verdiyi vədlərin hamısını icra edib, götürdüyü bütün öhdəlikləri ləyaqətlə yerinə yetirib. Prezident seçildiyi gündən işğal altında olan torpaqlarımızın azad olunacağını əminliklə deyirdi və bu yolda yorulmadan mücadilə etdi, bütün təzyiqlərə, çətinliklərə baxmayaraq, vədini sədaqətlə yerinə yetirdi. Mayın 28-də Ağdama səfəri zamanı söylədiyi fikirlər isə bir daha göstərdi ki, cənab İlham Əliyev Azərbaycanı növbəti böyük zəfərlərə və daha xoşbəxt gələcəyə aparır".

***R.BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

4 İyun Təcavüzə Məruz Qalmış Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

# Əmin-amanlıq bəşəriyyətin ən çox arzu etdiyi dəyərdir

## Təəssüf ki, son 10 ildə müharibə bölgələrində 2 milyona yaxın uşaq qətlə yetirilib

Tarixən uşaqlar heç də həmişə xoşbəxt olmayıblar. Bəzən ailədəki adi bir problemin üstündə yaradılan yersiz söz-söhbətlər və nəticədə qaçılmaz olan boşanmalar, bəzən də münaqişə və müharibələrin gətirdiyi bəlalar onların işıqlı dünyasını zülmətə çevirib.



Uşaqların müdafiəsi ilə bağlı qəbul edilən qərarlar isə bəzən uğurlu olmur. Beynəlxalq səviyyəli qərarlardan biri 1982-ci il 4 iyun tarixində Təcavüzə Məruz Qalmış Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar qəbul edilib.

Sülhün carçıları - gələcəyimiz olan uşaqlar daim açıq səma altında azad, əmin-amanlıq şəraitində, atalı-analı yaşamaq arzusunda olublar. Çox təəssüf ki, bu gün də dünyanın bəzi yerlərində münaqişələr davam etməkdə, torpaqlar qan çanağında boğulmaqda, günahsız uşaqlar isə odsaçan silahların qurbanlarına çevrilməkdədirlər.

Şükürlər olsun ki, 30 ilə yaxın müddətdə Azərbaycan ərazilərinin 20 faizdən çox hissəsini işğalda saxlayan Ermənistan ötən il 44 günlük Vətən müharibəsində xalqımızın və dövlətimizin gücünü real şəkildə hiss etdi. Şanlı Qələbə ilə ərazilərimiz işğaldan azad edildi. Müzəffər Ordumuz Ali Baş Komandanın əmri ilə ölüm-dirim savaşına atılaraq düşmənə layiqli cavab verdi, bölgəyə sülh gətirdi. Lakin çirkin niyyətli Ermənistanın xalqımıza, xüsusən də dinc vətəndaşlarımıza, o cümlədən körpə balalara və uşaqlara etdiyi təcavüz, terror heç vaxt yaddan çıxmayacaq. Bu münaqişədə minlərlə günahsız təcavüzün qurbanına çevrildi.

Uşaq qatilləri kimi tanınan daşnak erməni vandalları 4 iyul 2017-ci ildə Füzuli rayonunun Alxanlı kəndini hədəf seçərək orada dinc sakinləri iriçaplı pulemyotlardan atəşə tutdular. İki nəfər qətlə yetirildi, biri isə ağır yaralandı. Bu acı xəbərdən sonra tele-ekranlardan izlənilən bir şəkil ürəkləri dağladı, sinələri göynətdi: ikiyaşlı Zəhra nənəsi Sahibənin qucağında idi. Zəhranın şirin olduğu qədər də qısa ömrünün son dəqiqələrindən qalan yadigar isə onun bir tay başmağıdır. Yenicə ayaq açmağa başlayan körpə xain düşmənin gülləsinin qurbanı oldu.

### Fransız səyyah daşnakları olduğu kimi tanıdıb

Erməni daşnaklarının faşist xislətli olmalarını dünya xalqları da bilir. Fransız səyyah De Şole daşnakları belə ifadə edib: "Ermənilərin yoxsulluğunun və əzab-əziyyət çəkməsinin məndə onlara qarşı böyük rəhm yaratmasına baxmayaraq, haramzadəliyi, kələkbazlığı o dərəcədə iyrənc, alçaqlıqları o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, heç vaxt onlara bağlana bilmədim".

"Ermənilərin anası" adlandırılan Silva Kaputikyan ötən əsrin sonlarında öz qaragüruhçu kütləsi qarşısında çıxış edərək bir məsələni daha çox qabardırdı: "Sən türk öldürməkdən qürur duymalısan!"

Başqa bir şovinist Vazgen Arutunyan isə "türk öldürməyən erməni öz əli ilə özünü öldürsün" deyirdi. Zori Balayanın mənfur ideologiyanın təbliği olan "Ocaq" kitabı ilə erməniləri türklərə qarşı tükürpədici müharibəyə çağırması da danılmaz faktlardandır.

Qarabağda münaqişə başlayandan elə bölgə və kəndlərimiz olmadı ki, orada ilk şəhidlərimiz körpələr olmasın. Kəlbəcərin 8 məktəb yaşlı oğlan uşağının da 20 iyul 1989-cu il tarixdə qismətinə ilk şəhidlik payı düşdü...

...1992-ci ilin qışı Qarabağa, onun başıbəlalı Xocalısına qarlı-boranlı, qanlı-qadalı gəlmişdi. Xocalıdan gecə ikən canlarını qurtarmaq üçün qaçmağa çalışanların arasında uşaqlar da az deyildi. O müdhiş gecədən "sağ" çıxan, Respublika Təcili Yardım Xəstəxanasında müalicə olunan Xocalı uşaqlarından beşyaşlı Ramil Həsənov deyirdi ki, ermənilərin əlindən qaçıb bir neçə gün meşədə ac-susuz və yarıçılpaq qalıblar. Dörd yaşlı Vüsalə ilə bir yaşlı Xəyalənin anası Sənəm Abdullayevanın söylədikləri isə dəhşətli idi: "Bir gün meşədə qaldıqdan sonra ermənilər bizi tapıb Əsgərana gətirdilər. Anamı, atamı və 16 yaşlı bacımı meşədə güllələdilər. Mənə dəhşətli işgəncələr verdilər. Sonra bizi su doldurulmuş zirzəmiyə saldılar. Suda boğulmamaları üçün uşaqları bir gün qollarımda saxlamışdım..."

On aylıq Salatın Əhmədovanın anasının dediklərindən: "...Ermənilər atəş aça-aça meşəyə yaxınlaşırdı. Bir gün ac qalan dörd aylıq Salatınımı sinəmə sıxdım ki, murdarların əlinə keçməsin. Əllərimlə balamı boğdum..."

Cəmil Cümşüd oğlu Məmmədov o dəhşətli gecədə uşaqların çəkdiyi zülm-zillətdən söz aça bilmir, dodaqları titrəyirdi: "Beş yaşlı nəvəmi götürüb meşəyə qaçdım. Bir sutka qarın altında qaldıq. Körpənin donmaması üçün paltarlarımı soyunub uşağı bükmüşdüm. Artıq taqətim qalmamışdı. Özüm donurdum. Naxçıvanik kəndinə gedib çıxdıq. Dedim ki, məni öldürsünlər, amma nəvəmə rəhm etsinlər. Məni təhqir edib komendanta təhvil verdilər. O isə əmr verdi ki, bizi tövləyə salsınlar. 4 gün tövlədə qaldıq. Burada qız-gəlin, körpələr, uşaqlar o qədər idi ki, heç birini salamat buraxmadılar..."

### Ömürləri müharibəyə qurban edilənlər

Azərbaycana qarşı aparılan elan olunmamış müharibədə Ermənistan tərəfindən törədilən soyqırımı və beynəlxalq hüquq normalarına zidd digər cinayət əməlləri uşaqları da əhatə edib. Mülki insanların, o cümlədən uşaqların hədəfə alınması və qətlə yetirilməsi Ermənistanın yürütdüyü terrorçu dövlət siyasətinin tərkib hissəsidir. Münaqişə zamanı 193 azərbaycanlı uşaq ermənilər tərəfindən qətlə yetirilib, 71-i itkin düşüb, 29-u isə girovluqdadır. Təkcə Xocalı soyqırımı nəticəsində qətlə yetirilənlərin 76-sı uşaq olub. Bu amansız soyqırımı zamanı 155 uşaq bir və ya hər iki valideynini itirib. Ermənistan silahlıları tərəfindən 1992-ci il fevralın 17-də törədilən faciədə səkkizi məktəbli olmaqla, 91 nəfər dinc sakin qətlə yetirilib, 146 uşaq yetim qalıb. Hərbi təcavüz nəticəsində öz doğma torpaqlarından qovulan bir milyondan artıq sakinin 300 mindən çoxu uşaq idi. Bunlar uşaqlığı zorla əlindən alınanlar, ömürlərinin ən gözəl, qayğısız çağları müharibəyə qurban edilənlərdir.

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, təmas xəttinə yaxın ərazilərdə yaşayan mülki şəxslər, o cümlədən uşaqlar hələ də yaralanır və qətlə yetirilirdi. Təkcə son illərdə 34 uşaq erməni terrorunun qurbanına çevrilib. İki yaşlı Zəhra Quliyevanın, doqquz yaşlı Fariz Bədəlovun və daha neçə-neçə azyaşlının amansız qətli Ermənistanın uşaq qatili olduğunu bir daha təsdiqləyir.

### Gəncə terroru və uşaq qatilləri

Təcavüzkar Ermənistanın insan, xüsusilə uşaq qatili olması yalnız yuxarıda xatırladılanlar deyil. Ötən il daşnakların Azərbaycanın Tovuz, Gəncə, Bərdə, Tərtər, Mingəçevir şəhərlərini Ermənistan ərazisindən raket atəşinə tutması nəticəsində həlak olanların arasında da xeyli azyaşlı vardı. Gəncənin 5 dəfə raket atəşinə tutulması nəticəsində 3 azyaşlı həlak oldu, 2 uşaq isə itkin düşdü. Belə ki 2020-ci il oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərini ağır artilleriya silahlarından atəşə tutması nəticəsində 13 nəfər həlak oldu, 48 nəfər isə ağır yaralandı. Həlak olmuş şəxslərdən 6-sı kişi, 4-ü qadın, 3-ü azyaşlı, yaralanan 48 nəfərdən isə 23-ü kişi, 20-si qadın, 5-i uşaq idi.

İlk hücum 4 oktyabrda baş verdi və 1 mülki şəxsin - Əliyev Tunar Qoşqar oğlunun şəhid olması, 30-dan çox mülki şəxsin yaralanması ilə nəticələndi. Bu raket hücumu müharibənin getdiyi Dağlıq Qarabağ bölgəsindən kənara edilən ilk ciddi hücum idi. İkinci raket hücumu isə 5 oktyabrda baş verdi. Bu zaman 3 mülki şəxs yaralandı. Dördüncü raket hücumu isə 11 oktyabrda oldu ki, nəticədə 10 mülki şəxs şəhid oldu, 40-dan çox insan yaralandı. Mülki şəxsləri hədəf alan beşinci raket hücumu isə 17 oktyabrda baş verdi. Həmin hücum nəticəsində hamısı mülki şəxs olmaqla, 16 nəfər şəhid oldu, 55 nəfər isə yaralandı.

Ümumiyyətlə, Gəncədə Ermənistanın törətdiyi qanlı terror nəticəsində xeyli uşaq həm həlak oldu, həm də çoxu ata-anasını itirdi.

Dünyada son illər 2 milyondan çox uşaq döyüş bölgələrində məhv edilib, 4 milyon uşaq isə şikəstə çevrilib. 70-dən çox ölkədə aşkar edilən 60 milyondan artıq minanın da əsas qurbanları məhz uşaq və yeniyetmələrdir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 6 qazimiz sağalaraq vətənə dönüb

Ağır yaralanan və müalicə üçün "YAŞAT" Fondu tərəfindən Türkiyəyə göndərilən 6 qazimiz sağalaraq vətənə dönüb.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, onlar Quliyev Şahmar Anar oğlu, Əliyev Xəyyam Şəadət oğlu, Quliyev Şəhriyar Əsa oğlu, Eyvazov Səbuhi Rahim oğlu, Məmmədov Seymur Rafiq oğlu, Hüseynov Ülvi Məsum oğludur. Türkiyədəki müalicə proseduru artıq uğurla yekunlaşıb. Onların qarşıdakı aylarda müalicəsi üçün nəzərdə tutulan dərman vasitələri də fond tərəfindən təmin edilib.

"YAŞAT" Fondu tərəfindən 62 qazimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdirilir. "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq.

Allah qazilərimizə şəfa versin!

## Leyla Əliyevanın təşəbbüsü ilə RAGB silsilə xeyriyyə aksiyaları keçirib

Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə bu təşkilat Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə silsilə xeyriyyə aksiyaları keçirib.

AZƏRTAC xəbər verir ki, RAGB Moskva Şəhər Ailə və Uşaqlara Dəstək Mərkəzinin səyyar tədbirlərinin həmtəşkilatçısı olub, təbil çalmaq, rəqs və akvaqrimlər çəkilməsi üzrə ustad dərsləri keçirib. Uşaqlar "Yallı" rəqsini ifa edib, badminton və digər oyunlar üzrə məharətlərini göstəriblər.

Tədbirin sonunda bu müəssisədə tərbiyə alanları xoş bir sürpriz gözləyirdi: onları plova və şirniyyata qonaq ediblər. RAGB "Angeli sredi nas" ("Mələklər bizim aramızdadır") xeyriyyə fondu ilə birlikdə "Uşaqlıq - sən və mənik" adlı daha bir bayramın təşkilində iştirak edib. Bu bayramın qonaqlarını Radion Qazmanov, "Moonisha", Pyer Narsis, Karolina-Kristel və başqa artistlər təbrik ediblər.

Tədbirdə uşaqlar özləri də çıxış edib, "AIT" Uşaq Estrada Teatrının çıxışı tamaşaçıları sevindirib.

RAGB-nin Həştərxan, Rostov və Volqoqraddakı regional bölmələri həmin şəhərlərdə oxşar xeyriyyə aksiyaları təşkil ediblər.

## Şəhidin körpəsi dünyaya gəlib

Ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olan hərbi qulluqçularımızdan biri də Emin Mahmudovdur.



1994-cü il iyun ayının 1-də Tovuzun Abulbəyli kəndində anadan olan Emin Mahmudov 2012-2016-cı illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil almışdı. Baş leytenant kimi Hadrut qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə ötən il oktyabr ayının 11-də qəhrəmancasına həlak olmuşdur. Emin Mahmudov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Bu günlər şəhid Emin Mahmudovun övladı dünyaya gəlib. Tovuz Rayon Mərkəzi Xəstəxanasında dünyaya göz açan şəhidin qız övladı ictimaiyyət nümayəndələrinin müşayiəti ilə xəstəxanadan evə yola salınıb.

Şəhidin həyat yoldaşını təbrik edənlər vətənimizin azadlığı və ərazi bütövlüyünün təmin olunmasında şücaət göstərən şəhidlərlə, o cümlədən Emin Mahmudovla fəxr etdiklərini vurğulamışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## "YAŞAT" Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir

"YAŞAT" Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, şəhidlərimiz Rusif Kazımovun övladı Nuranyusifin, Xəqani Fətiyevin övladı Xəqaninin, Elvin Məmmədovun övladı Zəhraxanımın, İbrahim Rüstəmlinin övladı İbrahimin, Əlisahib Ələkbərovun övladı Əlisahibin zəruri xərcləri fond tərəfindən qarşılanıb.



Həmin məqsədlə 1000 AZN analara təqdim olunub və dünyaya yeni göz açan körpələrin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür.

Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 18 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər.

Allah şəhidlərimizə rəhmət etsin!

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid:

https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 "Çağrı Mərkəzi" fəaliyyət göstərir.

## Rusiya Mədəniyyət Fondu və Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyi uşaqlar üçün bayram tədbiri təşkil ediblər

Rusiya Mədəniyyət Fondu və Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyi Uşaqların Beynəlxalq Müdafiəsi Günündə uşaqlar üçün bayram tədbiri təşkil ediblər.



AZƏRTAC xəbər verir ki, Uşaqların Beynəlxalq Müdafiəsi Günündə Moskvadakı Rusiya Mədəniyyət Fondunda (RMF) uşaqlar üçün "Mı yedem, yedem, yedem... Ura - kanikulı!" adlı bayram səyahəti təşkil edilib.

RMF və Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyi bu bayramı "Bu gün - uşaqlar, sabah - xalq" layihəsi çərçivəsində təşkil ediblər. Tədbirin təşkilində "Lestnitsa" kinostudiyası, "Yunarmiya" Hərbi Vətənpərvərlik Tərbiyəsi Mərkəzi, habelə Moskva Musiqili Kadet Korpusunun "Deti kino" məktəb-studiyası da iştirak edib.

Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyinin humanitar proqramlarının rəhbəri, fəlsəfə elmləri doktoru Tamilla Əhmədova bildirib ki, artıq 71 ildir bütün dünyada yayın ilk günü Uşaqların Müdafiəsi Günü kimi qeyd edilir.

T.Əhmədova deyib: "Bu bayram bizə xatırladır ki, bizim balaca sakinlərimizin yaşamaq, təhsil almaq, müdafiə olunmaq hüququ var. Bir sözlə, onların xoşbəxt olmaq hüququ var! Bugünkü uşaqlar sabah ölkələrin, planetimizin, bütün bəşəriyyətin taleyini həll edəcəklər! Bugünkü görüşümüz "Bu gün - uşaqlar, sabah - xalq" şüarı altında keçirilir. Bu gün dünya yaşlı nəslə mənsubdur. Nə yaxşı ki, bu bayram günündə biz bütün problemlərimizi bir kənara qoyaraq ən başlıca vəzifəmizi yerinə yetirə - uşaqlarımızı dinləyə bilirik. Axı biz Yer kürəsini onlara miras qoymalıyıq. Uşaqlar planetimizin sabahıdır".

Tamilla Əhmədova vurğulayıb ki, uşaqların problemləri heç vaxt Heydər Əliyev Fondunun diqqətindən kənarda qalmır. Bu, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi fondun fəaliyyətinin əsas istiqamətlərindən biridir.

T.Əhmədova daha sonra deyib: "Fondun vitse-prezidenti və onun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leylam xanım Əliyeva bütün ölkələrdə uşaqlara kömək etməyə, onların həyatını daha parlaq, daha xoşbəxt etməyə yönəlmiş layihələri həmişə dəstəkləyir. Biz səmimi-qəlbdən ümid edirik ki, Rusiya Mədəniyyət Fondunun və Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin bu ilk birgə təşəbbüsü sonuncu olmayacaq. Rusiya və Azərbaycan həmişə mehriban qonşular, siyasət, iqtisadiyyat, elm və mədəniyyət sahələrində tərəfdaşlar olublar və yenə belədir. Sevindirici haldır ki, ölkələrimizin və xalqlarımızın övladları dövlətin və cəmiyyətin etibarlı müdafiəsi, bir-birinə qarşılıqlı hörmət şəraitində böyüyürlər. Ən möhkəm və ən səmimi dostluq münasibətləri məhz uşaqlıq dövründə yaranır. Ona görə də biz "Bu gün - uşaqlar, sabah - xalq" deyiriksə, tamamilə haqlı olaraq "Bu gün - uşaqların dostluğu, sabah - xalqlar arasında dostluq" deyə bilərik.

"Kinolestnitsa" yaradıcılıq birliyinin prodüseri Nina Komarova belə bir məqama diqqəti cəlb edib ki, Sergey Mixalkov adına Rusiya Mədəniyyət Fondu və Azərbaycanın Heydər Əliyev Fondunun Moskvadakı nümayəndəliyi bu tədbiri birgə təşkil ediblər. O deyib: "Biz bu tədbiri keçirməklə gələcək səmərəli əməkdaşlığın təməlini qoyuruq. Bu gün biz necə istedadlı uşaqlar olduğunu gördük. Moskvadakı Qara Qarayev adına Musiqi Məktəbinin şagirdi, pianoçu Yeliseyin ifası bizə xüsusilə güclü təsir bağışladı. Onu bu tədbirə Heydər Əliyev Fondunun nümayəndəliyi dəvət edib".

İyunun 1-də Rusiya Mədəniyyət Fondunun qonaqları 7-12 yaşlı uşaqlar idi. Tədbirin təşkilatçıları uşaqlar üçün "Dostluq qatarı"nda bayram səyahəti, gənc istedadların ifasında musiqili nömrələr hazırlamışdılar.

# KƏNDİMİZ

## "Ağıllı kənd" təkcə müasir aqrar sektor məkanı deyil

### Bu cür kəndlər həm də şəhərlərə axının qarşısını alacaq

**44 günlük Vətən müharibəsi zəfərlə başa çatsa da, onun vurduğu yaralar hələ sağalmayıb. Dövlətimiz 30 ildə düşmən tərəfindən viran edilmiş ərazilərimizdə geniş bərpa-quruculuq işləri aparmağa qərar verib. Bu səbəbdən də döyüşlər başa çatandan sonra Prezident İlham Əliyevin göstərişi ilə kommunikasiyaların və digər infrastrukturun bərpasına başlanıldı.**



Artıq Şuşaya və digər ərazilərə enerjinin verilməsi bərpa edilib. Yeni yollar çəkilir. Bununla yanaşı, həmin ərazilərdə 3 hava limanının tikilməsinə qərar verilib. Hazırda Füzuli Hava Limanında tikinti işləri sürətlə həyata keçirilir, dəmir yolu xətlərinin çəkilməsi üçün hazırlıq işləri görülür. Kəlbəcər və digər rayonlarda mövcud olan, lakin ermənilər tərəfindən dağıdılan su elektrik stansiyaları bərpa olunur.

Dövlət başçısının əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin müasir texnologiyalardan istifadə olunmaqla aparılmasıdır. Həmçinin bölgədə ekoloji cəhətdən təmiz Günəş və külək enerjisindən istifadə olunması barədə də qərar qəbul edilib.

Sözsüz ki, görülən bütün işlərin başlıca məqsədi həmin ərazilərdə yaşayacaq insanların rahatlığının təmin edilməsidir. Bu məqsədlə işğaldan azad olunmuş ərazilərdə "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələrinin icrasına üstünlük veriləcək.

Məlum olduğu kimi, ilk belə layihənin təməli işğaldan azad edilmiş Zəngilan rayonunda qoyulub. Aprelin 26-da Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulan "Ağıllı kənd" layihəsində Türkiyə, İsrail, İtaliya və Çinin qabaqcıl şirkətləri iştirak edirlər. AZƏRTAC-ın bu barədə yaydığı məqalədə "Ağıllı kənd" konsepsiyasının üstünlükləri barədə qeydlər təqdim edilir.

Bütün dünyada "Ağıllı kənd" layihələrinin həyata keçirilməsində əsas məqsəd kənddən şəhərə axının qarşısını almaqdır. Yeni kənd yerlərində insanlara elə şərait yaradılmalıdır ki, əhalinin şəhərdə əldə edə biləcəyi bütün xidmətlərə kəndlərdə də rahat çıxış olsun. Eyni zamanda insanlara kənddə daha çox gəlir əldə etmək və məşğulluq imkanı yaradılmalıdır. Üçüncü məqam isə kənd sakinlərinin dövlət xidmətlərinə çıxışının təmin olunması üçün lazımi şəraitin yaradılmasıdır. Beləliklə, "Ağıllı kənd" konsepsiyasında xidmət, qazanc və dövlət xidmətlərindən yararlanmaq baxımından kənd və şəhər fərqi faktiki olaraq aradan qalxmış olur.

Kənd təsərrüfatı naziri İnam Kərimovun aprelin 26-da Zəngilan rayonunun Ağalı kəndində etdiyi təqdimatdan aydın olur ki, birinci "Ağıllı kənd" pilot layihəsi əsasən 5 komponent üzrə icra ediləcək. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə əvvəlcə tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə edilməklə 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də "ağıllı" texnologiyalar əsasında qurulacaq. Həmin kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri və turizm infrastrukturu formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesində alternativ enerji mənbələrindən istifadə olunacaq.

"Ağıllı kənd təsərrüfatı" özündə kooperativ idarəetmə sistemini, müasir texnologiyalar əsasında qurulmuş tarla, bağ və fermaları, dronlar vasitəsilə idarəetmə və nəzarəti ehtiva edir. "Ağıllı" təsərrüfatlar kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa geniş imkan yaradacaq.

"Ağıllı kənd" təkcə kənd təsərrüfatı ilə bağlı deyil. Müasir şəhərsalma standartlarının tətbiqi, küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, su elektrik stansiyalarının, günəş paneli stansiyalarının quraşdırılması, bioqaz enerjisindən istifadə kimi amillər bu konsepsiyanın əsas komponentləri sırasındadır. Bütün yaşayış evlərinin, sosial obyektlərin, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesinin alternativ enerji mənbələri ilə təmin edilməsi "Ağıllı kənd"in nə dərəcədə üstünlüklərə malik olduğunu göstərir. Odur ki, Prezidentin azad edilmiş ərazilərdə kəndlərin "Ağıllı kənd" konsepsiyası əsasında qurulması təşəbbüsü ölkənin həm daxilində, həm də xaricində müsbət qarşılanır.

"Ağıllı kənd" layihəsi fermerin gəlirlərinə, həyat tərzinə necə müsbət təsir göstərəcək? Bu gün dünyada kənd təsərrüfatında əl əməyindən istifadə minimuma enib, aqrar sektorda daha çox yeni texnologiyalardan istifadə olunur. Sahələrin dərmanlanması dronlar vasitəsilə həyata keçirilir, məhsul yığımı kompüterləşdirilmiş texnikalar vasitəsilə aparılır, su resurslarından qənaətlə istifadə üçün müasir suvarma sistemlərindən istifadə edilir. Bütün bu proseslər bir mərkəzdən idarə edilir, texnologiyaların tətbiqi resurslara qənaət etməyə, xərcləri optimallaşdırmağa, gəlirləri artırmağa imkan verir. "Ağıllı kənd" layihəsi bərpa olunacaq kəndlərimizə qayıdacaq insanların həyat şəraitinin yaxşılaşmasında, aqrar sahə ilə məşğul olacaq fermerlərimizin "ağıllı kənd təsərrüfatı" sisteminə inteqrasiyası və daha çox gəlir əldə etməsində mühüm rol oynayacaq.

"Ağıllı kənd" konsepsiyasına əsasən prosesin elektronlaşdırılması istehsal imkanlarını gücləndirir. "Ağıllı kənd" suvarma sistemindən tutmuş torpağın əkilib-becərilməsinə, məhsulun toplanmasına kimi avtomatlaşdırılmış, bir mərkəzdən idarə olunan bir sistemdir, həm də ən qabaqcıl texnologiyalar və texnotransferlərin tətbiqini nəzərdə tutur. Bu sistemin kənd infrastrukturunun digər sahələrinə - alternativ enerji mənbələrinə və müasir nəqliyyat sisteminə inteqrasiyası "Ağıllı kənd"in konsepsiyasını tamamlayacaq.

Yüksək texnologiyaların inkişafı və aqrar sahədə bu cür həllərin reallaşması "Ağıllı kənd" layihəsini Azərbaycanda da gündəmə gətirib. Prezident İlham Əliyevin təşəbbüsü ilə bu layihənin işğaldan azad olunmuş ərazilərdə tətbiqinə start verilməsi Böyük Qayıdış proqramının icrasında davamlı səmərəli nəticələrə gətirib çıxaracaq.

Vurğulayaq ki, Prezident İlham Əliyev həmişə yüksək texnologiyaların tətbiqinə üstünlük verir. Dövlət başçısının bu təşəbbüsü beynəlxalq təşkilatlar tərəfindən də müsbət qarşılanır. Davos Ümumdünya İqtisadi Forumunda bu məsələ Prezident İlham Əliyevlə müzakirə edilmişdir. Dövlət başçısının işğaldan azad edilən əraziləri cənnətə çevirəcəyi barədə verdiyi bəyanatlar artıq "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyası ilə bərpa-quruculuq işlərində bir daha təsdiqini tapır. Qarşıda Böyük Qayıdış proqramının icrası dayanır. Beləliklə, bu qayıdış işğaldan azad edilmiş torpaqlara, əslində isə cənnətə çevrilmiş yerlərə olacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## İmişlidə kümçülər ilkin mərhələdə 200 kiloqram yaş barama təhvil veriblər

İmişlidən olan kümçülər artıq barama tədarükünə başlayıblar. İkin mərhələdə baramaçılar tərəfindən 200 kiloqram məhsul toplanaraq təhvil verilib. Rayon üzrə 10 ton məhsul tədarükü proqnozlaşdırılır.

AZƏRTAC xəbər verir ki, bir neçə gündür İmişli rayonunda barama tədarükünə başlanılıb. Ötən illər ərzində baramaçılıq üzrə təcrübə toplayan kümçülər bu il də ənənəyə sadiq qalaraq yüksək məhsul əldə etmək əzmindədirlər.

Rayonun Muradallı kənd sakini Rahilə Baxışova söyləyir ki, toxumların pulsuz olaraq yerlərdə kümçülərə çatdırılması, eyni zamanda, məhsulun təhvil alınması baramaçılığa olan marağı artırır. Baramaçılıq gəlirli sahə olduğu üçün müsahibimiz ilk dəfə olaraq 25 qram toxum götürərək bəsləməyi qərara alıb. Nəticə isə yüksəkdir. Artıq qurdlar pup sarıma dövründədir. Kümçü Rahilə xanım 25 qram toxumdan 70 kiloqrama qədər məhsul toplamağı düşünür.

İmişli Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Səlim Məhərrəmovun verdiyi məlumata görə, 2020-ci ildə rayon üzrə 113 kümçüyə 420 qutu olmaqla, 7 kiloqram 980 qram toxum paylanılıb. Ötən il bəzi çətinliklər olduğu üçün 7 ton 728 kiloqram məhsul tədarük olunmuşdu. Cari ildə isə 134 kümçüyə 250 qutu olmaqla, 4 kiloqram 750 qram toxum paylanılıb. Hədəf 10 ton məhsul tədarük etməkdir. Artıq rayon üzrə 200 kiloqram məhsul toplanılaraq təhvil verilib.

## Ağdaşda 650 hektar sahədə çəltik əkini nəzərdə tutulur

**Ağdaş rayonunda torpaq mülkiyyətçiləri çəltik əkinini sürətlə davam etdirilər və artıq 520 hektarda əkin aparılıb.**



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, çəltikçilik rayonda ənənəvi təsərrüfat sahələrindəndir. Yerli düyüyə olan tələbat əkinçiləri sahələri ildən-ilə artırmağa həvəsləndirir. Ötən il 615 hektarda əkin aparan və 1924,1 ton məhsul götürən ailə fermer təsərrüfatlarının və fiziki şəxslərin cari mövsümdə sahələri genişləndirərək 650 hektara çatdıracaqları gözlənilir.

Çəltikçilik rayonun əsasən Hapıtlı, Orta Ləki, Yuxarı Nemətabad, Pirkəkə, Qaradağlı və Kotavan ərazi nümayəndəliklərində geniş yayılıb. Hazırda hər yerdə əkinin vaxtında, aqrotexniki tələblər səviyyəsində başa çatdırılması üçün ciddi səy göstərilir. Bu kampaniya, həm də mütəxəssislərin nəzarəti altında aparılır.

## Taxıl biçini sürətlənir



**Azərbaycanda taxıl biçini mövsümünə start verilib. Bu il ölkədə 986685 hektar sahədə payızlıq taxıl əkini aparılıb. Əkin sahələrinin 611967,3 hektarını buğda, 374717 hektarını isə arpa sahələri təşkil edir.**

Kənd Təsərrüfatı Nazirliyinin yayıdğı məlumatda bildilir ki, Azərbaycanın 27 rayonunda arpa biçini davam edir. İyunun 1-nə olan operativ məlumata görə, artıq 19666 hektar sahədə biçin aparılıb. Sahələrdən indiyədək 54600 ton məhsul yığılıb. Biçinin start mərhələsində arpa üzrə orta məhsuldarlıq 27,8 sentner təşkil edir. Ən çox biçin ənənəvi olaraq mövsümə ilk start verən Neftçala rayonunda aparılıb - 8045 hektar. Biləsuvar, Saatlı, Sabirabad və Cəlilabad rayonlarında biçin aparılmış sahə min hektardan artıqdır.

Aran rayonlarında arpa biçininin optimal müddətdə başa çatacağı gözlənilir. İyunun ikinci ongünlüyündə isə bu bölgələrdə buğda biçininə start veriləcək.

İyunun 1-nə olan operativ məlumata görə, biçin prosesinə 856 taxılbiçən kombayn cəlb olunub. Aktiv biçin prosesində "Aqroservis" ASC-nin yerli bölmələrinin 289, fiziki və hüquqi şəxslərin isə 429 kombaynı iştirak edir. Bundan başqa, "Aqroservis" ASC tərəfindən biçin gedən rayonlara hazırda biçin aparılmayan dağətəyi və dağlıq ərazilərdə yerləşən bölmələrdən əlavə olaraq 138 kombayn dislokasiya olunub. "Aqroservis" ASC-nin kombaynları vasitəsilə 9409 hektar, fiziki və hüquqi şəxslərin mülkiyyətində olan kombaynlar vasitəsilə isə 10257,4 hektar sahədə biçin aparılıb.

Qeyd edək ki, "Aqroservis" ASC-nin kombaynları sahəsi 50 hektaradək olan kiçik və orta təsərrüfatlarda biçin aparır. Bu il taxıl sahələrinin 78 faizi məhz kiçik təsərrüfatların payına düşür. Biçin prosesi növbəlilik prinsipi əsasında aparılır. Növbəlilik sistemi biçinə hazırlıq dövründə yerlərdə icra nümayəndələri və bələdiyyələr tərəfindən müəyyənləşdirilib, sistemə nəzarət isə Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən həyata keçirilir.

2021-ci ildə taxıl biçini ərəfəsində "Aqroservis" ASC-nin rayon bölmələrində 650, təchizat bazalarında isə 135 taxılbiçən kombayn var. Kombaynların hamısı biçinə hazır vəziyyətdədir. Bundan başqa, biçin prosesində fiziki və hüquqi şəxslərə məxsus 1000-dən artıq kombaynın iştirakı gözlənilir. Rayonların kombaynlara olan tələbatının əvvəldən müəyyən edilməsi, texnikaların biçindən əvvəl tələbata uyğun olaraq rayonlarda dislokasiya olunması, "Aqroservis" ASC tərəfindən sosial biçin siyasətinin həyata keçirilməsi (ilk növbədə 50 hektaradək sahələrdə biçin aparılacaq) ötən illərdə olduğu kimi bu il də biçin prosesində texnika ilə təminatda probem olmayacağını söyləməyə əsas verir.

Taxıl biçini davam edir.



**Sahə aqronomu Elçin Babayevlə Neftçala rayonunun Aşağı Surra kənd sakini, pambıqçı fermer Taleh Rzayevin tarlasına baş çəkməyə gedirik. Günəşə doğru baş qaldıran cərgələnmiş pambıq kollarının göz oxşadığı sahələr bir-birini əvəz edir.**

## Pambığın birinci kompleks becərilməsi başa çatmaq üzrədir

### Neftçala MKT bu il daha çox pambıq istehsal etməyi proqnozlaşdırıb

Maşının pəncərəsindən seyr etdiyimiz bu cərgələr vərəq üzərində yazılmış misraları xatırladır. Düşünürük ki, kəndli, əkinçi əməyinin özü də yaradıcı işdir. İnsan, cəmiyyət bir müddət şeir, ya roman oxumasa (indinin özündəki kimi), yaşaya bilər, lakin yemədən, qidalanmadan, abır-ismət bildiyimiz paltarsız yaşamaq mümkün deyil.

E.Babayev:

- Qarşıda görünən sahə Talehindir. Traktor da cərgələr arasına kultivator çəkir. Bu lap yaxşı oldu.

Sahəyə bir az da yaxınlaşmışdıq ki, günəşin təsirindən sifətinin dərisi tunc rəngi almış bir nəfərin bizə doğru gəldiyini görürük.

- Fermer budur?, - deyə soruşuram.

E.Babayevin cavabından məlum olur ki, bu, onların sahə rəisi Əfsər Əhmədovdur.

Maşından düşüb onunla görüşür, hal-əhvaldan sonra işlərin gedişi ilə maraqlanırıq:

- Hələlik pis getmir. Birinci kompleks becərməni, inşallah, başa çatdırmaq üzrəyik. Fermer Taleh Rzayev işlə əlaqədar 2-3 saatlığa getdi ki, yonca əkdiyi sahələrin suyuna baxıb gəlsin. Sahələrin becərilməsinə biz də cavabdehik. Çünki vəsaiti fermerlərə, mülkiyyətçilərə şirkətimiz verir. Onları texnika, mineral gübrələr və s. ilə də biz təmin edirik. Vegetasiya dövründə hər gün sahibkarların yanındayıq. Becərmə zamanı yol veriləbiləcək nöqsana görə biz onlardan da çox məsuliyyət daşıyırıq. MKT şirkəti, hələ filialın direktoru Bahəddin Leysanov qarşımıza belə bir vəzifə qoyub.

Sahə rəisi və sahə aqronomu ilə söhbətdən məlum olur ki, cari təsərrüfat ilinin məhsulu üçün filial üzrə bütün aqrotexniki tədbirlər vaxtında həyata keçirilib. Şum, mala, əkin, becərmə işlərinin gedişində fermerlər heç bir çətinliklə qarşılaşmırlar. Əkindən tutmuş pambığın son qozasının yığılmasınacan mütəxəssislər onların yanındadır. Mülkiyyətçilərə qardaş Türkiyədən gətirilən "Bəyaz altun" çiyid toxumu, çiyidlə birlikdə torpağa vermək üçün amafos, becərmədə istifadə olunan karbamid və azot gübrələri, ziyanvericilərlə mübarizə üçün preparatlar vaxtında çatdırılır. Bu il yazın əvvəli nisbətən sərin keçdiyindən bitkilərdə tripis və mənənə xəstəlikləri baş qaldırmışdır. Bunun üçün hazırda üzərinə dərmansəpən aqreqatlar quraşdırılmış traktorlar sahələrdə işləyir.

Tarlanın o biri başından gələn kultivator bizə yaxınlaşır. Sahə aqronomu əli ilə ona dayanmaq işarəsi verir. Mexanizator Rüstəm Babayev kabinədən düşüb bizimlə görüşür. İşlərinin necə getdiyini soruşuruq.

- Lap yaxşıdır. Çalışıram ki, fermerlər, əsasən də bizim bu tələbkar sahə rəisimiz, aqronomumuz işimdən narazı qalmasınlar. Hər gün 5 hektara kultivasiya çəkirəm. İstəsəm, bunu 8-9 hektara da çatdıra bilərəm. Lakin onda keyfiyyət olmaz. Gərək elə edəsən ki, bitkilər zədələnməsin, torpaq altında qalmasın.

Üzərinə "Çansa" sözü yazılmış kultivator qurğusunun necə işləməsini soruşduqda çox razılıq edir. Sovetlər zamanında da kultivator işlətdiyini, lakin qardaş Türkiyənin istehsal etdiyi bu texnikanın yanında onun çox-çox aşağı keyfiyyətli olduğunu söyləyir.

Qeyd edək ki, Aşağı Surra kəndində 2 min 950 hektar əkin sahəsi var və cari il bunun 382 hektarında pambıq əkilmişdir. Keçən il isə əkilən 355 hektar sahənin hər hektarından 48 sentner məhsul əldə edilmişdir. Mülkiyyətçilərdən Elşən Mehdiyev, Elşad Tağıyev, Fuad Abdıyev, Şəmsi Ələkbərov, Elçin Babayev isə daha çox - hektardan 50-70 sentner arasında məhsul götürmüşlər. Ümumiyyətlə, müəssisə üzrə məhsuldarlıq keçən il 39,8 sentner, mahlıc çıxımı 43,7 faiz, əldə edilən xalis gəlir 75 milyon manat olmuşdur.

Bu il isə filial üzrə 1135 nəfər fermerlə 4 min 860 hektar sahədə pambıq yetişdirmək üçün müqavilə bağlanmışdır. Hazırda sahələrdə birinci kompleks becərmə başa çatmaq üzrədir. 50-dən çox kultivator gün çıxandan gün batana kimi cərgələr arasını yumşaldır, sahələrə gübrə verir. Fermerlər birinci suyu verməyə hazırlaşırlar. Xoşbəxtlikdən Kür çayında su getdikcə artır. İstilər də öz yerində. Deməli, bu il də pambıq bol olacaq.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Ağstafa balının dadı və rəngi fərqli olur

### Rayonda bu gəlirli sahə ilə məşğul olanların sayı 400 nəfərdən çoxdur

Arıçılığa maraq Ağstafada ildən-ilə artır. Xüsusilə son illər arıçılıq məhsullarına olan tələbatın və bu sahəyə olan dövlət dəstəyinin artması rayon sakinləri arasında bu sahəyə üz tutanların sayını çoxaltmışdır. Ağstafanın iqlim şəraiti də arıçılığın inkişafı üçün geniş imkanlar açır. Bu imkandan maksimum yararlanmağa çalışan arıçılar hər il yüksək göstəricilərə nail olurlar.



Hazırda rayonda arıçılıqla 416 nəfər məşğul olur. Keçən il hər arı ailəsindən 10 kiloqram bal götürən təsərrüfat sahibləri cari il bu rəqəmin xeyli çox olacağını söyləyirlər. Ağstafa Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Ramiz İmanov deyir ki, Ağstafa balı həm dadı, həm də rənginə görə fərqli olur. Məhz bunun nəticəsidir ki, Ağstafada istehsal olunan bal yerdə qalmır, bazara çıxarılan kimi alınır.

Muğanlı kəndinin sakini Muradxan Bayramovun həyətyanı sahəsində 119 arı ailəsi var. Keçən il bir tondan çox bal götürən Muradxan deyir ki, bu il havalar arıçılıq üçün əlverişli keçir. Odur ki, cari ildə daha çox arı məhsulları istehsal edəcəyinə əmindir.

Ümumiyyətlə, Ağstafa rayonunda elə bir kənd yoxdur ki, orada arı saxlayan olmasın. Sadıqlı, Muğanlı, Köçəsgər, Dağ Kəsəmən və digər kəndlərdə hər il tonlarla bal istehsal olunur. Muradxanlı kəndində də arıçıların sayı çoxdur. Onlardan biri Murad Vəliyevdir. O, istehsal etdiyi balın bir hissəsini elə qapısında, bir hissəsini isə Bakıda keçirilən bal yarmarkasında satır. Deyir ki, hər il həmin yarmarkaya 100 kiloqramdan çox arıçılıq məhsulları çıxarır.

Sadıqlı kəndinin sakini Nizami İsgəndərov da arıçılığa böyük maraq göstərir. Keçənilki qazancından razlıq edən arıçı hazırda arı ailələrinin sayını 84-dən 105-ə çatdırmışdır. Qarahəsənli kəndində də arı saxlayan təsərrüfat sahibləri çoxdur. Digər təsərrüfat işləri ilə yanaşı, 35 arı ailəsinə baxan Elşad Mirzəyev bildirir ki, keçən il hər arı ailəsindən 15 kiloqram bal götürüb. Builki hədəfi isə 17 kiloqramdır.

Düzqışlaq kəndinin ərazisi də arıçılıq üçün əlverişlidir. Kənd sakini Adil Mehdiyev bu əlverişli şəraitdən istifadə etməklə daha məhsuldar arı cinsi yetişdirməyi qarşısına məqsəd qoyub. Odur ki, arıçılıqla bağlı ədəbiyyat oxumaqla yanaşı, təcrübəli arıçılardan da öyrənir. Bir neçə dəfə arıçılıqla bağlı keçirilən təkmilləşdirmə kurslarında iştirak edən Adil qazandığı təcrübəni gənc arıçılarla da bölüşür.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Rusiyaya 30 min tona yaxın kartof ixrac olunub

**Cəlilabad rayonunda açıq sahədə yetişdirilmiş kartofun yığımı davam edir.**

AZƏRTAC xəbər verir ki, ölkəmizin cənub bölgəsində ən böyük kartof istehsalçısı olan Cəlilabad rayonunda sahələrdən yığılan faraş məhsul yerli bazarlarla yanaşı, xarici ölkələrə də ixrac edilir. Cəlilabad Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən verilən məlumata əsasən, bu il rayonda 5 min 400 hektarda kartof əkilib. Rayonun kartof sahələrindən indiyədək 42 min 68 ton məhsul yığılıb.

Kartofun bir kiloqramını yerində 45 qəpiyə satan fermerlər, yetişdirilmiş məhsulu yerli bazarlarda satmaqla yanaşı, xarici ölkələrə də ixrac edirlər. İndiyədək Rusiya bazarlarına 30 min tona yaxın Cəlilabad kartofu ixrac olunub.

Qeyd edək ki, ötən il Cəlilabadda 5300 hektardan çox sahədə kartof əkilib, sahələrdən 140 min 660 ton məhsul yığılıb. Orta hesabla hər hektarda məhsuldarlıq 26 sentner təşkil edib.

# Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti Ermənistan mətbuatında yer alan əsassız fikirlərlə bağlı birgə məlumat yayıb

İyunun 2-də Ermənistan mətbuatında həmin ölkənin morqlarında saxlanılan meyitlərdən bəzilərinin Azərbaycanın hərbi qulluqçularına aid olması ehtimalı barədə həqiqətə uyğun olmayan fikirlər səsləndirilib.

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, Ermənistan Səhiyyə Nazirliyinin tabeliyində olan morqlarda saxlanılan və kimlikləri məlum olmayan meyitlərin içərisində Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyətinə aid hərbi qulluqçu yoxdur. Belə ki, Ermənistan hüquq mühafizə orqanları tərəfindən təyin edilmiş məhkəmə-genetik ekspertizasının (DNT testi) rəyi ilə həmin meyitlərin erməni hərbçilərə məxsus olması müəyyənləşdirilib.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq doğmalarına təhvil verilməsi istiqamətində Azərbaycan Respublikası Baş Prokurorluğunun, Respublika Hərbi Prokurorluğunun, Dövlət Təhlükəsizliyi Xidmətinin, Müdafiə və Fövqəladə Hallar nazirliklərinin peşəkar əməkdaşlarından ibarət axtarış qrupları tərəfindən intensiv iş aparılır.

# İtkin düşmüş daha iki hərbi qulluqçumuzun meyitləri aidiyyəti üzrə təhvil verilib

Həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Vətən müharibəsində itkin düşmüş daha iki hərbi qulluqçunun şəxsiyyəti müəyyənləşdirilərək meyitlərinin aidiyyəti üzrə verilməsi təmin olunub.

Bu barədə AZƏRTAC-a Hərbi Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin ölkəmizə qarşı növbəti hərbi təxribatlarının qarşısının alınması, respublikamızın ərazi bütövlüyünün təmin edilməsi məqsədilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən əks-hücum əməliyyatlarına başlanıb və Vətən müharibəsi 2020-ci il noyabrın 10-da düşmənin tam kapitulyasiyası, Azərbaycanın hərbi-siyasi tarixi Qələbəsi ilə nəticələnib.

2020-ci il noyabrın 10-da üçtərəfli bəyanat imzalandıqdan sonra Azərbaycan Respublikası Silahlı Qüvvələrinin itkin düşmüş hərbi qulluqçularının tapılaraq doğmalarına təhvil verilməsi istiqamətində intensiv əməliyyat-istintaq hərəkətləri həyata keçirilib. Həmin xüsusat Azərbaycan Respublikası Baş Prokurorluğunun və Respublika Hərbi Prokurorluğunun rəhbərliyi tərəfindən nəzarətə götürülüb. Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları ilə birgə həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində, Müdafiə və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət axtarış qrupları itkin düşmüş hərbi qulluqçularımızın axtarılaraq tapılması istiqamətində müntəzəm iş aparıblar.

İtkin düşmüş daha iki hərbi qulluqçunun - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Mustafayev Elvin Fəxrəddin oğlu və əsgər Yusubov Orxan Allahverdi oğlunun şəxsiyyətləri birgə həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində müəyyənləşdirilərək meyitləri aidiyyəti üzrə verilib.

İtkin düşmüş digər hərbi qulluqçuların olduqları yerlərin müəyyənləşdirilməsi məqsədilə istintaq-əməliyyat tədbirlərinin icrası davam etdirilir, eləcə də axtarış qrupları tərəfindən hazırda intensiv işlər aparılır.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Energetika Nazirliyi BP ilə Zəngilan-Cəbrayıl zonasında günəş enerjisi layihəsi üzrə əməkdaşlığa başlayır

İyunun 3-də Azərbaycan Respublikasının Energetika Nazirliyi və BP Zəngilan-Cəbrayıl zonasında 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair icra müqaviləsi imzalayıblar.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, bu sənəd işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması, Azərbaycanın bərpaolunan enerji sektorunun inkişafı ilə bağlı strateji qərarı və 2030-cu ilədək karbon qazı emissiyalarını 35 faizədək azaltmaq öhdəliyinin, BP-nin isə 2050-ci ilədək "xalis sıfır emissiya"lı şirkətə çevrilmək strategiyasının icrası çərçivəsində imzalanıb.

Energetika naziri Pərviz Şahbazov deyib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi müasir inkişaf kursunda Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi mühüm yer tutur. Bu vəzifənin Azərbaycanın yeni sosial-iqtisadi inkişaf strategiyasının prioritetləri ilə vəhdətdə həyata keçirilməsi bərpaolunan enerji sahəsinə xarici investisiyanın cəlbi üçün geniş imkanlar yaradır. Karbohidrogen sektorunda uzunillik strateji tərəfdaşımız BP ilə bu gün imzaladığımız bu sənəd yaşıl enerji və karbonsuzlaşdırma üzrə əməkdaşlığımızda yeni bir səhifə açacaq. Ümid edirəm ki, qoyuluş gücü 240 MVt olan günəş enerjisi layihəsi üzrə BP ilə fəal işbirliyimiz Qarabağa xarici sərmayənin gətirilməsini təmin edəcək".

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz deyib: "Azərbaycan hökuməti ilə bu sazişi imzalamaqla biz öz müvafiq enerji keçidi hədəflərimizi dəstəkləyən bir imkana doğru birgə işimizdə irəli addım atmış oluruq. Növbəti onillik ərzində BP dünya üzrə bərpaolunan enerji işlənməsinə qoyduğu sərmayəni əhəmiyyətli dərəcədə artırmaq niyyətindədir və artıq uzunmüddətli və uğurlu tərəfdaşlıq qurduğu yerlərdə bu yönümdə yaranan imkanları araşdırır. Azərbaycanda bizim otuz ilə yaxın enerji layihələrini təhlükəsiz və etibarlı şəkildə həyata keçirmək təcrübəmiz var. Düşünürük ki, günəş enerjisi layihəsi imkanı üzrə başladığımız birgə iş yeni bir tərəfdaşlıq sahəsinə yol aça bilər və bu yeni tərəfdaşlıq çərçivəsində BP Azərbaycanda enerji keçidinə mühüm töhfələr verə bilər".

İcra Müqaviləsi çərçivəsində əməkdaşlıq günəş enerji layihəsinin texniki və kommersiya aspektində qiymətləndirilməsini, stansiyanın layihələndirilməsini, maliyyələşdirilməsinin təmin edilməsi və yekun investisiya qərarının qəbulu kimi istiqamətləri əhatə edir. Müvafiq fəaliyyətin həyata keçirilməsi məqsədilə "Rəhbər Komitə"nin yaradılması da nəzərdə tutulur.

Xatırladaq ki, 2021-ci ilin fevral ayında Energetika Nazirliyi və BP şirkəti arasında iri miqyasda karbonsuzlaşdırılmış və inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, o cümlədən Azərbaycanın regionlarında və şəhərlərində bərpaolunan enerji layihələri üçün tələb olunan potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq etmək məqsədilə Anlaşma Memorandumu da imzalanmışdı.

# "Azercell" tələbələr üçün yeni karyera imkanları yaradır

## Lider mobil operator növbəti karyera sərgisində iştirak edib






Fəaliyyəti boyunca gənc nəslin peşəkar və fərdi inkişafına dəstək olan "Azercell Telekom" MMC növbəti karyera sərgisində öz stendi ilə təmsil olunub. İyun ayının 2-də Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən Dünya Məktəbində təşkil edilən sərgidə "Azercell"in İnsan Kapitalının İdarə Edilməsi Departamentinin mütəxəssisləri sərgi iştirakçıları ilə görüşüb, onların suallarını cavablandırıb. Tədbir iştirakçıları şirkətdə mövcud olan vakansiyalar, hər il ənənəvi olaraq tələbələr üçün təşkil edilən təcrübə və təqaüd proqramları, kadrların seçilməsi və işə qəbul prosesləri haqqında ətraflı məlumat əldə ediblər.

Qeyd edək ki, "Azercell" mütəmadi olaraq karyera sərgilərində iştirak edərək öz bacarıq və biliklərinə uyğun iş axtaran gənclərə dəstək olmağa çalışır. Şirkət may ayının 25-i Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin onlayn formatda təşkil etdiyi X Məzun-Karyera Sərgisinə də qatılıb. 63 dövlət qurumu və özəl şirkətlərin iştirakı ilə həyata keçirilən bu sərgidə ümumilikdə 200-dən çox vakansiya və 300-dək təcrübə yeri təqdim olunub.

Azərbaycanda təhsilin inkişafına daim töhfə verən və ölkəmizin nüfuzlu universitetləri ilə əməkdaşlıq edən "Azercell" bu istiqamətdə fəaliyyətini gələcəkdə də davam etdirəcək.

# FHN Dövlət Yanğından Mühafizə Xidməti yanğın-taktiki təlim keçirib

Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidməti (DYMX) Sumqayıtda SOCAR-a məxsus "Azərikimya" İstehsalat Birliyinin Etilen-polietilen zavodunun 30 nömrəli Neft-kimya məhsullarının qəbulu və buraxılması sahəsində yanğın-taktiki təlim keçirib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin keçirilməsində məqsəd yanğın yerində kəşfiyyatın operativ aparılması və yanğın vəziyyətinin qiymətləndirilməsi, yanğına çevik müdaxilə, qüvvələrin əlaqəli və səmərəli idarə edilməsi sahəsində şəxsi heyətin bilik və bacarığının təkmilləşdirilməsi olub.

Təlim şərti olaraq 3 nömrəli "çağırışla" "Çənlərdə neft və neft məhsullarının yanğınının söndürülməsi" mövzusunda keçirilib. Təlimə DYMX Sumqayıt şəhər yanğından mühafizə idarəsinin qüvvə və vasitələri və "Azərikimya" İB-nin müvafiq qrupları cəlb edilib.

Yanğın-taktiki təlim zamanı obyektdə şərti "yanğının" söndürülməsi ilə bağlı bütün zəruri tədbirlər görülüb, qarşıya qoyulan məqsədlərə nail olunub.

Sonda təlimin nəticələri müzakirə olunub, müvafiq tapşırıqlar verilib.

# Fövqəladə Hallar Nazirliyi "Formula-1" yarışı ilə əlaqədar gücləndirilmiş iş rejiminə keçib

Fövqəladə Hallar Nazirliyi (FHN) iyunun 4-6-da Bakıda keçiriləcək "Formula-1" Azərbaycan Qran-Prisi ilə əlaqədar gücləndirilmiş iş rejiminə keçib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla bağlı fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərovun imzaladığı əmrə əsasən, yarışın keçiriləcəyi ərazilərdə aidiyyəti təhlükəsizlik tədbirlərinə riayət olunmasının yoxlanılmasının təşkili, habelə baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ şəkildə aradan qaldırılması məqsədilə nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına müvafiq tapşırıqlar verilib.

Bu çərçivədə yarışın keçiriləcəyi trek və onun ətrafındakı küçələrdə nəqliyyatın hərəkətinə qoyulan məhdudiyyət nəzərə alınaraq, şəhərin mərkəzi hissəsində baş verə biləcək hər hansı fövqəladə hadisənin qarşısının çevik və effektiv alınmasının təmin edilməsi məqsədilə həmin ərazilərdə FHN-in aidiyyəti qəza-xilasetmə qurumlarının müvafiq şəxsi heyət və texnikasının növbətçiliyi təşkil olunub.

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi yeni növ koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlərin davamı olaraq, nazirliyin Tibb Xidmətinin Tibb Mərkəzinin Modul tipli hospitalı üçün Bakı şəhərində açılmış 2300 çarpayılıq modul tipli hospitalın fəaliyyətini təşkil etmək məqsədilə

***təkliflər sorğusu elan edir***

Təkliflər sorğusu 8 LOT üzrə keçirilir.

**LOT-1.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yeni növ koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlərin davamı olaraq, nazirliyin Tibb Xidmətinin Tibb Mərkəzinin Modul tipli hospitalı üçün laboratoriya reaktivlərinin təminatı.

**LOT-2.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yeni növ koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlərin davamı olaraq, nazirliyin Tibb Xidmətinin Tibb Mərkəzinin Modul tipli hospitalı üçün dərman vasitələrinin, sarğı ləvazimatlarının və materialların alınması.

**LOT-3.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yeni növ koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlərin davamı olaraq, nazirliyin Tibb Xidmətinin Tibb Mərkəzinin Modul tipli hospitalı üçün xüsusi tibbi geyimlərin alınması.

**LOT-4.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yeni növ koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlərin davamı olaraq, nazirliyin Tibb Xidmətinin Tibb Mərkəzinin Modul tipli hospitalı üçün pasient və çalışan işçilərin hər gün qida ilə təmin olunması.

**LOT-5.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yeni növ koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlərin davamı olaraq, nazirliyin Tibb Xidmətinin Tibb Mərkəzinin Modul tipli hospitalı üçün tibbi məsrəf materialların alınması.

**LOT-6.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yeni növ koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlərin davamı olaraq, nazirliyin Tibb Xidmətinin Tibb Mərkəzinin Modul tipli hospitalı üçün oksigen təminatının təşkil olunması.

**LOT-7** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yeni növ koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlərin davamı olaraq, nazirliyin Tibb Xidmətinin Tibb Mərkəzinin Modul tipli hospitalı üçün tibbi avadanlıqlara servis xidmətinin göstərilməsi.

**LOT-8.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin yeni növ koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində həyata keçirilən tədbirlərin davamı olaraq, nazirliyin Tibb Xidmətinin Tibb Mərkəzinin Modul tipli hospitalı üçün tibb xidmətinin təşkil edilməsi.

Təkliflər sorğusunda iştirak etmək istəyənlər 17 iyun 2021-ci il saat 17:00-a qədər Bakı şəhəri, Biləcəri qəsəbəsi, Rəşad İsmaylov küçəsi, 124 (Fövqəladə Hallar Nazirliyinin Tibb Xidmətinin Tibb Mərkəzi) ünvanına müraciət edə bilərlər. Əlaqələndirici şəxs: İlham İmanov, telefon: 012-512-14-12.

İddiaçıların təkliflər zərfi 18 iyun 2021-ci il saat 10:00-da yuxarıda göstərilən ünvanda açılacaq.

***Tender komissiyası***

**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 30 aprel 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında, 30 aprel 2021-ci il tarixdə "Azərbaycan" qəzetində dərc edilmiş elan ilə əlaqədar maliyyə məsləhət xidmətlərinin satın alınmasına dair keçirilən açıq tenderdə Tender komissiyasının qərarı ilə tender təkliflərinin son təqdim olunma tarixi və vaxtı 04 iyun 2021-ci il saat 16:00-a, zərflərin açılış tarixi və vaxtı 07 iyun 2021-ci il saat 16:00-a qədər uzadılmışdır.

***Tender komissiyası***

# Azərbaycanda koronavirus infeksiyasından daha 445 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 445 nəfər müalicə olunaraq sağalıb, 128 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 334 min 416 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 325 min 863 nəfər müalicə olunaraq sağalıb, 4929 nəfər vəfat edib. Aktiv xəstə sayı 3624 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 542 min 35 test aparılıb. Dünənki test sayı isə 9563-dür.

# Azərbaycanda koronavirusa qarşı birinci mərhələ üzrə vaksin vurduranların sayı 1 milyon yarıma yaxınlaşıb

İyunun 3-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 50 min 988 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 45219, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 5769 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 2 milyon 418 min 82-yə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 1 milyon 497 min 993, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 920 min 89 nəfərdir.

# Beynəlxalq aləm

## İsrail müxalifəti koalisiya hökuməti təşkil edir



İsrailin hazırkı Baş naziri Benyamin Netanyahunun siyasi rəqibləri koalisiya hökumətinin formalaşdırılması barədə razılığa gəlmişlər. İsrailin ən iri müxalifətçi partiyası olan "Yeş Atid"in lideri Yair Lapid hökumət koalisiyasının təşkil edildiyi barədə ölkə Prezidenti Reuven Rivlini məlumatlandırmışdır.

Dövlət başçısı Lapidi və onun koalisiya üzrə tərəfdaşlarını təbrik etmişdir.

Yeni koalisiya hökumətində 8 siyasi partiya təmsil olunur. Onların parlamentdə 62 yeri var.

Koalisiya sazişinə uyğun olaraq, əvvəlcə "Yamina" partiyasının lideri Naftali Bennett hökumətə başçılıq edəcək. İki ildən sonra növbəlilik prinsipi ilə Baş nazir vəzifəsini Lapid tutacaq.

Yeni hökumətin tərkibi iyunun 14-dən gec olmayaraq Knessetdə rəsmən təsdiqlənməlidir. Nazirlər Kabinetinin təşkili son iki il ərzində ölkədə beşinci parlament seçkilərinin keçirilməsinin qarşısını alacaq.

Xatırladaq ki, Benyamin Netanyahu 2009-cu ilin martından Baş nazir vəzifəsini tutur.

## İki ölkə BMT Baş Assambleyasında səsvermə hüququndan məhrum oldu

İran və Mərkəzi Afrika Respublikası (MAR) iki il ərzində BMT-nin büdcəsinə ödəniş etmədiyi üçün Baş Assambleyada səsvermə hüququndan məhrum edilmişdir. Bu barədə TASS agentliyi xəbər verir.

Ödənişin məbləği onillik dövr ərzində adambaşına düşən gəlir və xarici borc nəzərə alınmaqla ölkənin ÜDM-in orta göstəricisi üzrə müəyyənləşdirilir. Beləliklə, İran beynəlxalq təşkilatın büdcəsinə 16251298 dollar, MAR isə 29395 dollar ödəməlidir.

Məlumata görə, İran və MAR-dan başqa, üç ölkənin - Komor Adaları, Somali, habelə San-Tome və Prinsipinin də BMT-yə borcu var. Lakin İran və MAR-dan fərqli olaraq, sözükeçən üç ölkə Baş Assambleyanın 75-ci sessiyasının sonunadək səsvermə hüququnu saxlayır.

## Nyu Yorkun nəqliyyatı idarəetmə sistemləri haker hücumuna məruz qalıb




Nyu Yorkun nəqliyyatı idarəetmə üzrə kompüter sistemləri kiberhücuma məruz qalmışdır. Hadisə hələ aprel ayında baş vermişdir. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Hakerlər metropoliten vaqonlarının hərəkətinə cavabdehlik daşıyan sistemlərə çıxa bilmədiyindən sərnişinlərin təhlükəsizliyinə təhdid yaranmamışdır. Kibercinayətkarlar həmçinin sərnişinlərin şəxsi məlumatlarını əldə edə bilməmişlər.

Məlumata görə, hakerlər 18 kompüter sisteminin 3-nə daxil olmuşlar. Kiberhücumun vurduğu ziyan cüzi olmuşdur.

## NASA Veneraya iki yeni missiya planlaşdırır

ABŞ-ın NASA kosmik agentliyi Veneranın atmosferini və geoloji xüsusiyyətlərini öyrənmək üçün planetə iki yeni missiya göndərmək planı barədə məlumat vermişdir. "BBC News"un xəbərinə görə, missiyalar Davinci+ və Veritas adı daşıyacaq. Onların hər biri 500 milyon dollar məbləğində maliyyə almışdır. Missiyalar 2028-2030-cu illərdə həyata keçiriləcək.

Davinci+ missiyası Veneranın necə formalaşdığını və inkişaf etdiyini öyrənmək, habelə planetdə nə vaxtsa okeanın olub-olmadığını müəyyən etmək üçün atmosferin tərkibini ölçməlidir. Veritas missiyası süxurların hərəkəti və vulkanların əmələ gəlməsi proseslərini üzə çıxarmaq üçün planetin səthinin xəritəsini 3D formatında tərtib edəcək.

## Tunis sahillərinin yaxınlığında 157 miqrant xilas edildi



Tunis sahillərinin yaxınlığında 157 qeyri-leqal miqrant xilas edilmişdir. Bu barədə Sahil Mühafizəsi Xidmətinin mətbuat katibi Hüsaməddin Cibali məlumat vermişdir.

Cibalinin dediyinə görə, Afrika mənşəli 52 miqrant Tunisin cənubundakı Sfaks şəhərindən İtaliyaya keçməyə cəhd etmiş, lakin onların qayığı aşmışdır. Bundan əlavə, 105 miqrant Cibali, Sfaks, Nabeul və Sus şəhərləri sahillərinin yaxınlığında xilas edilmişdir. Hər il minlərlə miqrant Aralıq dənizi ilə Afrikadan Avropaya getməyə cəhd edir. Onların bir qismi buna nail olur, çoxları isə yolda həyatını itirir. BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının İdarəsinin nümayəndəsi Şarlotta Sami ötən ay bildirmişdi ki, cari ilin əvvəlindən bəri Avropaya getməyə cəhd edən azı 500 miqrant dənizdə batmışdır.



2021-ci il “Nizami Gəncəvi ili”dir

*Ucalmaq istəsən bir kamala çat,*
*Kamala ehtiram göstərir həyat!*






## Adil Nuşirəvan və bayquşların hekayəti

O qədər dəyişdi ki, şahın halı, əhvalı,
Naləsindən yumşaldı atının polad nalı.
Ordugaha dönüncə təzələdi işləri,
Vilayəti bürüdü həssas nəvazişləri.
Əli qələmli, adil bir şah gördülər onu,
Fərman verib ürəklə, kəsdi zülmün yolunu.
Boğdu cövrü, cəfanı, car çəkdi ədaləti,
Axır nəfəsinədək qorudu səadəti.
Zəmanədə nə qədər devrim - inqilab oldu,
Nuşirəvan ölsə də, onun haqq səsi qaldı.
Onun adı yazılmış sikkənin üzərində,
“Adil” sözü gördülər xoş günlərin birində.
Bəli, ondan dünyada parlaq xatirə qaldı,
Ədalətin zəngini kim ki, çaldı, uçaldı.
Könül yıxma, könül tik, can qoy xalqın uğrunda,
Səndən mehrini onda əsirgəməz Tanrı da.
Tap, sənə yar olsunlar Günəşə at çapanlar,
Dostun səfası üçün cəfa çəkən - bəxtiyar.
Sən ucalmaq istəsən, dərdi al, dərmanı ver,
Onda hamı deyəcək: - Qulunam, fərmanı ver!
Məhəbbətində qızğın, nifrətində soyuq ol,
Günəş kimi, Ay kimi payla nurunu bol-bol.
Hər kəs yaxşılıq etsə, yatmış bəxti ayıldar,
Bir gün həmən yaxşılıq öz üstünə qayıdar.
Sən çərxin gərdişinə qiyas gözüylə baxsan,
Yaxşı-yaman gündə də haqşünas olacaqsan!
Bu hərlənən günbəzin dal seyrinə bir müddət,
Hər şeydən üstün nədir? Tanrımıza itaət!
Üz döndər suçlarından, yaxşılıq et, haqqı tap,
Təki peşman oluban çəkməyəsən dərd, əzab.
Üzrə, hiyləgərliyə əl atma, bəyənilməz,
Gözəl işlər gözləyir dünyada səndən hər kəs.
Sözlə başa gəlsəydi bu dünyanın nizamı,
Fələklərin çiynində yer tutardı Nizami.

## Süleyman peyğəmbər və əkinçinin hekayəti

Götür-qoy etsələr də bu dünyada nə qədər,
Hər bədənə yaraşan münasib don biçərlər.
Hər eşşək çəkə bilməz İsa yükünü, qardaş!
Dövlətin işlərini qavraya bilməz hər baş.
Kərgədan fil boynunu parçalar, düşsə eşqə,
Ölü bir çəyirtkəni zorla çəkər qarışqa.
Yüz nəhri nuş etsə də, səs çıxarmaz ümmanlar,
Arx isə bircə seldən coşar, hay-haray salar.
Heç kəs gizlənə bilməz, bu göy qübbə altında,
Hər kəs öz mərdliyilə çatır şöhrətə, ada.
Dövlətliyə yaraşır qeyrət, zəhmət, məşəqqət,
Mərdanələr hər dərddən qılar məgər şikayət?
Hər kəs Tanrı sirrini saxlamağa qadirmi?
Ya naz çəkə bilirmi çınlayan bir saz kimi?
Naz etməkdən söz açma, yalnız xublar nazlanar,
Nizaminin işidir naz çəkmək, ey tacidar!

## Qarı və Sultan Səncərin hekayəti

Yığ başına ağlını əcəl gəlib yetməmiş,
Bir ədalət qəsri tik, əlindən gəlirsə iş.
Ədlin çilçıraq kimi işıqlatsın gecəni,
Bu gün, sabah, həmişə bəxtiyar etsin səni.
Yadda saxla, nə söylər sənə ağbirçək qarı:
Qanadlandır, şadlandır yetimləri, dulları.
Qapazını geri çək yoxsulların başından,
Yoxsa oxlanacaqsan məzlumlar qarğışından.
Sən ki ox yağdırırsan hər guşəyə bu qədər,
Girəcəyin guşədən bixəbərsən, bixəbər.
Cahan qalalarını açan bir açardı şah,
Qapılar bağlamağa gəlməmisən, ol agah!
Səni şah dikdilər ki, azaldasan cəfanı,
Bir könül yaralansa, sən olasan dərmanı.
Zəiflərin adəti - nazla sığınmaq sənə,
Sənin borcun - onların sığal çəkmək telinə.
Qulağını geniş aç, bu möhtac, bu yalavac,
Bu ac zavallıların komasına işıq saç.

## İsa peyğəmbərin hekayəti

Qorxu ilə, ümidlə dənizdən dürr tapan var,
Sədəfini yandırıb tozuyla diş ağardar.
Özgəsinin eybini, öz hüsnünü görmə tək,
Öncə öz nöqsanını görə bilən göz gərək.
Demirəm ki, aynanı al əlinə, ya alma,
Öz eybini görə bil, özünə heyran olma!
Niyə gərək özünü bahar kimi bəzəmək?
Saqın! Soldurar səni zaman bahar gülü tək.
Eybini örtən geyim zərif toxunduğundan,
Tanrı doqquz pərdə də göydən endirmiş əlan.
Bu göy yuvarlığının içində, ey gözü dar,
Söylə, sənin boynuna həlqə olmayan nə var?
İtsənmi ki, taxasan Sürəyya xaltasını?
Eşşəksənmi, çəkəsən yük daşıyan İsanı?
Fələk nədir? Atılmış, tərk edilmiş dul qarı,
Cahan nədir? Saralmış bağların solğun barı!
Hər köhnəni, təzəni bircə-bircə sal yada,
Bu dünyada nə varsa, dəyməz bir arpaya da.
Yemə dünya qəmini, xacə, tərk et oyunu,
Qüssə çəksən, qoy yerə Nizaminin payını.

● Klassik irsimiz

# Nizami qələmində obrazlaşan simalar



**Elmi tarixşünaslıqda qəbul edilmiş inkaredilməz gerçəklikdir ki, tarixi həqiqətlərin öyrənilməsinin ən etibarlı mənbələrindən biri də sözügedən dövrdə yaşayıb-yaratmış, ictimai-siyasi, sosial, ədəbi-mədəni hadisələrin bilavasitə canlı iştirakçısı olmuş bədii söz sənətkarlarının qələminə məxsus ədəbi örnəklər, xüsusilə də süjet və kompozisiya imkanlarının genişliyi ilə seçilən epik əsərlərdir. Bu baxımdan XII əsrin, xüsusilə tarixi şəxsiyyətlərimizin öyrənilməsi üçün dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin poemaları qiymətli mənbələrdir. Şairin bədii obrazına çevrilmiş, əsərin ideyasının açılmasına xidmət edərək Nizami qələmi ilə ibrətamiz hekayətlərin qəhrəmanı kimi yaddaşlara həkk olunmuş surətlərin rəngarəng qalereyasında “Məxzənül-əsrar” poemasındakı Adil Nuşirəvan, Sultan Səncər, Harun-ər Rəşid, Süleyman peyğəmbər, İsa peyğəmbər və başqaları kimi tarixi şəxslər xüsusilə seçilir.**

Əsəri üçün bədii obraz kimi seçdiyi şəxsiyyətlərin tarixdə daha çox hansı keyfiyyət və özəllikləri ilə qaldıqlarından yaradıcı şəkildə istifadə edən şair bu sahədə də təxəyyülünün sonsuz imkanlarını sərgiləmişdir. Məsələn, Adil Nuşirəvan haqqında hər kəsə məlum olan Nuşirəvan və bayquşların söhbəti əhvalatını xatırlayaq. Nizami bayquşların söhbətindən təsirlənib nəticə çıxaran və ölkədaxili siyasətini kökündən dəyişən, bütün fəaliyyətini xalqın rifahı istiqamətinə yönəldən hökmdarın adının tarixdə “ədalətli” padşah kimi qalmasını özünəməxsus şəkildə izah edir:

*Pak qəlblər ölkəsində onun adı*
*Sikkədə “ədalətli” yazıldı.*
*Onun aqibəti yaxşılıqla qurtardı,*
*Ədalət qapısını döyənlərin*
*hamısına bu ad nəsib oldu.*

Nizaminin bədii obraz kimi işlədiyi tarixi şəxsiyyətlər arasında Süleyman peyğəmbər də diqqəti cəlb edir. Şair “Dünyanın qəzaları haqqında” üçüncü məqaləti üçün “Süleyman və qoca əkinçinin hekayəsi” illüstrativ hekayətini qələmə almışdır. Məlumdur ki, Süleymanın adı tarixdə mehriban peyğəmbər, ədalətli padşah və hikmətli bir alim kimi tanınmışdır. Nizaminin yaratdığı Süleyman obrazı da bu xüsusiyyətlərə malikdir. O, məmləkətində güzəran sürən adi bir kəndlinin də qeydinə qalır, onun işləri ilə maraqlanır, həmsöhbət olub onu səbirlə dinləyirdi.

Bütün poemalarında böyük ehtiramla andığı İsa peyğəmbər də şairin ədəbi qəhrəmanına çevrilmişdir. “Məxzənül-əsrar”ın onuncu hekayəsi “İsanın - Allahın ona salamı olsun! - dastanı” adlanır. Hekayənin əsas ideyası insanları ən xoşagəlməz məqamda da yaxşını, gözəlliyi görə bilməyə çağırmaqdır:

*Başqalarının eybini və öz yaxşılığını görmə,*
*Nəzərini aşağı - öz yaxana sal.*

“Məxzənül-əsrar”ın ən məşhur hekayətlərindən birinin qəhrəmanı da Sultan Səncərdir. Sultan Səncər haqqında mənbələr yazır: “Büyük Selçuklu Sultanı Melikşah'ın oğlu olan Sencer 1086'da Sincar'da doğdu. Küçük yaşından itibaren devlet tecrübesi kazanan Sencer, ağabeyleri Berkyaruk ve Muhammed Tapar zamanında devlet hizmetinde bulunarak, doğuda çıkan isyanları bastırdı. Buradaki başarıları üzerine Horasan melikliğine tayin edilen Sencer, Haziran 1102'de Selçuklu Devleti'ne saldıran Karahanlı Hükümdarı Kadir Han'ın saldırılarını bertaraf etti. Ayrıca Gaznelileri, Selçukluya bağladı”.

“Qarı və Sultan Səncərin hekayəsi”ndə Nizami Sultan Səncərin ölkədaxili siyasətini bir növ təhlil etmişdir. Bu hekayədə Nizaminin dövlətin daxili siyasətinə dair görüşləri, demokratik dövlətin əsas prinsiplərinə dair fikirləri də əksini tapmışdır. Yuxarıdakı sitatdan da məlum olur ki, Sultan Səncər hərbi əməliyyatlardakı uğurlarına görə Xorasan hakimi təyin edilmişdir. Bu fakt “Məxzənül-əsrar”dakı hekayədə də əksini tapmışdır.

*Xorasan vilayətini tutmuş Səncər*
*Bu sözə əhəmiyyət verməyib özünə ziyan verdi.*

Hekayədə Səncər ədaləti tanımayan, xalqın qeydinə qalmayan hökmdar kimi təsvir edilmişdir.

*Ey məlik, sənin qayğını mən az görmüşəm,*
*Lakin bütün ili səndən zülm görmüşəm.*

Və ya:

*Mən səndə nə hakimlik, nə ədalət görürəm*
*Və görürəm ki, (qiyamətdə) sən əzabdan*
*azad olmayacaqsan.*

Daha sonra:

*Şəhərlilərin evini yıxmısan,*
*Kəndlilərin xırmanını dənsiz qoymusan.*

Nizami bu hekayədə 1139-cu ilin sentyabr ayında Gəncədə baş vermiş dəhşətli zəlzələdən sonra Gürcüstan çarının Gəncəyə hücum edərək şəhəri yağmalamasını və əhalini əsir almasını da xatırlayır:

*Yetimlərin malını qəsb etmək (yaxşı) iş deyil,*
*Ondan əl çək, o ki Abxaz qarəti deyil.*

“Qarı və Sultan Səncərin hekayəsi”ndə diqqəti cəlb edən məqamlardan biri də Nizaminin türk dövləti və türk hökmdarlarının ədaləti haqqında söylədiyi fikirlərdir:

*Elə ki, türklərin dövləti ucaldı,*
*Məmləkətdə ədalət hakim oldu.*

Akademik Teymur Kərimli yazır ki, “türk padşahı Səncərin siyasi deqradasiyası işığında ...Nizami bütün türk tarixinə qiymət verir; ... “qızıl keçmişlə” korlanmış müasirliyi müqayisə edir və təəssüflənir”. Səlcuq hökmdarlarının ədalətə meyilli olduqlarını açıqlayan akademik Yevgeni Bertels də bu barədə yazır: “Tarixçilərin məlumatlarından anlaşıldığına görə, ilk səlcuqlar öz libasları və silahları ilə qonşularından, demək olar ki, heç də seçilmirdilər. Yalnız az əvvəl qəbul edilmiş islamiyyət onlarda bir heyranlıq hissi doğurmuşdu; onlar islamiyyətin ideallarını həyata keçirməyə, ədalət və həqqaniyyəti işdə göstərməyə çalışırdılar”.

Akademik Məmməd Cəfər Cəfərov şairin hökmdarlara, xüsusən də Azərbaycan Atabəylərinə münasibətindən geniş bəhs edərkən onun Sultan Səncər haqqındakı fikirlərinə də toxunmuşdur: “...Nizami Alp Arslan, Məlik şah kimi sultanlar barədə yaxşı fikirdə olduğu halda, Sultan Səncər hakimiyyətini rəiyyət üçün böyük fəlakət hesab etmişdir. Bu da təsadüfi deyildi. Həqiqətən, tarixi mənbələrdə göstərildiyi kimi, Səncər hakimiyyətinin xüsusən ilk illəri mərkəzi hökumətin xeyli zəiflədiyi, xəlifəliyin əl-qol açdığı, hər yerdə əmirlərin, canişinlərin özbaşınalığının artdığı illər idi”.

Nizaminin “Məxzənül-əsrar”dakı qəhrəmanlarından biri də beşinci və ən məşhur Abbasi xəlifəsi Harun ər-Rəşiddir. Harun ər-Rəşid miladi 763-cü ildə İranın Rey şəhərində (indiki Tehran yaxınlığında) doğulmuş, xəlifə olan qardaşı Hadi 786-cı ildə öldükdən sonra Xilafətə başçılıq etməyə başlamışdır. 24 mart 809-cu ildə Xorasanda Tus şəhərində vəfat etmiş və orada da dəfn olunmuşdur. Harun ər-Rəşidin xilafəti dönəmində İslam xilafəti hərbi, siyasi, mədəni və elmi baxımdan sürətlə inkişaf etmişdir. Xəlifə Harun ər-Rəşid haqqında zamanında yazılmış bir çox şəxsi və dövləti məsələlərə aid əhvalatlar, rəvayətlər, hekayə və məsəllər günümüzə qədər gəlib çatmış, məşhurlaşmışdır. Bunların bir çoxu həqiqəti əks etdirərək tutarlı səhih sənədlərə əsaslansa da, bəziləri də uydurulmuşdur. Nizaminin “Məxzənül-əsrar”a daxil etdiyi hekayət də ibrətamiz və didaktik mahiyyət daşıyır. Şair öncə Harunun hakimiyyəti dövründə xilafətin yüksək inkişafını qeyd edir, sonra hekayətə başlayır:

*Xilafətin dövrü Haruna çatanda*
*Abbasın bayrağı çərxə ucaldı.*

Hekayənin əsas ideyası qızılın, var-dövlətin mənəviyyatı yoxsul olan, öz kimliyini, həyati missiyasını dərk etməyən insanın daxili dünyasını iflic etməsi, onun özünü unutması və s. kimi hallara gətirib çıxara bilməsinin ibrətamiz şəkildə oxuculara çatdırılmasıdır. “Məxzənül-əsrar”ın hekayə qəhrəmanları içərisində “yarıəfsanəvi, yarıtarixi” İran hökmdarları Firudin və Cəmşid də yer almışdır. Qeyd edək ki, hər iki obraz Firdovsi “Şahnamə”sinin əsas qəhrəmanlarındandırlar.

Nizami Gəncəvi “Məxzənül-əsrar” məsnəvisində onlarca tarixi, dini-tarixi, əfsanəvi-tarixi şəxsiyyətin, ədəbi qəhrəmanın adını çəkmiş, həmin tarixi simalarla bağlı əhvalat və hadisələrə işarələr etmişdir. Bir sözlə, “Xəmsə”nin ilk əsəri bu baxımdan rəngarəng palitranı xatırladır.

Nizami bədii üsulun verdiyi imkanlardan istifadə edərək məhz dövrünün hakim dairələrinə ünvanladığı mesajlarını tarixdən alıb əsərinə gətirdiyi simalara müraciət şəklində çatdırmışdır.

***Təhminə BƏDƏLOVA,***
***AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Nizamişünaslıq şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent***



# Hər beyti bir qəzələ bərabər olan şair

**Azərbaycanın şair oğlu Nizami Gəncəvi klassik dünya ədəbiyyatı xəzinəsini beş məşhur poeması - “Xəmsə”si ilə bərabər, lirik şeirləri ilə də zənginləşdirib. Təəssüf ki, Nizami Gəncəvinin lirik şeirləri tam şəkildə dövrümüzə yetişməyib. Zamanəmizə qədər çatmış nümunələr isə onun bu sahədə də dövrünün ən qüdrətli şairlərindən biri olduğunu təsdiqləyir.**

### Şairin iftixarı - qəzəlləri...

Tədqiqatlarda qeyd olunub ki, dahi şair Nizami bədii yaradıcılığa lirika ilə başlayıb və tanınıb. Sonralar da yalnız poemalar qələmə almayıb. Şair bütün yaradıcılığı dövründə lirik şeirlər yazmaqda davam edib. O, lirik şeir sahəsindəki fəaliyyətinə məşhur “Qocalıq” şeiri ilə yekun vurub.

Dahi şairin lirik irsindən qalan nümunələr klassik şərq şeirinin yalnız qəsidə, qəzəl və rübai şəkillərini əhatə edir. Sənətkarın əldə olunan lirik əsərləri içərisində say baxımından çoxluq təşkil edən isə qəzəlləridir. Nizami Gəncəvi epik əsərlərində lirik şeirləri, xüsusilə qəzəlləri ilə fəxr etdiyini bildirib, onların məclislərin bəzəyi, dillərin əzbəri olduğunu iftixarla qeyd edib. Tədqiqatçılar da bunları əsas götürərək Nizami Gəncəvinin yaradıcılığında başqa lirik şəkillərə nisbətən qəzələ daha çox yer verdiyini vurğulayıblar.

Şair qəzəllərinin böyük hissəsinin sonunda öz imzasını yazıb. Dövrümüzə çatmış yüzdən çox qəzəlindən doqquzunda isə müəllif təxəllüsü ilə bərabər bəzi hökmdarların adlarını da qeyd edib. Belə qəzəlləri Nizaminin digər şeirlərindən məzmun və formaca fərqli deyil.

Tədqiqatçılarının ehtimalınca, şair bu cür sonluqlarla bitən qəzəlləri ayrıca əsər kimi qələmə almayıb, mədhiyyə-qəsidələrin “giriş” hissəsini əvəz edib. Araşdırıcı X.Yusiflinin qənaətincə, Nizami divanından köçürən katiblər onların mədh hissəsini ataraq, qəzəl hissəsini saxlayıblar.

### Şairliyi əyləncə məclislərindən azad edən şair...

Şairin yaradıcılığı barədə tədqiqatlarda bildirilib ki, Nizami Gəncəvi ilk poemasına - “Sirlər xəzinəsi”nədək uzun yaradıcılıq yolu keçib, yeni ruhlu, yeni məzmunlu lirik şeirləri ilə geniş şöhrət qazanıb. Şair həmin dövrdə qələmə aldığı lirik şeirlərini yada salaraq onların qısa səciyyəsini, ümumi ideya istiqamətini də nəzərə çatdırıb:

*Şeir mənimlə somiələrdə qərar tutdu,*
*Şairlik əyləncə məclislərindən azad oldu.*
*Zahid və rahib mənə tərəf çapdılar,*
*Hər ikisi mənim üstümə xirqə atdılar.*

Tədqiqatçıları bildiriblər ki, bu sətirlərdən Nizaminin ilk gənclik dövründə yazdığı şeirləri ilə ədəbiyyatı dar saray mühiti çərçivəsindən çıxardığı, geniş kütlələrə məxsus etdiyi bəlli olur. Dərin məzmunlu, yüksək sənətkarlıqla qələmə alınmış bu şeirlər geniş yayılaraq şöhrətlənib, zahid və rahibləri belə hərəkətə gətirib. Ancaq Nizami özünü hələ şeir gülüstanında qönçə qızılgülə bənzədərək daha yüksək əsərlər yaratmaq qüdrətindən inamla, fəxrlə söz açıb:

*Mən hələ qönçə misal bir qızıl güləm,*
*Şimal küləyinin intizarını çəkirəm.*
*Əgər təzə sözlər göstərsəm,*
*Qiyamət surunun səsi eşidilər.*

Başqa bir poemasında - “Xosrov və Şirin”də müəllif qəzəllərinin Eldənizlər sarayında xanəndələr tərəfindən oxunduğundan iftixarla yazıb. Qızıl Arslan tərəfindən görüşə dəvət olunan şair şahın düşərgəsinə yaxınlaşarkən məclisdə xanəndələrin onun qəzəllərini oxuduğunu eşidib:

*Gözəllər Nizami qəzəllərini*
*Cəngin iniltili səsi altında oxuyurdular.*

Həmin əsərdə şair onun Qızıl Arslanın tərifinə həsr etdiyi mədhiyyənin ravvin tərəfindən oxunduğunu da vurğulayıb:

*Ravvin daxil oldu və dürr kimi bir səna oxudu ki,*
*O məclis xəzinəylə doldu.*

Lirikası haqqında “Leyli və Məcnun” poemasında daha ətraflı məlumat verən şair məhz “Divan”ını qarşısına qoyub sevincli əhvali-ruhiyyədə olduğu zaman Şirvanşah I Axsitandan “Leyli və Məcnun” əfsanəsi mövzusunda dastan yaratmaq barədə sifariş aldığını açıqlayıb:

*Bir gün xoşbəxtlik və şadlıqla*
*Keyqubad kimi sevinirdim.*
*Hilal qaşlarım açıq idi,*
*Nizami divanımı qarşıma qoymuşdum.*

Qəzəllərindən birinin sonunda şair Şirvanşah I Axsitanı öz divanının sahibi adlandırıb. Qəsidənin girişini xatırladan həmin qəzəlin sonunda Nizami gözələ müraciət edərək yazıb:

*İrəli get, Nizami, sənin söhbətinlə ömrü başa vursun,*
*Padşahların tacı, mənim divanımın sahibi Əxsitan.*

X.Yusiflinin ehtimalına görə, “Leyli və Məcnun”u tamamladıqdan sonra Nizami divanını da Axsitana göndərib. Ancaq, qeyd etdiyimiz kimi, şair yaradıcılığının sonunadək lirik şeirlər yazıb.

### “Bu şeirlərin hər kəliməsində bir dünya söz və məna incəlikləri vardır”

Şairin qəzəlləri sırasına daxil edilən bir sıra ictimai-didaktiki şeirlər də var. X.Yusifli bu barədə yazıb: “Şairin divanı əldə olmadığından bu şeirlərin qəzəl olub-olmadığını müəyyənləşdirmək çətindir. Ola bilsin ki, həmin şeirlər ayrı-ayrı qəsidələrdən götürülmüş parçalardır”. “Təzkirətüş-şüəra”da da həmin şeirlərdən biri qəsidə kimi verilib. Dil, ifadə və məzmun cəhətdən şairin qəsidələrinə daha yaxın olduğu üçün Y.E.Bertels də həmin şeiri qəsidə kimi çap etdirib.

Y.Rıpka məqaləsində forma mükəmməlliyinə, real məzmununa görə ancaq Nizami kimi bir ustadın qələmindən çıxdığına şübhə etmədiyi qəzəllər barədə yazıb: “Bu şeirlərin hər kəliməsində bir dünya söz və məna incəlikləri vardır”. O, “Xəmsə” ilə qəzəllərin bədii cəhətdən bir-birindən ayrılmaz olduğunu qeyd edib.

Şərq ölkələrində Nizami lirikasının öyrənilməsi ilə təzkirəçilərdən sonra ilk dəfə məşğul olan alimlərdən biri - Şibli Nümani yazıb: “Sədi qəzəl şəklinin banisi olsa da, bu şəklin canı olan aşiqanə şeirin, məhəbbət nəğmələrinin yaradıcısı Nizamidir... İnsafla desək, Nizami dastanlarının hər bir beyti bir qəzələ bərabərdir”.

Şairin yaradıcılığını tədqiq edən X.Yusiflinin fikrincə, Nizamiyə məxsus olduğu şübhə doğurmayan bütün qəzəllərdə başdan-başa real insan sevgisi, insan münasibətləri tərənnüm olunub. Nizami Gəncəvinin qəzəllərini bu gün də sevdirən, dillər əzbəri edən səmimiyyətdir. Bu əsərlərdə yaşanılmış hiss və duyğular, sevinc və qüssə, saf məhəbbət ifadə olunub.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

